# AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
H.Əliyev

29 aprel 2017-ci il №15(8731) www.muallim.edu.az Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı muallim@edu.gov.az


# Yeni məzmunun yeni qiymətləndirməsi

## IX sinif şagirdlərinin buraxılış imtahanlarının yeni qaydası tətbiqi bilik və bacarıqları ölçür



Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə 2008-ci ildən yeni təhsil proqramlarının tətbiqinə başlanılıb. Hazırda bu proses məntiqi yekununa çatıb. Yeni tədris proqramları ilə dərs keçən və hazırda IX sinifdə oxuyan şagirdlərin məktəbdə özündən əvvəlkilərdən fərqli nə öyrəndiyi müəyyənləşdirilir.

Aydındır ki, həmin proqramlarla aparılan tədris prosesi təhsilalanlar üçün yeni keyfiyyət əmsalı formalaşdırıb. Ona görə də həmin keyfiyyət mərhələsindən keçən hazırkı IX sinif şagirdlərinin imkanlarının dəyərləndirilməsi günümüzün ən aktual məsələlərindəndir.

Təhsil üzrə ekspert Kamran Əsədovun fikrincə, yeni qaydalarla keçirilən buraxılış imtahanları əslində zərurət idi: “2008-ci ildən tətbiq edilən yeni təhsil proqramları yeni məzmun standartlarına uyğun olaraq 2017-ci il buraxılış imtahanlarında yeni yanaşma tələb edirdi. Məzmun dəyişikliyi məhz həmin standartın tələbidir: artıq yaddaş məktəbindən təfəkkür məktəbinə keçməliyik. Yeni proqramın tətbiqi kifayət qədər mütərəqqi addım idi. Müəllim və şagirdlər tərəfindən nə qədər çətinliklə qəbul edilsə də, əslində bu, dünyanın tələbidir. Yaddaş məktəbi deyil, bilik və bacarıqları təcrübədə tətbiq edə bilənlər nəsli yetişdirilməlidir”.

⇨Ardı səh.4

# AMEA-nın ümumi yığıncağı keçirilib

Aprelin 28-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 2016-cı ildəki elmi və elmi-təşkilati fəaliyyətinə həsr olunmuş ümumi yığıncağı keçirilib. Öncə tədbir iştirakçıları AMEA-nın institut və təşkilatlarının elmi nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar. AMEA-nın institut və təşkilatları, regional bölmə və elmi mərkəzləri, eləcə də Rəyasət Heyəti üçün ayrılmış guşələrdə Azərbaycan, rus və ingilis dillərində müxtəlif nəşrlərin və istehsal olunan yeni məhsulların nümayişi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Ümumi yığıncağı giriş sözü ilə AMEA prezidenti, akademik Akif Əlizadə açıb. Akademik AMEA-nın 2016-cı ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında geniş məlumat verib. Ötən ilin mühüm elmi nailiyyətlər və uğurlarla yadda qaldığını qeyd edən akademik qeyri-neft sektorunun inkişafı baxımından bir sıra mühüm dövlət tədbirlərinin həyata keçirildiyini, ölkədə dövlət siyasətinin əsas prioritetlərindən olan sosial layihələrin uğurla davam etdirildiyini bildirib.

Hesabat ilində dövlət müstəqilliyimizin bərpasının 25 illiyi ilə əlaqədar Akademiyada elmi nailiyyətlərin əks olunduğu bir sıra nəşrlərin işıq üzü gördüyünü xatırladan Akif Əlizadə akademik Ramiz Mehdiyevin ümumi redaktorluğu ilə çap olunan “Müstəqillik yollarında-25” kitabını xüsusi vurğulayıb. Qeyd edib ki, nəşrdə bu illər ərzində keçilmiş məsuliyyətli və şərəfli yol, qazanılan mühüm nailiyyətlər öz əksini tapır.

2016-cı ildə “Elm haqqında” Qanunun təsdiq olunması ilə elm sahəsində normativ-hüquqi bazanın təkmilləşdirildiyini deyən məruzəçi hesabat ilində Rəyasət Heyəti tərəfindən “Azərbaycan elminin inkişaf doktrinası”nın layihəsinin hazırlandığını, təsdiq üçün ölkə başçısına təqdim edildiyini qeyd edib.

⇨Ardı səh.4

# Azərbaycanlı tələbələr qızıl medal qazandı

Kiyev şəhərində “Qızıl Bayt 2017” beynəlxalq kompüter çempionatının final mərhələsi keçirilib. Çempionatda 300-dən artıq iştirakçı 10 fərqli nominasiyalarda innovativ layihələrini təqdim edərək 20000 ABŞ dolları həcmində hədiyyə fondu uğrunda mübarizə aparıb.

Müsabiqədə ilk dəfə iştirak edən azərbaycanlı tələbələr 6 nominasiya üzrə öz layihələrini təqdim ediblər. Tələbələrimiz yarışdan iki qızıl və iki bürünc medalla qayıdıblar. Qalib tələbələrdən biri 6 aydır ki, fəaliyyətdə olan İT Step Akademiyasının tələbəsidir.

“WEB Design” nominasiyası üzrə 1-ci yerin qalibləri Elvin Cuvarov, Orxan Qədirov (“E-Tap” komandası), “Character Design” nominasiyası üzrə 1-ci yerin qalibi Vaqif Rüstəmov, “Startup Challenge” nominasiyası üzrə 3-cü yerin qalibləri Əsəd Yusubov, Nicat Cavadov (“JavaSet” komandası), “Internet of Things” nominasiyası üzrə 3-cü yerin qalibləri Tural Səlimli, Məmməd Kərimli və Fəhmin Zakirli (“Savefy” komandası) olub.

Müsabiqə Azərbaycanın və Ukraynanın təhsil nazirliklərinin, Kiyev Şəhər Administrasiyasının dəstəyi ilə keçirilib. Layihələri Ukraynanın və dünyanın ən böyük İT şirkətlərinin nümayəndələri qiymətləndiriblər.

# Yaradıcı müəllimin əsəri: “Ən yaxşı dərs”

Dərs müəllimin əsəridir. Belə deyib ustad pedaqoqlar. Və bununla müəllimə, onun təlim fəaliyyətinə, bir növ, yeni status veriblər. Əsər yaradıcılıq məhsuludur. Demək, müəllim də yaradıcıdır. Əslində burada qeyri-adi bir şey də yoxdur. Müəllim elə yaradıcı olmalıdır. Xüsusən də müasir dövrdə, müasir dərsi demək üçün...

Son illər müəllimlər arasında keçirilən çoxlu sayda müsabiqələr, diaqnostik qiymətləndirmələr, tədris ocaqlarında aparılan monitorinqlər göstərir ki, məktəblərimizdə belə müəllimlər heç də az deyil. Və onların yüksək peşəkarlıq və səriştəni yaradıcılıqla birləşdirərək keçdikləri dərsləri elə əsər adlandırmaq olar.

Belə qabaqcıl müəllimlərin dərslərinin dinlənilib, təcrübələrinin yayılması digər müəllimləri də yaradıcı axtarışlara qoşmağa, nəticədə dərs - əsərlərin çoxalmasına, tədrisin keyfiyyətinin yüksəlməsinə şərait yarada bilər. Məhz bunu nəzərə alan Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdindəki Təlimə Dəstək Mərkəzi “Ən yaxşı dərs”lərin dinlənilməsini özünün fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirib və aprelin 17-də bu işə start verib. Bu barədə verilən açıqlamalarda “Ən yaxşı dərs”lərin I-XI siniflərdə bütün fənlər üzrə təşkil olunduğu, dərslər dinlənildikdən sonra təhlil və müzakirəsinin aparıldığı, dinlənilən dərslərin müxtəlif meyarlar, o cümlədən dərsdə müəllimin innovativ üsul və vasitələrdən necə istifadə etməsi, dərsin bütün mərhələlərində şagirdlərin fəal iştirakına necə nail olması, seçilmiş mövzunun proqrama uyğunluğu və s. baxımından qiymətləndirildiyi qeyd olunur. Bəs, bu işə nə kimi hazırlıqla başlanılıb? On gündən çoxdur ki, start götürən dərsdinləmə prosesi necə gedir? Hansı müəllimlərin dərsləri və kimlər tərəfindən dinlənilir? Dərsdinləmə nə vaxtadək davam edəcək? Suallarımıza Təlimə Dəstək Mərkəzinin direktoru Samirə Bektaşi aydınlıq gətirdi.

Onun dediklərindən məlum oldu ki, günün aktual mövzularından olan “Ən yaxşı dərs”lərin dinlənilməsi işinə ötən ildə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən başlanıb. Bir sıra məktəblərdə müəllimlərin dərsləri dinlənilib, bu işə valideynlər də cəlb olunub.

⇨Ardı səh.2

# Azməsrəfli, asan daşınan və istənilən relyefdə quraşdırılan

## Qəzalı məktəblər modul tipli məktəblərlə əvəzlənir



Ölkə üzrə qəzalı məktəblərin modul tipli məktəblərlə əvəzlənməsi davam etdirilir. Ötən ilin sentyabrında regionların sosial-iqtisadi inkişafına həsr edilmiş müşavirədə Prezident İlham Əliyevin 2017-2018-ci illərdə qəzalı vəziyyətdə olan məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi ilə bağlı tapşırığına uyğun olaraq ilk pilot layihə çərçivəsində 3 məktəb təhvil verilib. Bunlardan biri İsmayıllı, digəri Göyçay, üçüncüsü isə Lənkəranda inşa edilib.

Bu məktəblərlə tanış olmaq üçün Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən mediatura biz də qoşulduq. Səfərimiz İsmayıllı və Göyçay rayonlarının ucqar kəndlərinə idi.

Məlumat üçün deyək ki, 2017-2018-ci illərdə 232 modul tipli məktəbin quraşdırılması planlaşdırılıb. Cari ilin sonuna qədər isə 100 belə məktəb təhvil veriləcək. Hazırda 17 rayonda 23 məktəbin quraşdırılmasına başlanılıb. Mayın sonunadək daha 19 məktəbin quraşdırılması nəzərdə tutulub. Bundan başqa, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən tədris prosesinin dayandırılmaması məqsədilə səyyar modul tipli məktəblər də quraşdırılacaq.

“İsmayıllı rayonunun Yenikənd kəndində tikilən məktəb ilk modul tipli təhsil ocaqlarındandır”. Bu barədə danışan Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib ki, modul tipli məktəblərin yaradılmasının üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır.

⇨Ardı səh.3

## Bu sayımızda


Leyla Əliyeva MDU nəzdində Asiya və Afrika Ölkələri İnstitutunda olub ⇨səh.2

Məktəblinin dərsliyi və müəllifi... ⇨səh.5

Finlandiya təhsil modeli: mif, yaxud reallıq? ⇨səh.7

YUNESKO: Universitet təhsilinə tələbat sürətlə artır ⇨səh.9

IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş idman tədbirləri başa çatdı ⇨səh.14

## RƏSMİ XRONİKA



- Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Sumqayıtda inşa olunan karbamid zavodunda tikinti işlərinin gedişi ilə tanış olub.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da SOCAR-ın Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olub.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 25-də imzaladığı sərəncamla sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən şəxsləri orden və medallarla təltif edib.
- Dövlət başçısı İlham Əliyev aprelin 25-də Ə.Ə.Amaşovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin etimadnaməsini qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Niderlandın Kralı Villem-Aleksandra bu ölkənin milli bayramı - Kral Günü münasibətilə təbrik məktubu göndərib.
- Ölkə başçısı İlham Əliyev aprelin 24-də Cənubi Afrika Respublikasının Prezidenti Ceykob Gedleyihlekisa Zumaya bu ölkənin milli bayramı-Azadlıq Günü münasibətilə təbrik məktubu göndərib.
- Prezident İlham Əliyev aprelin 24-də 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Avstriya Respublikasının keçmiş Prezidenti Haynts Fişeri qəbul edib.

## SABAH qrupları ilə bağlı tədbirlər

Xəbər verdiyimiz kimi, SABAH qruplarına 2017-2018-ci tədris ili üçün tələbə qəbulu üzrə müsabiqə elan olunub. Bununla əlaqədar müxtəlif ali təhsil müəssisələrində tədbirlər keçirilir.

Aprelin 26-da Təhsil Nazirliyinin SABAH qruplarının İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə Azərbaycan Dillər Universitetində tələbələrlə görüşüb.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev tədbirin 2017-2018-ci tədris ilində SABAH qruplarında təhsil alacaq tələbələri məlumatlandırmaq və onları seçim prosesi haqqında təlimatlandırmaq məqsədi daşıdığını bildirib. Ə.Abdullayev universitetin SABAH qruplarında ingilis dili müəllimliyi və tərcümə (ingilis dili üzrə) ixtisasları üzrə 183 tələbənin təhsil aldığını qeyd edib. Bildirib ki, bu il onların 53 nəfəri SABAH-ın ilk məzunları sırasında olacaq. "SABAH-da təhsil almaq böyük imkanlara yol açır" - deyən professor bu qruplarda tədrisin keyfiyyətinin, müəllimlərin bilik və bacarıqlarının digər qruplardan fərqləndiyini vurğulayıb.

Ş.Seyidzadə SABAH qruplarının ali təhsilin keyfiyyətinin yüksəldilməsi, kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin formalaşdırılması məqsədi ilə 2014/2015-ci tədris ilindən etibarən yaradıldığını söyləyib. O, daha sonra SABAH-ın üstünlükləri, SABAH qruplarına qəbul qaydaları, tədrisdə və tədrisdənkənar imkanlar barədə təqdimatla çıxış edib.

***

"SABAH Karyera Akademiyası" çərçivəsində rəsmi tərəfdaş olan "ADA" Universiteti isə SABAH qruplarının tələbələri üçün seminarlar keçirib.

"Magistratura pilləsində təhsilə hazırlıq və planlaşdırma", "Bazar araşdırması", "İşəgötürənlərin tələbi: ixtisaslar və sahələr", "Təhsildən karyeraya keçid" mövzuları üzrə "ADA" Universitetinin Karyera Mərkəzi tərəfindən keçirilmiş 4 günlük seminarda gələcək SABAH məzunlarına karyera inkişafı istiqamətində faydalı məlumatlar verilib, müzakirələr aparılıb.

Hər iki tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

## Respublika fənn olimpiadalarının qalibləri məlum olub

21-23 aprel 2017-ci il tarixlərində Respublika fənn olimpiadalarının final mərhələsi keçirilib. IX-XI və xüsusi istedada malik aşağı sinif şagirdlərinin iştirak etdiyi olimpiadada 8 fənn üzrə 242 qalib müəyyən edilib. Belə ki, 43 nəfər şagird qızıl, 82 nəfər gümüş, 117 nəfər isə bürünc medala layiq görülüb. Olimpiadanın ümumi nəticələri barədə məlumatı www.olimp.istedad.edu.az saytından əldə etmək mümkündür.

Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılma mərasiminin mayın sonunda keçirilməsi nəzərdə tutulur.

Respublika fənn olimpiadalarının keçirilməsinə "Kapital Bank" tərəfindən dəstək göstərilir. "Kapital Bank" Təhsil Nazirliyi ilə bir sıra layihələrin birgə həyata keçirilməsində də yaxından iştirak edib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva MDU nəzdində Asiya və Afrika Ölkələri İnstitutunda olub



Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyeva M.V.Lomonosov adına Moskva Dövlət Universiteti nəzdində Asiya və Afrika Ölkələri İnstitutunda (MDU AAÖİ) olub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Azərbaycan dilini öyrənən tələbələrlə və Mərkəzi Asiya və Qafqaz ölkələri kafedrasının kollektivi ilə görüşüb. Görüşdə toxunulan mövzular arasında ekologiya, təbiəti mühafizə, müxtəlif ekoloji sistemlərin bir-birindən asılılığı problemləri xüsusi maraq doğurub. Leyla Əliyeva görüş iştirakçılarına "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyinin — IDEA-nın (International Dialogue for Environmental Action) və RAGB-ın fəaliyyətindən danışıb.

Mərkəzi Asiya və Qafqaz ölkələri kafedrasında Azərbaycan dilini öyrənən tələbələr qonaqlara Məcid Şamxalovun "Qaynana" pyesinin motivləri əsasında eyniadlı tamaşanı təqdim ediblər. Tələbələr Müslüm Maqomayevin "Mavi əbədiyyət" mahnısını və Azərbaycan milli rəqsini ifa ediblər.

Leyla Əliyeva gözəl quruluşa görə tələbələrə təşəkkür edərək deyib: "Tamaşa məndə çox güclü təəssürat oyatdı, qürur və sevinc hissləri keçirdim, özümü xoşbəxt hiss etdim". Leyla Əliyeva yeni şeirlərini oxuyaraq institutun kollektivinə özünün "Ulduzlar pillə-pillə düzülsəydi səmaya" ("Esli b zvezdı stupenkami stali") şeirlər toplusunu hədiyyə edib.

AAÖİ-nin fəxri prezidenti, MDU-nun professoru Mixail Meyer instituta gəldiyinə görə Leyla Əliyevaya təşəkkür edib və Azərbaycan dilini öyrənən tələbələrin təhsilində Heydər Əliyev Fondunun rolunu vurğulayıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva AAÖİ-yə ilk dəfə gəlmir. Fond bir neçə il əvvəl instituta linqafon kabineti hədiyyə edib. Ən yaxşı tələbələr isə Azərbaycan xalqının mədəniyyəti və ənənələri ilə yaxından tanış olmaq üçün ölkəmizə səfər etmək imkanı qazanıblar.

**AZƏRTAC**

# Yaradıcı müəllimin əsəri: "Ən yaxşı dərs"

⇦ Əvvəli səh.1

**Yusif ƏLİYEV**

Təlimə Dəstək Mərkəzi fəaliyyətə başladıqdan sonra isə bu iş ona tapşırılıb. Layihəyə start verilməzdən əvvəl mərkəzdə bu işə necə başlanması, kimlərin dərslərinin dinlənilməsi, dinlənilən dərslərin hansı meyarlarla qiymətləndirilməsi və s. məsələlər ətrafında ciddi müzakirələr aparılıb, qabaqcıl təcrübələr araşdırılıb. Meyarlar dəqiqləşdirildikdən sonra layihəyə qoşulan məktəblər müəyyənləşdirilib. Bu məqsədlə reytinq cədvəli üzrə ilk beşliyə düşən məktəblər seçilib. Aprelin ilk ongünlüyündə həmin məktəblərin direktorları ilə görüş keçirilib və onlara layihəyə qoşulmaq təklif olunub. Təklif direktorlar tərəfindən razılıqla qarşılanıb. İlk addım olduğu üçün məktəbi və nümayiş etdiriləcək dərsi seçmək direktorların ixtiyarına buraxılıb. İbtidai siniflər, V-IX siniflər və X-XI siniflər sinif blokları kimi müəyyənləşdirilib. Fənlər bloku isə texniki və humanitar fənlər olmaqla müəyyən edilib. Sinif bloku və fənn bloku seçməkdə də direktorlara sərbəstlik verilib.

Eyni zamanda, məsələyə başqa yöndən də yanaşılıb və musiqi, fiziki tərbiyə, texnologiya, təsviri incəsənət, gənclərin çağırışaqədər hazırlığı fənlərinin məktəblərdə necə tədris olunmasının müəyyənləşdirilməsi maraq doğurduğundan, həmin fənlər bloku da diqqətdə saxlanılıb. Məsələni anlayışla qarşılayan direktorlar dərslərin nümayişi ilə bağlı öz təkliflərini veriblər.

Qabaqcıl təcrübənin öyrənilməsi və yayılması, müəllimlərin öz təcrübələrini həmkarları ilə bölüşməsi məqsədi ilə təşkil olunan bu "açıq dərs"lərdə müəllimin öz dərsini necə planlaşdırması, fəal dərsin mərhələlərinə necə əməl etməsi, motivasiyanı necə qurması, müxtəlif innovativ üsul və vasitələrdən necə istifadə etməsi, mövzunu şagirdlərə necə çatdırması, dərsin bütün mərhələlərində şagirdlərin fəal iştirakını necə təmin etməsi, uşaqları qruplarda çalışdırması, tədris materiallarını şagirdlərin hazırlıq səviyyəsinə necə uyğunlaşdırması, ev tapşırıqlarını hansı forma və həcmdə verməsi kimi məsələlərə xüsusi əhəmiyyət verilib.

S.Bektaşinin dediyinə görə, belə bir yanlış yanaşma var ki, əgər fənn kurikulumlarının tətbiqindən söhbət gedirsə, deməli şagirdlər sinifdə mütləq qruplar şəklində oturmalıdır. Əslində isə dərslərdə şagirdlərə verilən tədqiqat sualı ilə bağlı onun həqiqətənmi bu tədqiqatı aparıb-aparmaması, bu gün onun apardığı tədqiqatın şagird üçün nə dərəcədə səmərəli olması kimi nüanslara daha çox diqqət yetirilməlidir.

Bütün bunlar haqqında fikirlərini bölüşən S.Bektaşi məktəblərdə maraqlı dərs nümunələrinə rast gəldiklərini, dinlənilən dərslərdə gənc müəllimlərin üstünlük təşkil etdiyini sevindirici hal kimi dəyərləndirdi. Qeyd etdi ki, onlar dərsə yaradıcı yanaşır, interaktiv lövhələrdən bacarıqla istifadə edir və şagirdləri də bu işə cəlb edirlər. TDM rəhbərinin fikrincə, gənc müəllimlərin bu gün çətinlik çəkmədən öz peşəkarlıqlarını yüksək səviyyədə nümayiş etdirməsi Azərbaycanın mükəmməl təhsil modelinin yaxın illərdə yaradılacağından xəbər verir.

Qeyd edək ki, "Ən yaxşı dərs" layihəsinə paytaxtın Suraxanı rayonundan başlanıb. Eyni zamanda 2 məktəbdə-317 və 87 nömrəli tam orta məktəblərdə paralel olaraq dərslər keçilib. Mərkəzin əməkdaşları iki qrupa bölünərək dərslərdə iştirak ediblər. Hər iki məktəbdə eyni proses gedib. Sonrakı günlərdə Xətai rayonundakı 261, Xəzər rayonundakı 234 nömrəli məktəblərdə, Nərimanov rayonundakı 291 nömrəli "Ekologiya" liseyi və Məktəb-Lisey Kompleksində, Binəqədi rayonundakı 83 və 267 nömrəli məktəb-liseylərdə proses davam etdirilib. İndiyədək (aprelin 29-dək) ümumilikdə 70-ə yaxın dərs dinlənilib. Dərslər dinlənildikdən dərhal sonra müzakirələr aparılır. Müzakirələrdə mərkəzin əməkdaşları ilə yanaşı, dərs aparılan məktəblərin direktorları, tədris işləri üzrə direktor müavinləri, metodbirləşmə sədrləri, qonşu məktəblərdən müəllimlər də iştirak edirlər.

Müzakirələr zamanı dərs geniş təhlil olunur, uğurları və çatışmayan cəhətləri qeyd edilir, müəllimə müvafiq tövsiyələr verilir. Müəllimlər bu müzakirələrdən çox razı qalırlar.

Müzakirələr zamanı habelə problemlər də aşkar edilir və növbəti mərhələdə məktəblərlə işin hansı istiqamətdə qurulacağı müəyyənləşdirilir.

Sonda onu da deyək ki, "Ən yaxşı dərs" layihəsi mayın 26-dək davam edəcək.

# Malayziyalı diplomat UNEC-də



UNEC-də "İslam Həmrəyliyi İli" çərçivəsində islam ölkələrinin diplomatik korpuslarının nümayəndələri ilə görüşlər davam edir.

UNEC-in İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Malayziyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dato Roslan Tan Sri Abdul Rahman ali məktəbdə olub. Rektor, professor Ədalət Muradov qonağı Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universitetində salamlamaqdan məmnun olduğunu bildirib. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsindən bəhs edən rektor, bunu dözümlülük, sülh, tolerantlıq və dünyəviləşmə ideyalarının təbliğində dövlətin rolunu qabardan əlamətdar hadisə adlandırıb. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakıda keçirilməsi ilə bağlı qərarın ölkəmizin islam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratdığını qeyd edib.

Rektor səfirə UNEC-in tarixi, beynəlxalq əlaqələri, ikili diplom proqramları barədə məlumat verib. UNEC-in ölkədə dörd dildə təhsil verən və xaricdə filialı olan yeganə universitet olduğunu diqqətə çatdırıb. Qonağa İnnovativ Biznes İnkubatorunun fəaliyyəti haqqında məlumat verən rektor, uğurlu startap layihələrindən söz açıb.

Səfir Dato Roslan Tan Sri Abdul Rahman Azərbaycanın Malayziya ilə diplomatik münasibətlərinin müstəqilliyini bərpa etdikdən sonra yaratdığını diqqətə çatdıraraq, iki ölkə arasında uğurlu əməkdaşlıqdan söz açıb. Həmin vaxtdan etibarən sabit inkişaf xətti ilə tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin bir çox mühüm hadisələrlə əlamətdar olduğundan bəhs edib.

Sonra diplomat UNEC tələbələri ilə görüşüb. UNEC-də olmaqdan məmnunluq duyduğunu ifadə edən səfir tələbələrə Malayziya barədə ətraflı məlumat verib. Səfir Malayziyanın coğrafiyası, iqtisadiyyatı, pul vahidi, təhlükəsizliyi, texnologiyası, təhsil sistemi, turizm imkanları və mədəniyyəti haqqında geniş təqdimatla çıxış edib.

Tələbələrin Malayziya barədə suallarını cavablandıran diplomat sonda auditoriyada müsabiqə elan edib. Təqdimatı ilə bağlı sualları cavablandıran tələbələrə hədiyyələr təqdim edib.

# Azməsrəfli, asan daşınan və istənilən relyefdə quraşdırılan

## Qəzalı məktəblər modul tipli məktəblərlə əvəzlənir

⇦ Əvvəli səh.1

Rəşad ZİYADOV

Qeyd olunub ki, həmçinin bu cür məktəblərin istilik itkisi digərlərindən iki dəfə azdır, rütubətlilik yoxdur.

İsmayıllının daha iki dağ kəndində belə məktəbin tikintisi nəzərdə tutulub.

Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin müdir müavini Fərhan Əliyev isə deyib ki, modul tipli məktəblərin tikintisində əsasən yerli istehsal məhsullarından istifadə edilib: "Məktəblər istilik sistemi və sanitar qovşaqlarla təmin olunub. Bir məktəb, təxminən, 30-35 günə inşa olunur. Hər bir məktəbin tikintisində 20-25 nəfərdən ibarət yerli mühəndislər və ustalar çalışıb. Təbii ki, bu, məktəbin sinif otaqlarının sayından və böyüklüyündən asılıdır. Bu məktəblərin tikintisi rayonlarda, ucqar kəndlərdə yeni iş yerlərinin açılmasına da təkan verib. Tikintidə istifadə edilən bütün məhsullarla bağlı Fövqəladə Hallar Nazirliyindən sertifikat alınıb və tam etibarlıdır".

### 9 şagirdin təhsil aldığı məktəb

Səfər çərçivəsində ilk olduğumuz modul tipli məktəb İsmayıllı rayonunun Yenikənd kənd ümumi orta məktəbidir. 9 şagirdin təhsil aldığı məktəb 4 sinif otağı, 1 müəllimlər otağı və sanitar qovşağından ibarətdir. Burada şagirdlərin təlim-tərbiyəsi ilə 7 müəllim məşğul olur.

Məktəbdə əsl bayram əhvali-ruhiyyəsi vardı. Yeni məktəbin rahat şəraiti şagirdlərin üzlərindəki təbəssümdən belə hiss olunurdu.

Yerli sakinlərlə söhbətimiz zamanı bildirdilər ki, kənd dəniz səviyyəsindən 1000 metrə yaxın hündürlükdə yerləşir. Kəndin 150-yə yaxın sakini var. Uçqar ərazidə yerləşməsinə baxmayaraq, şagirdlərin təhsilə marağı yüksəkdir.

### "Uzun müddət şəraitsiz bir məktəbdə işləmişik"

Yenikənd kənd ümumi orta məktəbinin direkoru Gülağa Abbasov bildirib ki, təhsil müəssisəsi üçün modul tipli məktəb binasının inşasını kənd əhalisi sevindirici hadisə kimi qarşılayır. Belə ki, uzun müddət köhnə, uçuq, şəraitsiz bir məktəbdə işləyiblər: "Köhnə məktəbin binası 1950-ci ildə tikilib. 1993-cü ilə kimi müxtəlif inzibati binalar kimi fəaliyyət göstərib. 1993-cü ildən bu günə kimi isə Yenikənd kənd ümumi orta məktəbi olub. Kəndimiz rayon mərkəzindən, təxminən, 25 km məsafədə yerləşir. İsmayıllının uçqar kəndində belə bir şəraitli məktəbin olması bizlərə böyük diqqətdir. Məktəbimizdə 9 şagird, 7 müəllimimiz var. Kəndə qayıdış olduğuna görə get-gedə əhali çoxalır. Xüsusən də cavan ailələrin kəndə gəlişini müşahidə edirik. Uşaqlar bu məktəbdə IX sinfə qədər oxuyur, X-XI siniflər isə təhsilini davam etdirməyə qonşu - Aşıqbayramlı kəndinə, İsmayıllı rayonunun mərkəzinə gedirlər".

Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Nazilə Abbasova qeyd edib ki, Azərbaycanın hər hansı bir uçqar kəndində belə bir yüksək şəraitlə təmin olunmuş məktəb binası inşa edilirsə, bu, ölkəmizin qüdrəti və güclü olmasından xəbər verir: "Uçqun bir məktəbdə torpağın üstündə dərs keçmişik. Bu gözəl şəraitlə təmin olunmuş məktəbin inşasına görə cənab Prezidentimizə minnətdarıq. Köhnə kənd məktəbimiz həqiqətən də pis vəziyyətdə idi. İstər şagirdlər, istərsə də müəllimlər dərs prosesində əziyyət çəkirdilər. Kəndimiz dağların qoynunda yerləşir. Olduqca səfalı, gözəl, mənzərəli kiçik kənddir, məktəb də elə böyük deyil. Amma insanları gözəl, ürəkləri də genişdir. Şagirdlərimiz də oxumağa çox həvəslidir".

### "Səhər açılan kimi işıqlı sinif otağımıza getməyə tələsirik"

VIII sinif şagirdi Ramilə Hüseynova yeni məktəbin onların təhsil almalarına müsbət təsiri haqda danışıb: "Məktəbimiz çox xoşumuza gəlir. Köhnə məktəbimizdə şərait çox pis idi. Məktəbin sinif otaqlarının döşəmələri çürüdüyündən torpağın üstündə dərs keçmək məcburiyyətində qalırdıq. Sinif otaqları isə qaranlıq və soyuq idi. Tavandan isə torpaq tökülürdü. Yeni, səliqə-sahmanlı olan bu məktəbimiz isə çox gözəldir. Sinif otaqlarımız səliqəli, işıqlı və istidir, müasir görünüşü ilə zövq oxşayır. Köhnə məktəbimiz pis, şəraitsiz olduğuna görə məktəbə gəlmək həvəsimiz olmurdu. İndi isə, əksinə, səhər açılan kimi işıqlı, gözəl sinif otağımıza getməyə tələsirik".

Kənd sakini Rüstəm Abbasov əhalinin bu məktəbin tikintisini çoxdan arzuladığını bildirir: "Övladlarımız artıq təmiz, səliqəli, işıqlı sinif otaqlarında təhsil alacaq. Mənim oğlum Turab bu məktəbin VII sinif şagirdidir. Köhnə məktəbin dam örtüyü deşik-deşik, sinif otaqları üfunətli, nəmiş, qaranlıq idi, tavanında müxtəlif həşəratlar, gəmiricilər gəzirdi. Məktəbin pis vəziyyətdə olmasına görə elə ailələr var idi ki, uşaqlarının təhsili üçün rayon mərkəzinə və yaxud da qonşu kəndlərə köçürdülər. İndi həmin kənd sakinləri artıq kəndə qayıdırlar".

Kənd sakini Azər Həkimov deyir ki, əvvəllər uşaqlarını təhsildən yayındıran ailələr də olurdu: "Təhsil hər zaman önəmlidir. Bizim kəndimizin əhalisinin, demək olar ki, hamısı övladlarının təhsil alması üçün maraqlıdır. Köhnə məktəbin qəzalı vəziyyətdə olması şagirdlər üçün hər an təhlükə idi. Sinif otaqlarında istilik olmadığından uşaqlar tez-tez xəstələnir, dərs buraxırdılar. Bu da tədrisin keyfiyyətinə mənfi təsir edirdi".

### "Təhsilin səviyyəsini yüksəltməyə çalışacağıq"

İsmayıllı rayonunda tanışlıqdan sonra Göyçay rayonuna yollandıq. Rayonun Yeniarx kənd tam orta məktəbinin Hacağabəyli kənd sinif komplekti ilə tanış olduq.

Kənddə 40-50 ailə yaşayır. Əhalinin sayı 200-230 nəfər arasındadır. 4 sinif otağından ibarət məktəbin 16 şagirdinin təlim-tərbiyəsi ilə 4 müəllim məşğul olur.

Məktəbin direktoru Ayaz Babayev bizimlə söhbətində bildirdi ki, siniflərdə şagirdlərin sayı az olduğundan bütün uşaqlar komplektləşdirilmiş bir sinifdə dərs keçir. Təbii ki, hər sinif üzrə dərs proqramı fərqli olduğundan müəllim 45 dəqiqə ərzində bütün uşaqlara dərsi mənimsətməkdə çətinlik çəkir. Məktəbdə 20 şagird olsa, iki komplektləşdirilmiş sinif yaradıla bilər: "I və III sinifləri, II və IV sinifləri bir sinifdə birləşdirə bilərik. Bu haqda rayon təhsil şöbəsi də Təhsil Nazirliyini məlumatlandırıb. Şagirdlər IV sinfə qədər burada oxuyurlar, sonra Yeniarx kənd tam orta məktəbinə gedirlər".

Direktorun sözlərinə görə, əvvəl uşaqlara köhnə birotaqlı kolxoz binasında dərs keçilirdi. Bu günə qədər şərait imkan vermədiyi üçün uşaqların təhsil səviyyəsi çox da yüksək olmurdu. A.Babayev bundan sonra təhsilin səviyyəsini yüksəltməyə çalışacaqlarını deyir.

Hacağabəyli kənd sinif komplektinin ibtidai sinif müəllimi Nəzakət Həmidova 38 ildir müəllim işlədiyini qeyd edir: "Bu gün ucqar kənd məktəblərində bəlkə də ən problemli məsələ bir çox kənd məktəbinin təmirli və müasir şəkildə olmamasıdır. Kəndimizdə belə bir məktəbin inşa olunması hamıdan çox biz müəllimləri sevindirir. Bunun üçün ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk".

N.Həmidova indi hamının dərsə həvəslə gəldiyini vurğulayır: "Yaxşı olardı ki, növbəti ildən məktəbimizdə iki sinif komplekti yaradılsın və texniki təchizatla da bizi təmin etsinlər. Bütün bunlar da yaradılarsa, hər şey çox yüksək səviyyədə olar".

Göyçay rayon Hacağabəyli kənd sakini Gülnarə Zahidova deyir ki, illər boyu şagirdlərin təhsillə bağlı çətinliyi olub. Belə ki, uşaqlar uçmaq təhlükəsi olan bir otaqdan ibarət məktəbdə təhsil alıblar: "Doğrusu, məktəbə uşaq göndərmirdik. İndi belə bir məktəbin tikilməsi çox gözəl, əlamətdar hadisədir. Mən deyərdim bu, şagirdlərin təhsilində müsbətə doğru dönüş yaradacaq. Mənim qızım Nigar Xasıyeva yeni məktəbdə artıq 1 aya yaxındır ki, təhsil alır, III sinif şagirdidir. Bu sevincli anları bizlərə bəxş etdiyi üçün əməyi olan hər kəsə minnətdarıq".

### Göz həkimi olmaq istəyən Tunar

Məktəbin II sinif şagirdi Tunar Quliyevin 8 yaşı var. O, əvvəlki məktəbdə yazı lövhələri və partaların köhnə, sınıq vəziyyətdə olduğunu, indiki məktəbin çox xoşuna gəldiyini deyir: "Dərs əlaçısıyam, böyüyəndə göz həkimi olmaq istəyirəm".











# ADPU-da bilik və peşəkarlıq səviyyəsi yoxlanılır

Aprelin 20-dən Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) kafedralarında tədris olunan fənlər üzrə professor, dosent, baş müəllim və müəllim vəzifələrini tutmaq üçün keçirilən müsabiqənin ikinci mərhələsi başlayıb. Alternativ əsaslarla keçiriləcək müsabiqənin məqsədi ADPU-da tədris prosesinin təkmilləşdirilməsi və daha səmərəli qurulması, şəffaf və obyektiv təhsil mühitinin yaradılması, sağlam rəqabətin formalaşdırılması, dərin elmi biliyə, kreativ düşüncəyə, zəngin erudisiyaya, ətraflı dünyagörüşünə, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik rəqabətqabiliyyətli mütəxəssislərin işə cəlb etməkdir.

Eyni zamanda ADPU-da tədris-yardımçı heyətin də bilik və peşəkarlıq səviyyəsinə ciddi diqqət yetirilir. Belə ki, ADPU-nun rektoru, professor Cəfər Cəfərovun müvafiq əmri ilə İnsan resursları şöbəsi tərəfindən aprelin 25-dən universitetdə tədris-yardımçı heyətin: tədris laboratoriya müdirlərinin, tyutorların, laborantların, baş laborantların, tədris ustalarının, operatorların və Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşlarının bilik və peşəkarlıq səviyyəsinin yoxlanılmasına başlanılıb. Məqsəd onların peşəkarlıq səviyyəsinin müəyyən edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsidir. ADPU-nun rektoru, professor Cəfər Cəfərov yoxlamanın şəffaf və obyektiv keçirilməsinə ciddi nəzarət edir. Yoxlamaya ümumilikdə 247 nəfər cəlb edilib. Yoxlama iki mərhələdə aparılacaq. Birinci mərhələdə hər bir qrupu 14 nəfərdən ibarət olan tədris-yardımçı heyətin informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində bilik və bacarıqları yoxlanılacaq.

Növbəti həftə keçiriləcək ikinci mərhələdə isə onların elmi-nəzəri bilik səviyyələri, qanunvericiliklə bağlı bilikləri, məntiqləri, dünyagörüşləri yoxlanılacaq. Yoxlamaların nəticələrindən asılı olaraq hər bir işçi barədə fərdi qaydada müvafiq qərar qəbul ediləcək.

# ADMİU-da tələbə elmi-praktik konfransı

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin səhnə danışığı kafedrasının təşkilatçılığı ilə "Səhnə danışığının aktual problemləri" mövzusunda tələbə elmi-praktik konfrans keçirilib.

Tədbiri giriş sözü ilə universitetin rektoru, əməkdar incəsənət xadimi, professor Fərəh Əliyeva açaraq iştirakçılara uğurlar arzulayıb.

Konfransda professor-müəllim heyətindən səhnə danışığı kafedrasının müdiri, əməkdar artist, dosent Azad Şükürov, əməkdar artist, dosent Mahirə Yaqubova, dosent Nadir Hüseynov, əməkdar artist, dosent Ağalar Bayramov, dosent Kəmalə Mehdiyeva, müəllim Əlizaman Mirzəyev və başqaları iştirak edib.

Tədbirdə tələbələr müxtəlif mövzularda elmi məruzələrlə çıxış ediblər.

Daha sonra tələbələr Elvin Bəxtiyarlı Aygün Həsənoğlunun "İtkinlərə", Nurlan Süleymanlı C.Məmmədquluzadənin "Pirverdinin xoruzu", Rəhiməxanım Qüdrətova R.Rövşənin "Qara paltarlı qadın", Mir Qəbil Əkbərov M.Arazın "İnsan qayalar", Ümüd Abbaszadə M.Ə.Sabirin "Bəhri-təvil", Ləman Novruzova C.Cavanşirin "Sən elə bilirsən", Nəzrin Əsgərzadə R.Rövşənin "Kim deyir, yuxuda ölmək asandır", Rəfiqə Dadaşova G.Hüseynoğlunun "Gənc ananın etirafı", Fidan Qasımova R.Rövşənin "Özümü sevə bilmirəm", Ağaəli Kərimzadə, Novruz Şahverdiyev və Əbülfəz İsgəndərov S.Ə.Şirvaninin bədii qiraət nümunələrini səsləndiriblər.

Qeyd edək ki, universitetdə əlli ilə yaxındır ki, fəaliyyət göstərən səhnə danışığı kafedrası bu zaman ərzində sənətdə ilk qədəmlərini atan gənclərin danışıq keyfiyyətlərinin inkişaf etdirilməsində müstəsna xidmətlər göstərib. Fəaliyyətə başladığı ilk gündən kafedra danışıq sənəti ilə məşğul olan müxtəlif peşə sahiblərini pedaqoji fəaliyyətə cəlb edərək, gənclərdə peşəkarlıq keyfiyyətlərinin tərbiyəsində uğurlu elmi-pedaqoji və yaradıcılıq yolu keçib.

# Professor-müəllim heyəti "Şöhrət" muzeyini ziyarət edib

Aprelin 26-da BSU-nun rektoru, professor Nurlana Əliyevanın rəhbərliyi ilə universitetin professor-müəllim heyəti Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasında yerləşən ümummilli liderin həyat və fəaliyyətini əks etdirən "Şöhrət" muzeyini ziyarət ediblər. Qonaqlar öncə dahi şəxsiyyətin muzeydəki büstü önünə əklil qoyublar.

Məlumat verilib ki, "Şöhrət" muzeyində Heydər Əliyevin nəsillərə nümunə olan həyatının bütün dövrlərinə aid qiymətli fotoşəkillər və eksponatlar mühafizə olunur. Muzeydəki unikal sənədlər, arxiv materialları ümummilli liderin ömür yolunu, xalqımızın tarixində və taleyində oynadığı misilsiz rolu, o cümlədən həyatının 25 ilini həsr etdiyi dövlət təhlükəsizlik orqanlarındakı fəaliyyətini, onun şəxsən həyata keçirdiyi və peşəkarlığın zirvəsi sayıla bilən əməliyyatlar haqqında məlumatları əks etdirir. Burada nümayiş olunan ekspozisiyalar şərti olaraq dörd mərhələyə bölünmüşdür: uşaqlıq və gənclik dövrü; Azərbaycan təhlükəsizlik orqanlarında işlədiyi dövr; ölkəyə rəhbərlik etdiyi və SSRİ kimi nəhəng bir dövlətin siyasi olimpində təmsil olunduğu dövr; müstəqil Azərbaycanın memarı kimi fəaliyyət dövrü.

Dahi şəxsiyyətin valideynlərinin və uşaqlıq şəkillərinin mühafizə olunduğu bölmədə nümayiş olunan eksponatlar ümummilli liderin böyük yüksəlişə son dərəcə ağır zəhmət və məşəqqətlər hesabına nail olduğunu göstərir. İkinci bölmə dahi şəxsiyyətin oxuduğu ibtidai məktəb, texnikum, ali təhsil ocağı haqqında qiymətli sənədləri-müxtəlif arayış, attestat, diplom və s. əhatə edir. Burada böyük şəxsiyyətin yalnız əla qiymətlərdən ibarət olan qiymət cədvəlləri də var ki, fikrimizcə, onlar indiki nəslə əsl nümunə ola bilər.

Muzeyin sonrakı bölmələrində Heydər Əliyevi bacarıqlı bir çekist, təhlükəsizlik xidmətinin rəhbəri, dövlət xadimi, siyasətçi, SSRİ dövlətinin rəhbərliyində təmsil olunan şəxs, müstəqil Azərbaycanın qurucusu və memarı kimi xarakterizə edən sənədlər, fotolar, tarixi əşyalar və s. nümayiş olunur.

Muzeyin bölmələrində müstəqil Azərbaycan Respublikasının qurucusunun müxtəlif illərdə aldığı orden və medalların, fəxri fərmanların, dövlət mükafatlarının və s. orijinal və ya surətləri də yer alıb.

Muzeylə tanışlıqdan sonra zalda ulu öndər haqqında qısa filmə baxış keçirilib.

# Yeni məzmunun yeni qiymətləndirməsi

## IX sinif şagirdlərinin buraxılış imtahanlarının yeni qaydası tətbiqi bilik və bacarıqları ölçür

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### Buraxılış imtahanları - rəylər birmənalı deyil

Hər yenilik kimi, yeni qaydalarla həyata keçirilən buraxılış imtahanları ilə bağlı fikirlər də birmənalı deyil. Məsələn, imtahanların birinci mərhələsini artıq arxada qoyan şagirdlər vaxt azlığından şikayətçidir. Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin şagirdi Nuriyyə Cəfərova: "Açıq suallar çox, vaxt da az verilmişdi. Riyaziyyatdan qoyulan sualların cavabını verib, ona izah istəyirlər. Esse üçün verilən yarım saat kifayət deyil. Üstəlik, birbaşa yaza bilmərik. Əvvəlcə qaralama yazıb, sonra köçürməliyik. Ancaq öz qaralamamızı üzündən köçürməyə də icazə verilmir. Lakin ən narahatedici məsələ imtahan nəticələrinin gec açıqlanmasıdır".

Müəllimlərin də narazılıq üçün səbəbləri var. Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Rəna Xəlilova narahatlıqları belə ifadə edib: "Buraxılış imtahanlarında yeni qaydaların tətbiq ediləcəyindən dərs ili başlayandan bir ay sonra - oktyabrda xəbər tutduq. Qəbul qaydaları isə dekabrda məlum oldu. Ümumiyyətlə, mərkəzləşdirilmiş qaydada keçirilən imtahanların obyektivliyi şübhə doğurmur. Lakin bu imtahanlarda açıq tipli sualların salınması insan amilinin ortaya çıxması deməkdir ki, bu da narahatlığa səbəb olur. Tutaq ki, IX sinif şagirdinin üslubu, xətti onun yazısını yoxlayanlar üçün nə qədər aydın olacaq? Həmin yazıları kim və hansı meyarlarla oxuyacaq? Xətti oxuya bilməyə, ya da şagirdin fikri ilə markerin mövqeyi üst-üstə düşməyə bilər. Həmin yaşda uşaqlar qoyulan məsələyə böyüklər kimi yanaşmır. Üstəlik, onlara istiqamət, motivasiya vermək lazımdır. Bütün bunlar olmadan yazılan cavabları iki, lazım gələrsə, 3 marker oxuyacaq. Elə bunun özü də narahatlıq yaradır. Bir şagirdin yazısı üzərində iki fikir üst-üstə düşməyəcəksə, üçüncü rəyə də zərurət yaranacaq. Bu mənə məntiqsiz görünür".

R.Xəlilovanın fikrincə, imtahan nəticələrinin elan edilməsinin gecikdirilməsi də narahatlıq doğuran məsələlərdəndir: "Valideynlər müəllimlərin verdiyi biliyin nəticələrini görmək istəyir. Lakin nəticələr hələ bəlli deyil. Düşünürük ki, birinci mərhələnin nəticələrini ikinci mərhələ keçirilənədək müzakirə etməyə vaxtımız olmalıdır. Bu, növbəti mərhələdə uşaqlarımıza kömək ola bilərdi. İmtahanların nəinki şagirdlər, elə hamımız üçün yeni olduğunu nəzərə alsaq, birinci mərhələnin nəticələrinin maraq doğurması başadüşüləndir".

Nəticələrin gec açıqlanması ilə bağlı iradlarla ekspert K.Əsədov da razılaşır: "İmtahanlardan azı iki ay sonra nəticələr açıqlanacaq. Bu, çox uzun müddətdir. Dünyada ən uzunmüddətli imtahan nəticələri 13 günə açıqlanır. 2 aya imtahan nəticələrinin açıqlanması şagirdlərdə psixoloji gərginlik yaradır. Bu səbəbdən nəticələri maksimum 7 gün ərzində açıqlanan imtahanlar daha uğurlu hesab edilir".

### Tələb vardı, dəyişiklik oldu

IX sinfi bitirən şagirdin yeni qaydalarla götürülən imtahanda hansı bilik və bacarıqlarının ölçüldüyünə baxaq:

- Tənqidi düşünmə
- Oxuyub-anlama
- Yazı (esse)
- Əməkdaşlıq şəraitində öyrənmə
- Öyrənməyi öyrənmə

Buradan da göründüyü kimi, yaddaşa əsaslanan biliyin ölçülməsi ilə əməli biliyin, tətbiqi bacarığın və tənqidi təfəkkürün ölçülməsi alətləri arasında fərq var. 9 il ərzində verilən biliyin məzmunu buraxılış imtahanlarının strukturunda dəyişiklik tələb edib. Həmin tələbi nəzərə alaraq, Nazirlər Kabineti "Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları"nı təsdiq edib. Sözügedən qaydalara əsasən, yeni proqramlarla təhsil alan şagirdlərin riyazi bilikləri yoxlanılır. Burada yalnız şagirdin təhsil aldığı dilə görə bəzi fərqlər ortaya çıxır. Məsələn, Azərbaycan dili bölməsində təhsil alan şagirdlər riyaziyyatla yanaşı, həm də Azərbaycan dilindən, tədris rus dilində aparılan siniflərin şagirdləri isə rus dilindən imtahan verir. Tədris dili Azərbaycan və rus dilindən başqa digər dillərdə olan şagirdlərsə, yalnız riyaziyyatdan imtahan edilir. İmtahanın hər iki mərhələsində iştirak etmək vacib sayılır. Əks halda, şagird imtahanda iştirak etməmiş hesab edilir və o, ümumi orta təhsil haqqında attestat ala bilmir.

### Fərqlənmək istəyirsənsə, inşa da yaz

İmtahanın birinci mərhələsində təqdim edilən mövzulardan birini seçməklə könüllülük əsasında inşa-esse yazılır. Yalnız ümumi orta təhsil haqqında fərqlənmə sənədi almaq istəyənlər üçün inşa və ya esse yazmaq məcburidir.

Təyin edilmiş qaydalara görə, imtahanlar 2 mərhələdə həyata keçirilir. Suallar açıq və qapalı tipli test şəklində tərtib edilir.

Qeyd edək ki, açıq tipli test sualları cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilib yazı ilə ifadə olunması, qapalı tipli test tapşırığı isə verilən cavab variantlarından doğru olanın müəyyənləşdirilib qeyd edilməsidir.

Ekspert K.Əsədovun imtahan qaydaları ilə bağlı başlıca iradı açıq tipli test sualları ilə bağlıdır: "Müqayisə aparanda, açıq test sualları ağırlıq səviyyəsinə görə dünyada ən çətin test modelləri hesab olunur. Ali təhsil müəssisələrinə qəbul imtahanlarında belə, bu suallara cavab verənlər ümumi iştirakçıların 20 faizini təşkil edir. Ona görə də bu tipli sualları buraxılış imtahanlarına salmaq doğru deyil. Üstəlik, şagirdlər bu tipli suallarla mütəmadi işləmir. Çünki məktəblərdə kiçik və böyük summativ qiymətləndirmələrdə də adətən qapalı test modellərindən istifadə edilir".

K.Əsədov imtahanlara salınan fənlərlə bağlı da fərqli düşünür: "Hesab edirlər ki, riyaziyyat və Azərbaycan dilindən imtahanlar şagirddə yazı vərdişləri formalaşdırır. Azərbaycan dili bütün imtahanlarda olmalıdır. Bu, dəyişməz fəndir. Lakin imtahanların sadələşdirilməsi baxımından riyaziyyatın başqa fənlə əvəz edilməsi daha məqsədəuyğun olar. Başqa bir tərəfdən, məncə, ali təhsil müəssisələrinə qəbul imtahanlarına daxil edilən fənlər buraxılış imtahanlarına salınmamalıdır. Həmin imtahanlar həm də şagirdlərin başqa fənlərə olan marağını inkişaf etdirməyə hesablanmalıdır. Tutaq ki, şagirdlərdə öz tarixinə, coğrafiyasına maraq oyatmaqdan ötrü riyaziyyatın əvəzinə Azərbaycan tarixi olmalıdır. Şagirdin yazı vərdişlərinin inkişafını yoxlamaq baxımından da bu variant daha uğurludur. Riyaziyyat daha çox faktoloji təfəkkürü formalaşdırdığından insanda yazı vərdişini inkişaf etdirə bilməz. Çünki riyaziyyat yaddaş məktəbini eynilə formalaşdırır".

### Daha "5" olmayacaq

Builki buraxılış imtahanlarının daha bir üstünlüyü qiymətləndirmədədir. Artıq qiymətləndirmə 5 ballıq deyil, 100 ballıq şkala ilə aparılacaq.

K.Əsədov yeni qaydanın qiymətləndirmədə daha böyük imkanlar yaradacağı qənaətindədir: "5 ballıq qiymətləndirmə ilə 100 ballıq qiymətləndirməni uyğunlaşdırmaq olmaz. 5 ballıq şkala müəllimin imkanlarını məhdudlaşdırır. Bir şagirdə bəzən "4", ya da "5" vermək baxımından tərəddüd yaranır. 100 ballıq şkala ilə qiymətləndirmə bu cür tərəddüdləri aradan qaldırır. Proqramı tam mənimsəyənə 95, minimum mənimsəyənə isə daha aşağı qiymət vermək mümkün olacaq. Şagirdin bilik və bacarıqlarını daha düzgün qiymətləndirməkdə müəllimə daha geniş imkan yaradan yeni qiymətləndirmə həm də kurikulumun standartlarının reallaşmasına, şagirdin mənimsəməsinin müəyyən olunmasına imkan verir".

### Bəs uyğunlaşdırmağa cəhd etsək, necə olar?

Ekspertin fikrincə, nəticə uğursuz, ədalətsiz olar: "Tutaq ki, 50 baldan aşağı "2" deməkdir. Yəni 50 faizdən aşağı nəticə göstərməkdir. Dünya təcrübəsində Almaniya, Fransa, İngiltərədə 90-dan yuxarı "5", 70-80 arası "4", 50-70 arası "3" hesab olunur. Mən hesab edirəm ki, müsbət qiymətləndirmə üçün 20 bala qədəri "2", 50-yə qədəri "3", 51-80 balı "4" və 80-100 balı "5"-lə uyğunlaşdırmaq olar. Lakin bu, şagirdlərin hüquqlarının pozulması ilə nəticələnəcək. Biri 81 balla, başqası 95 balla "5" alacaq".

Bütün üstünlük və çatışmazlıqlarına baxmayaraq, yeni tədris proqramları ilə təhsilalanların buraxılış imtahanlarında ilk mərhələ yekunlaşıb. Bu imtahanlar yalnız şagirdlər, müəllimlər üçün deyil, elə təşkil edənlər üçün də bir təcrübədir. Hər bir təcrübənin təkmilləşəcəyi isə labüddür.

# AMEA-nın ümumi yığıncağı keçirilib

⇦ Əvvəli səh.1



Ötən il Akademiyanın ümumilikdə 23 dövlət əhəmiyyətli proqramın icrasında yaxından iştirak etdiyini nəzərə çatdıran AMEA rəhbəri elmi-təşkilati sahədə əldə olunan nailiyyətlər haqqında məlumat verib. Akademik 2016-cı ildə AMEA-da elmi-təşkilati işlərin yeni əsaslarla qurulduğunu, kadr hazırlığı və elmi-innovativ fəaliyyətin gücləndirildiyini, hüquqi islahatlar həyata keçirildiyini vurğulayıb. Elm və təhsilin inteqrasiyası, elektron elmin inkişafı, beynəlxalq elmi əməkdaşlığın yeni əsaslar üzərində qurulması, elmlə istehsalatın inteqrasiyası, elmin populyarlaşdırılması və ictimaiyyətlə münasibətlərin qurulması, maddi-texniki bazanın gücləndirilməsi və digər istiqamətlərdə mühüm işlərin görüldüyünü diqqətə çatdırıb.

Ümumi yığıncaqda hesabat məruzəsi dinlənildikdən sonra müzakirələr aparılıb.

Tədbirdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri, AMEA-nın müxbir üzvü Nərgiz Paşayevaya müstəqillik illərində elm, təhsil sahəsində həyata keçirilən mühüm beynəlxalq layihə - Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin, Nizami Gəncəvi Fondunun yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi, Azərbaycan ədəbiyyatının dünya miqyasında tədqiq olunması sahəsindəki müstəsna xidmətlərinə görə, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfindən rəhbəri, professor Robert Hoylanda isə Azərbaycanın mədəni və tarixi irsinin beynəlxalq miqyasda elmi əsaslarla öyrənilməsinə və təbliğinə verdiyi böyük dəstəyə görə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" təqdim edilib.

Tədbirdə Ümumi yığıncağın qərar layihəsi müzakirə olunub. AMEA-nın 2016-cı ildəki fəaliyyəti qənaətbəxş hesab olunaraq hesabat təsdiq edilib. Qərarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasının davam etdirilməsi, biotexnologiya, gen mühəndisliyi və biofizika sahələrində tədqiqatların genişləndirilməsi, neft sənayesinin inkişafı ilə əlaqədar Xəzər dənizinin ekologiyası, biologiyası və geologiyasına dair tədqiqatlara üstünlük verilməsi, AMEA-nın xarici elmi mərkəzlərlə birgə meqalayihələrdə iştirakının davam etdirilməsi ilə bağlı müddəalar yer alır. Bundan başqa, elm və təhsilin qarşılıqlı əlaqələrinin daha da inkişaf etdirilməsi, elmin informasiya təminatının, innovasiya və elmin kommersiyalaşdırılması sahələrində fəaliyyətin və yüksək texnoloji bizneslə əlaqələrin genişləndirilməsi, AzScienceNet Elm-Kompüter Şəbəkəsinin infrastrukturunun genişləndirilməsi və digər məsələlər də qərarda öz əksini tapır.

# Beynəlxalq assosiasiyanın regional vitse-prezidenti ADNSU-da olub

Aprelin 26-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Qazma Podratçıların Beynəlxalq Assosiasiyasının (İADC) Avropadakı Əməliyyatlar üzrə regional vitse-prezidenti Jens Hoffmark ilə görüş keçirilib. Qonağı universitetdə görməkdən məmnun olduğunu deyən rektor, professor Mustafa Babanlı ADNSU-da aparılan tədris prosesi, eləcə də tələbələr və yeni layihələr haqqında danışıb. Beynəlxalq şirkətlərlə əməkdaşlığın genişləndirilməsi və yeni əməkdaşlıq layihələrindən söz açan rektor, müxtəlif dillə proqramları ilə yanaşı universitetdə təhsil alan əcnəbi tələbələr barədə də qonaqlara məlumat verib.

Universitetdə olmaqdan böyük məmnunluq hissi keçirdiyini deyən İADC-nin regional vitse-prezidenti Jens Hoffmark ADNSU-dakı tədris prosesini yüksək qiymətləndirib. Fəaliyyəti və dünyada neft və qaz qazçıxarma üsulları haqqında danışan qonaq təmsil etdiyi assosiasiyanın missiyaları barədə məlumat verib.

Daha sonra İADC-nin regional vitse-prezidenti Jens Hoffmark qazneft mədən fakültəsinin tələbə və müəllimləri ilə görüşüb. Şəxsi inkişaf və təcrübə perspektivləri haqqında tələbələrə danışan qonaq yeni innovativ texnologiyaların tətbiqi və digər texnoloji üsullardan bəhs edib.

Qeyd edək ki, Qazma Podratçıların Beynəlxalq Assosiasiyası (İADC) qeyri-kommersiya təşkilatıdır və 1940-cı ildən bəri dünya neft və qaz qazma sənayesini təmsil edir. Şirkət eyni zamanda neft və qaz kəşfiyyatı, qazma və ya istismar, quyu tikintisi, neft-mədən avadanlığının istehsalı və başqa quyu xidmətləri ilə məşğul olan 1600 üzvü özündə birləşdirir.

# TİKA Bakı Proqram Koordinatoru Gəncə Dövlət Universitetində

TİKA Bakı Proqram Koordinatoru Adem Urfanın rəhbərlik etdiyi nümayəndə heyəti Gəncə Dövlət Universitetini ziyarət edib və rektor, professor Yusif Yusibovla görüşüb. Görüş zamanı qonaqlara Gəncə Dövlət Universiteti haqqında ətraflı məlumat verilib, gələcəkdə birlikdə hansı sahələrdə əməkdaşlıq imkanlarının yaradıla biləcəyi haqqında səmimi söhbət aparılıb. TİKA Bakı Proqram Koordinatoru Adem Urfa da öz növbəsində rəhbərlik etdiyi qurum və fəaliyyəti, Gəncə şəhərində gələcəkdə planlaşdırdıqları layihələr haqqında ətraflı məlumat verib.

Səmimi söhbətdən sonra GDU tərəfindən TİKA Bakı Proqram Koordinatorluğuna təqdim edilmiş "Kitabxana" layihəsinin müzakirəsi aparılıb. Qeyd edək ki, "Kitabxana" layihəsi GDU-nun yeni tikilən tədris binasında yaradılması planlaşdırılan kitabxananın qurulması üçün nəzərdə tutulub. Müzakirə zamanı layihənin icrası üçün bütün məsələlər müzakirə edilib və tez bir zamanda yüksək nəticənin əldə ediləcəyi vurğulanıb. Daha sonra qonaqlar "Kitabxana" layihəsinin icrası üçün nəzərdə tutulmuş yeni tədris binasını ziyarət edib, kitabxananın qurulması məqsədilə ayrılmış sahəyə baxış keçirib. Baxış zamanı kitabxana üçün müasir şəraitin qurulması istiqamətində məsləhətləşmələr aparılıb, müvafiq məlumatlar toplanılıb. TİKA Bakı Proqram Koordinatoru Adem Urfa tezliklə bu layihənin müvəffəqiyyətlə həyata keçiriləcəyini bildirib.

Sonda Adem Urfa yeni tədris binasının tələb olunan standartlara uyğun təmir edilib tələbələrin istifadəsinə veriləcəyini yüksək qiymətləndirib və bu cür müasir tələblərə cavab verən binanın yaradılmasında xüsusi xidmətləri olan rektor Yusif Yusibova öz minnətdarlığını bildirib.

# AzMİU-da Vaqifin 300 illiyi münasibəti ilə elmi seminar

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Azərbaycan dili və pedaqogika kafedrasının və AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin təşkilatçılığı ilə "Molla Pənah Vaqif yaradıcılığının elmi nəzəri dərki" mövzusunda elmi seminar keçirilib.

Elmi seminarda AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov, AMEA-nın Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri Tahirə Məmmədova, AzMİU-nun professor-müəllim və tələbə heyəti iştirak edib.

AzMİU-nun elm və texnika işləri üzrə prorektoru, professor Arif Şərifov çıxış edərək seminarın işini açıq elan edib. Prorektor Prezident İlham Əliyevin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında 2017-ci il 12 yanvar tarixli sərəncamının əhəmiyyətindən danışıb. A.Şərifov müzakirə olunacaq mövzunun aktuallığını seminar iştirakçılarının diqqətinə çatdırıb.

AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov görkəmli Azərbaycan şairi M.P.Vaqifin zəngin yaradıcılığından söz açıb. O qeyd edib ki, Vaqif hər zaman xalq dilində yazıb, xalqın ruhundan xəbər verən bir şair olub, Qarabağın ictimai-siyasi həyatında xüsusi yer tutub.

AMEA-nın Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri Tahirə Məmmədova qoyulan mövzuya diqqət çəkərək qeyd edib ki, Vaqif yaradıcılığının elmi-nəzəri dərkinə ehtiyac duyulur. Sonra o, şairin XVIII əsr Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklərdən söz açıb.

Azərbaycan dili və pedaqogika kafedrasının müdiri, dosent Salatın Əhmədova Vaqifin ədəbi irsindən bəhs edən məruzə ilə çıxış edib. O, Nizami Cəfərovu Vaqifin 300 illik yubileyi münasibəti ilə yazdığı "Molla Pənah Vaqif" adlı kitabının çapdan çıxması münasibəti ilə təbrik edib.

# “Kapital Bank” “SABAH” qruplarının tələbələri üçün seminar keçirib

“Kapital Bank”ın əməkdaşları sosialyönümlü fəaliyyətinə uyğun olaraq Təhsil Nazirliyinin “SABAH” qruplarında təhsil alan 100-dən çox tələbə ilə görüşüb. Görüş zamanı “Müsahibədə özünü təqdimat bacarıqları” mövzusunda seminar keçirilib.

Tədbirdə “Kapital Bank”ın İnsan Resurslarının İdarə Edilməsi departamentinin direktoru Fərqanə Məmmədova, İşə qəbul və yerləşdirilmə şöbəsinin rəhbəri Elçin Nəsibov və “SABAH” qruplarının İcra Komitəsinin sədri Şahin Seyidzadə iştirak edib.



“Kapital Bank”ın İnsan Resurslarının İdarə Edilməsi departamentinin direktoru Fərqanə Məmmədova bildirib ki, seminar zamanı tələbələrə düzgün iş axtarma yolları, müsahibələrə düzgün hazırlıq və iştirak barədə məlumat verilib. Həmçinin tələbələrin fəal iştirakını təmin etmək məqsədilə onları maraqlandıran suallar cavablandırılıb və bir neçə tələbə ilə iş müsahibəsi prosesi canlı olaraq səhnələşdirilib.

Qeyd edək ki, təhsil layihələrinə dəstək verən “Kapital Bank” Təhsil Nazirliyi ilə birgə bir neçə layihə həyata keçirib. Yaxın gələcəkdə təhsillə bağlı yeni layihələrin keçirilməsi planlaşdırılır.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan “Kapital Bank” 91 filialı və 5 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya Bankın müxtəlif sosial şəbəkələrdəki səhifələrinə müraciət etmək olar.

**AZƏRTAC**

# Strateji yol xəritələri “dəyirmi masa”da

## Təhsilin bütün pillələrində keyfiyyət yüksəldilməlidir

Aprelin 27-də Sumqayıt Dövlət Universitetinin Heydər Əliyev Mərkəzində “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” mövzusunda “dəyirmi masa” keçirilib.

Tədbiri giriş sözü ilə SDU-nun rektoru, professor Elxan Hüseynov açaraq “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” sənədi, həm də ölkədə aparılan davamlı və sistemli islahatlar barədə məlumat verib.

Qeyd olunub ki, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” təsdiq edilib, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsi təmin etmək üçün işçi qrupu yaradılıb. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Rektor onu da qeyd edib ki, Strateji Yol Xəritəsində təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi və ali təhsil müəssisələrinin “təhsil-tədqiqat-innovasiya” formatında inkişafı öz əksini tapıb. Yüksəkixtisaslı kadrların hazırlanması, onların daha sivil və kamil səviyyəyə çatmasında ali təhsilin, xüsusilə universitetlərin rolu əvəzsizdir.

Görüşdə Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə “Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin dövlətin iqtisadi siyasətinə təsiri məsələləri”, ARDNŞ-in “Azərikimya” İstehsalat Birliyinin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Muxtar Babayev “Azərbaycan neft-kimya sənayesi: perspektivlər, inkişaf planları”, Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor Xanhüseyn Kazımlı “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının müasir strateji hədəfləri”, vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov “Vergi siyasəti və davamlı inkişaf”, İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Vüqar Bayramov “Azərbaycanda maliyyə xidmətlərinin dayanıqlı inkişafı post-neft dövrünün əsas prioritetlərindən biri kimi”, ADİU-nun mühasibat uçotu və audit kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Sifariz Səbzəliyev “Təhsil müəssisələrinin idarə edilməsində mühasibat uçotu və auditin rolu”, SDU-nun iqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Aynurə Yəhyayeva “Strateji Yol Xəritəsi: milli iqtisadiyyatın inkişafında yeni mərhələ” mövzularında məruzə ediblər.

Tədbir Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, ölkəmizdə kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafı haqqında Strateji Yol Xəritəsi məsələlərinin müzakirəsi ilə davam etdirilib. Məsələlərlə bağlı təkliflər səsləndirilib.

# “İslam Həmrəyliyi İli 2017: reallıqlar, perspektivlər”

Bakı Dövlət Universitetində “İslam Həmrəyliyi İli 2017: reallıqlar, perspektivlər” mövzusunda respublika elmi-metodik konfransı keçirilib. Konfransda rektor, akademik Abel Məhərrəmov çıxış edərək Prezident İlham Əliyevin 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında imzaladığı sərəncamın böyük əhəmiyyət kəsb etdiyini bildirib. Vurğulanıb ki, ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı, İSESKO, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub, qlobal əhəmiyyətli mədəni forumların təşkilatçısı kimi çıxış edib. Akademik Abel Məhərrəmov son illər ölkəmizdə müxtəlif dinlərin həmrəyliyi istiqamətində uğurlu siyasət aparıldığını, sovet dövründə



dinlə bağlı sərt qadağaların mövcud olduğunu, həmin dövrdə Azərbaycanda 20-dək məscid fəaliyyət göstərdiyi halda hazırda onların sayının 2000-i ötdüyünü, həmin məscidlərin 300-dən çoxunun tarixi-mədəni abidə kimi qorunduğunu xatırladıb.

Plenar iclasda çıxış edən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın, o cümlədən bölmə iclaslarına təqdim edilən məqalələrin əhəmiyyətindən, İslam dünyasında böyük nüfuza malik olan Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsindən danışıblar.

Sonra BDU-nun ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev “İslam həmrəyliyi müasir dünyanın ən zəruri tələblərindən biridir”, fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanova “İslam mədəniyyətində ümumbəşəri həmrəylik prinsipi” mövzularında məruzə ediblər.

Qeyd edək ki, işini 6 bölmə üzrə davam etdirən konfransda 200-dən çox məruzə dinlənilib.

# Naxçıvan Dövlət Universitetində elmi konfrans keçirilib

**Nərmin CABBAROVA**

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatı ilə birgə görkəmli elm xadimi, tanınmış oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr olunmuş elmi konfrans keçirilib.

Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri açaraq bildirib ki, aprelin 28-də XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə Əliyevanın anadan olmasının 94-cü ildönümü tamam olur. Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir.

Əczaçılıq və stomatologiya kafedrasının baş müəllimi Çinarə Məmmədova “Azərbaycan oftalmologiya elmində Zərifə Əliyeva məktəbi”, tibbi profilaktika ixtisası üzrə III kurs tələbəsi Türkanə Məmmədova “Gözəl həkim, unudulmaz şəxsiyyət” adlı məruzələr ediblər. Qeyd olunub ki, Zərifə Əliyevanın elmi fəaliyyəti çox zəngin və əhatəli olub. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb. Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim, qayğıkeş həyat yoldaşı, mehriban ana idi.

Tədbirin sonunda bir qrup tələbəyə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

# Məktəblinin dərsliyi və müəllifi...



**Jalə MÜTƏLLİMOVA**

Əvvəlcə oğlumla dərs oxuduq. Sonra keçdik çantasını səliqəyə salmağa. Azərbaycan dili fənni üzrə:

- əsas fənn kitabı
- iş dəftəri
- qiymətləndirmə kitabı
- TQDK-nın test hazırlığı kitabı
- qaydalar dəftəri
- tapşırıq dəftəri
- inşa-ifadə dəftəri

Bu, son deyildi. Az fərqlə ingilis dili, coğrafiya, riyaziyyat, informatika, rus dili və tarix dərsliklərinə görə də xeyli dərs vəsaiti topladıq çantaya. Müxtəlif fənn kitablarını dəyişmək şərti ilə demək olar ki, o, hər gün 6-7 dərs saatı üçün eyni həcmdə və çəkidə kitab-dəftəri yığır çantasına, bütün uşaqlar kimi. Ağırlığı əllə götürəndə belə hiss olunan çantanı maraq üçün tərəzidə çəkdik. 12.5 kiloqram.

Deməli, mənim, bizim məktəbli uşaqlarımız, məsələn, 5-6-cı sinif şagirdləri hər gün məktəbə və evə üst-üstə 25 kq. yüklə gedib-gəlir. Ən ağrılı məqamsa budur ki, o sadalanan əlavə kitabların yarıdan çoxunun dərs ili müddətində qatı belə açılmır. Bəli, bu başqa söhbətin mövzusudur, amma bütün bu deyilənlər bizi daha böyük hədəfə aparır. O üzdən tələsməyin, görək bu ilk mənzərə bizə nə verir?

Bədən çəkilərinə uyğun olmayan yüklənmə uşaqların sağlamlığına ziyan vurur. Yaxşı, deyək ki, çantaları bəzi hallarda onların əvəzinə biz daşıyırıq, onları əlavə kiloqramdan xilas edirik hərdən. Ancaq bu, hərdən olur, həmişə olmur axı. O üzdən çox keçmir ki, uşaqlarda onurğa sütunu, görmə qabiliyyətinin zəifliyi və sinir sistemi problemləri ilə üz-üzə qalırıq. Həm valideyn, həm məktəb, həm də aidiyyəti dövlət qurumu olan Təhsil Nazirliyi, ən vacibi isə məktəbli olaraq.

Bəli, bu gün bu problemin aradan qaldırılması istiqamətində nazirliyin ciddi tədbirləri var. “Sağlam təhsil-sağlam millət” layihəsi məhz təhsilalanların fiziki və zehni inkişafının sürətləndirmək, dərs prosesini yüngülləşdirmək üçün ən yüksək səviyyədə icra olunur. Amma bu layihə bütünlükdə respublikanı əhatə edə bilmir. Deməli, problemin də üstünə bütünlükdə gedə bilmirik. O üzdən məsələyə daha bir bucaqdan baxış tələb olunur. Tutalım ki, min bir əziyyət, sağlamlığına dəyən ziyanla məktəbli həmin kitabları gün ərzində evdən məktəbə, məktəbdən də geri, evə daşıyır. Bu qədər yükə baxıb düşünürsən ki, əcəba, uşaqların hər gün kürəyində daşıdığı o kitabların arasında nə var?! Hansı səviyyədə və keyfiyyətdədirlər?

Bu sualın da cavabı var, amma əvvəlcə kitabların hazırlanması üçün çoxunun bilmədiyi prosedura diqqət edək.

İstənilən fənn kitablarının hazırlanması ilə bağlı Təhsil Nazirliyi əvvəlcə açıq tender elan edir. Müəyyən olunmuş vaxt üzrə nəşriyyatlar konkret fənlərə dair hazırladıqları dərs kitabları və metodik vasitələri təqdim edirlər. Müəllifin adı açıqlanmamaq şərti ilə. Kitabları Tender Komissiyası təhvil alır. Tender Komissiyası öz növbəsində bu kitabları Dərslikləri Qiymətləndirmə Şurasına verir. Dərslikləri Qiymətləndirmə Şurasında hər bir dərslik ayrı-ayrılıqda qiymətləndirilir. Dərsliklər qiymətləndirilməsi üçün Dövlət İmtahan Mərkəzinə də göndərilir. Qiymətləndirmə Şurasının və Dövlət İmtahan Mərkəzinin verdiyi ballar əsasında orta bal müəyyən edilir. Dərslik və metodik vəsait keçid balını toplayırsa, onda qalib hesab olunur. Əgər toplamırsa, təbii olaraq prosesdən kənarda qalır.

Verilməsi mümkün olan ballara gəlincə, dərslik vəsaiti üçün maksimum bal 100-dür. Mərhələni keçmək üçün keçid balı 80 müəyyənləşdirilib. Metodik vəsaitlər üçün maksimum bal 40-dır. Keçid balı 32 nəzərdə tutulub.

Yeri gəlmişkən, prosesə heç bir mərhələdə Təhsil Nazirliyinin nə birbaşa, nə də dolayısı ilə müdaxiləsi mümkün deyil. Çünki adıgedən qurumlar nazirlik nəzdində yaradılsa da, fəaliyyətlərini yönəltmək nazirliyin səlahiyyətləri xaricindədir. Yəni, Təhsil Nazirliyinin kitab çapı və müəlliflər məsələsinə dair hazırkı vəziyyəti təxminən belədir: qurum narazı valideyn, şagird, məktəb, nəşriyyat və müəlliflər arasında qalıb. Onu da qeyd eləmək lazımdır ki, sadalanan tərəflərdən daha ağır durumda olanı da elə Təhsil Nazirliyidir. Çünki kitabların hazırlanması prosedurundan sıravi vətəndaşın xəbəri yoxdur. Əslində, bu prosesi həmin vətəndaş dərindən bilməyə borclu da deyil. İnsanları keyfiyyətli nəticə maraqlandırır, vəssalam!..

Bu gün ortada olan nəticəni, yəni dərslikləri isə qənaətbəxş saymaq olmaz. O üzdən hər kəs, həm də ən kəskin formada məhz nazirliyi qınayır. Çünki faktoloji olaraq dərslikləri məhz məktəblər uşaqlara çatdırır. Amma oturub araşdıra bilmir ki, məsələn, bəzi kitablarda Azərbaycanın böyük sənət və ədəbiyyat adamlarından daha çox Amerikanın cizgi və film qəhrəmanı Betmenə yer verilir. Ya da ki, məsələn, 6-cı sinfin Azərbaycan dili kitabına baxanda anlaya bilmirsən, bu, dilin qrammatikasını öyrədən dərs vəsaitidir, yoxsa ədəbiyyat və ya tarix dərsliyidir. Tutalım kimin ağlına gələr ki, dərslik müəllifi 2-ci sinif Azərbaycan dili kitabına uşaq şeiri sala bilər. Özü də bu bəndlə:

*Ermənilər qoymadı*
*Laçına, Kəlbəcərə*
*Şaxta babayla qar qız*
*Gəlib çıxdı şəhərə...*

**Başlayaq ondan ki, dərslik müəllifi kim olmalıdır? O, ölkəsinin təhsil strategiyasını dərindən bilən, uşaq psixologiyası barədə geniş təsəvvürü olan, ən vacibi, milli qüruru və şəxsiyyəti ilə fərqlənən, eyni zamanda, dərslik hazırlanması prosesində bütün sadalananları ən sadə dildə çatdırmaq bacarığı olan biridir.**

Dərsliklərin ən ciddi problemlərindən biri də dil qüsurlarının çoxluğudur. Məsələn, 2-ci sinif “Həyat bilgisi” dərsliyində xeyli sayda 3-4 sətirlik cümlələrə rast gəlmək olur. Bu qədər qəliz cümlə quruluşunu bəzi hallarda böyük adamlar anlaya bilmir. Sual olunur ki, məsələn, yeddi yaşlı uşaq bu cümləni beynində necə bölsün, necə qavrasın və geri, müəllimə necə qaytarsın?

Bu kimi qüsur və uyğunsuzluqlara tədris vəsaiti kimi istifadə edilən əksər dərsliklərdə rast gəlmək mümkündür. Bu isə nazirliyin, nəşriyyatların olduğu qədər, bəlkə daha da artıq müəlliflərin problemidir. Daha dəqiqi, müəllif qıtlığının göstəricisidir. Əslində, kimdir dərslik müəllifi? Onun görməli olduğu iş nə dərəcədə ciddi işdir?

Başlayaq ondan ki, dərslik müəllifi kim olmalıdır? O, ölkəsinin təhsil strategiyasını dərindən bilən, uşaq psixologiyası barədə geniş təsəvvürü olan, ən vacibi, milli qüruru və şəxsiyyəti ilə fərqlənən, eyni zamanda, dərslik hazırlanması prosesində bütün sadalananları ən sadə dildə çatdırmaq bacarığı olan biridir. O, dərs kitablarının sistemli təqdimatçısıdır. Bir sözlə, dövlət qədər onun gələcəyindən narahat olmağı bacaran biridir. O, öyrədəni də, öyrənəni də yönəldəndir.

Yuxarıda sadalanan faktlarsa göstərir ki, bu gün Azərbaycanda ciddi şəkildə dərslik müəllifi qıtlığı var. Dünya təcrübəsində dərsliklərin hazırlanmasında ali təhsil müəssisələri fəal iştirak etsələr də, bizdə universitetlərdə bu məsələ arxa plandadır. Milli Elmlər Akademiyası da prosesdən kənarda qalmağa üstünlük verir.

Amma digər tərəfdən, müəllif qıtlığı varmı sualını da verməli olursan. Yəni, ola bilər ki, müəllif qıtlığı həm də süni yaradılsın. Çünki ortada həm də konkret biznes maraqları var. Deməli, təbii olaraq kitab və müəlliflik məsələlərində həm də mübarizənin ən müxtəlif formaları ola bilər.

Ancaq bu da zaman-zaman araşdırılıb həllini tapacaq məsələlərdəndir. O zamana qədərsə bizlər üzümüzü uşaqlara tutub “əlinizdəki kitablara möhkəm sarılın, əziz məktəblilər, çünki oxumaqdan başqa bir yol varsa, o da elə oxumaqdır” deyək...

## "Oxu aylığı" çərçivəsində mütaliəyə maraq artırılır

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində yaradılmış Kitabxanaçılar Klubunun üzvləri ilə görüş keçirilib.

Görüşün keçirilməsində əsas məqsəd paytaxtın ümumi təhsil müəssisələrində kitabxana işinin düzgün formalaşdırılmasına dəstək verməkdən ibarətdir.

Kitabxanaçılar Klubunun fəaliyyəti məktəblərdə kitabxana işinin düzgün təşkili üzrə mentorluğa ehtiyacı olan digər kitabxana işçilərinə müvafiq dəstəyin göstərilməsi, kitabxanadaxili və kitabxanalararası öyrədici mühitin təkmilləşdirilməsi, səmərəli fikir mübadilələrindən yararlanma və araşdırma qabiliyyətinin inkişafı məsələlərini əhatə edir.

Görüşdə BŞTİ-nin əməkdaşı Səkinə Ağalarova, akademik Zərifə Əliyeva adına liseyin kitabxana müdiri İradə Hacızadə və yüksək təşkilatçılığı ilə seçilən Kitabxanaçılar Klubunun üzvləri iştirak edib.

Görüş zamanı klub üzvləri ilə klubun gələcək fəaliyyəti barədə söhbət aparılıb. Onlara 25 aprel–25 may tarixlərində keçirilən "Oxu aylığı" çərçivəsində mütaliəyə marağın artırılması istiqamətində müxtəlif işlərin təşkili ilə bağlı müvafiq tapşırıqlar verilib.

Görüşün sonunda kitabxana işçilərinə təmsil etdikləri məktəblərin kitabxana fondunu zənginləşdirmək məqsədilə "Toppuşun bilgiləri" və "Məktəblinin lüğəti" adlı kitablar hədiyyə edilib.

## "Məktəblinin dostu" layihəsi çərçivəsində təlimlər

"Məktəblinin dostu" layihəsi çərçivəsində karyera planlama təlimlərinə start verilib.

Təlimlər "Məktəblinin dostları"nın fəaliyyət göstərdiyi 30 məktəbdə yuxarı sinif şagirdləri üçün keçirilir.

Təlimlərin keçirilməsində əsas məqsəd şagirdlərin ixtisas seçiminə yardım etmək, müxtəlif sahələrin mütəxəssisləri ilə görüşlər keçirərək ixtisaslar barədə şagirdlərin geniş məlumat almalarına şərait yaratmaqdan ibarətdir.

Təlimlər zamanı şagirdlərin ixtisas seçimində fərdin qabiliyyət və bacarığının vacibliyi ön plana çəkilir.

Təlimdə peşə seçimi nədir və nə üçün önəmlidir, peşə seçərkən nələrə diqqət yetirməli kimi mövzularda müzakirələr aparılır, şagirdləri maraqlandıran suallara dolğun cavab verilir.

Təlimlərin davamı olaraq şagirdlərin ixtisas seçiminə yardım məqsədilə müxtəlif universitetlərə ekskursiyaların da təşkili olunur.

Qeyd edək ki, müvafiq təlimlər çərçivəsində 95 və 63 nömrəli məktəb şagirdlərinin "ADA" Universitetinə səfərləri təşkil edilib, məktəblilər universitet həyatı ilə tanış olublar.

## Məktəb psixoloqları peşə bacarıqlarını inkişaf etdirirlər

Aprel ayından başlayaraq Təlimə Dəstək Mərkəzində paytaxtın ümumi təhsil məktəblərinin psixoloqları ilə görüşlər keçirilir.

Görüşlərin keçirilməsində əsas məqsəd məktəb psixoloqlarının peşə bacarıqlarını inkişaf etdirmək, onları vəzifə və hüquq öhdəlikləri ilə bağlı maarifləndirmək, uşaqlarla həyata keçirdikləri psixoloji işlərin keyfiyyətini yüksəltməkdən ibarətdir.

Bakı şəhərinin Nizami, Səbail, Nəsimi, Nərimanov və Suraxanı rayonları üzrə keçirilən görüşlər zamanı Təlimə Dəstək Mərkəzinin psixoloji xidmətin təşkili üzrə metodistləri Elşad Səfixanov və Səidə Əhmədova "Məktəbdə psixoloji xidmətin təşkili" mövzusunda təqdimatla çıxış ediblər.

Görüşlərdə məktəb psixoloqlarının fəaliyyəti zamanı qarşılaşdıqları problemlər haqqında danışılıb və qarşılıqlı müzakirələr aparılıb. Psixoloqlara uşaqların təlim-tərbiyəsi problemləri və psixoloji xidmət sahəsində yaranan yeniliklərlə bağlı məktəb rəhbərliyi, müəllim, valideyn və tərbiyəçilərin maarifləndirilməsi istiqamətində təlimlərin təşkili, maarifləndirici-profilaktik tədbirlərin həyata keçirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilib.

Həmçinin, görüşlərin sonunda psixoloqlar onlara təqdim olunan anket sorğuları cavablandırırlar.

Qeyd edək ki, Təlimə Dəstək Mərkəzinin təşkilatçılığı ilə keçirilən görüşlərin paytaxtın digər rayonları üzrə də təşkili nəzərdə tutulub.

# Hədəf müəllim olmaqdırsa...

### "Peşəkar ol" layihəsinin iştirakçıları dövrün tələblərinə cavab verən mütəxəssislər olmaq istəyirlər

**Niyazi RƏHİMOV**



Ali məktəblərdə pedaqoji təhsil alan sonuncu kurs tələbələri və magistrlər üçün "Peşəkar ol" proqramı uğurla davam edir. Layihənin əsas məqsədi pedaqoji ali təhsil alan tələbələrdə divergent təfəkkürü inkişaf etdirmək, mövcud çərçivələri aşan, yeniliyə açıq təhsil işçiləri formalaşdırmaq, gənclərdə peşəyə loyallıq tərbiyə etməkdir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor əvəzi Vəfa Yaqublu bildirir ki, proqrama seçilən tələbələr "Müasir təhsilin xüsusiyyətləri", "Təhsilin məzmunu, kurikulum, tədris metodikası", "Şagird-müəllim münasibətləri", "İKT-nin təhsildə tətbiqi", "Auditoriya ilə iş" və s. mövzulu seminarlarda iştirak edirlər. "Media savadlılığının əsasları" adlı modula isə proqramda xüsusi yer ayrılır. Tələbələrə müxtəlif məzmunlu və formalı informasiyanı axtarmaq, təhlil etmək, qiymətləndirmək və habelə mediamətn hazırlamaq bacarıqları öyrədilir. Düşünürük ki, saysız-hesabsız informasiya axınında bata-bata ağıllı kələmə ac qaldığımız dövrdə bu bacarıqlar əvəzedilməzdir. Nəzərə çatdırım ki, tələbələr seminarlarda çox həvəslə iştirak edirlər. V.Yaqublunun sözlərinə görə, gələcəkdə bu seminarda xüsusi fərqlənənləri instituta əməkdaşlığa cəlb etməyi planlaşdırırlar.

Bu kimi seminarların davamlı olması və il ərzində təşkil edilməsi nəzərdə tutulur. Seminarlar ödənişsizdir və qeydiyyatdan keçən hər bir tələbə iştirak edə bilər.

Seminarlar TİPİİ-nin əməkdaşları və dəvət olunmuş mütəxəssislər tərəfindən aparılır. İki ay davam edəcək proqramı uğurla bitirən iştirakçılara sertifikat veriləcək.



Xanım CƏFƏROVA



Təbiət KAMİLZADƏ



Fatimə ABBASZADƏ



Aytac LƏTİFLİ

*Layihənin iştirakçısı Bakı Dövlət Universitetinin tələbəsi Xanım Cəfərova* "Azərbaycan müəllimi"nə bildirib ki, "Peşəkar ol" layihəsinin keçirilməsi haqqında məlumatı sosial şəbəkədə görüb. Layihənin məqsədi və seminarların nə qədər əhəmiyyətli olacağını nəzərə alaraq qeydiyyatdan keçib. 4-cü kursda müəllimlik peşəsi ilə bağlı pedaqoji təcrübədə olduğunu bildirən X.Cəfərova qeyd edib ki, bu seminarlar çox əhəmiyyətlidir: "Belə ki, qısa zaman kəsiyində bir çox bilik əldə edir, sərbəst düşüncə vərdişlərimi daha da formalaşdırıram. Əgər gələcək hədəf müəllim olmaqdırsa, çalışmalıyıq ki, dövrün tələblərinə cavab verən peşəkar müəllim olaq".

*BDU-nun tələbəsi Təbiət Kamilzadə* də layihə haqqında müsbət fikirdədir: "Eşidəndə ki, belə bir seminar keçiriləcək, heç tərəddüd etmədən bu seminarda iştirak etmək qərarına gəldim. Bu seminarlar bizim gələcəkdə bir peşəkar kimi formalaşmağımıza xüsusi təkan verəcək. Məsələn, ötən seminarda biz məktəbdə aktiv və hiperaktiv uşaqlarla işləməyin qaydalarını öyrəndik. Həmin uşaqlarla davranış qaydalarını, onlara xüsusi münasibət və sair məsələləri müzakirə etdik. İnstitutda keçirilən seminardan çox razıyam və gələcəkdə də belə iştirak edəcəyimi düşünürəm".

*BDU-nun tələbəsi Fatimə Abbaszadə* isə "Peşəkar ol" layihəsinə qatılmaqda əsas məqsədinin müəllimlik peşəsinə olan marağından irəli gəldiyini deyir. Ali təhsilini başa vurduqdan sonra səriştəli, peşəkar müəllim olmaq arzusunda olan F.Abbaszadə düşünür ki, məqsədə çatmaq üçün bir sıra seminar, təlimlərdə iştirak etmək çox vacibdir. O, layihədəki iştirakını yaxşı bir fürsət hesab edir. Seminarlarda onu ən çox sevindirən amil isə sərbəst, demokratik fikir mübadiləsi aparılmasıdır.

Digər bir iştirakçı, BDU-nun tələbəsi *Aytac Lətifli* seminar zamanı müxtəlif universitetlərdən olan tələbələrlə tanış olduğunu və onlarla hər hansı bir mövzu üzrə uzun sürən müzakirələrin əhəmiyyətini vurğulayır. Bu müzakirələrin bir vətəndaş, peşəkar insan kimi formalaşmaqda xüsusi rolu olduğu qənaətindədir. O, seminarın moderatorlarının aparıcılıq, idarəetmə qabiliyyətini xüsusilə bəyənir. Həmin moderatorlardan bir çox bacarığı öyrəndiyini qeyd edir.

# "Yaşıl məktəb" yaşıllaşdırır

**Yusif ƏLİYEV**



Yaşıllığın saymaqla qurtarmayacaq qədər faydaları var. Onlardan biri və ən əsası bəşəriyyət üçün həyat mənbəyi olmasıdır. Elə təkcə bu kifayətdir ki, yaşıllığı qorumağın və artırmağın bütün zamanlarda nə üçün qlobal və aktual bir məsələ olduğu, bu istiqamətdə fəaliyyətlərin diqqət mərkəzində saxlanıldığı dərk edilsin.

Dünyada ekoloji tarazlığın pozulduğu, bəşəriyyətin saysız-hesabsız ekoloji problemlərlə üz-üzə qaldığı müasir dövrümüzdə isə yaşıllıqların qorunması və artırılmasına qayğı xüsusilə həyati zərurətli məsələyə çevrilib. Bu məsələnin uğurlu həlli isə, hər şeydən öncə, yaşıllıqları qorumağın əhəmiyyət və vacibliyini cəmiyyətin hər bir üzvünə, xüsusən də böyüməkdə olan nəslə çatdırmaqdan, onlara təbiətə qayğıkeş münasibət, sevgi hissi tərbiyə etməkdən, eləcə də uşaq və gəncləri bu istiqamətdə zəruri bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdan asılıdır.

Daha çox məktəbin öhdəsinə düşən və onun təlim-tərbiyə sahəsindəki fəaliyyətinin vacib istiqamətlərindən birini təşkil edən bu işləri paytaxtın təhsil müəssisələrində daha da canlandırmaq və keyfiyyətli etmək üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsi 2016-2017-ci tədris ilinin II yarısından yeni - "Yaşıl məktəb" layihəsinə start verib. SOCAR-ın Ekologiya İdarəsinin tərəfdaşlığı ilə həyata keçirilən layihənin əsas məqsədi məktəbyanı sahələrin yaşıllaşdırılması, təhsil müəssisələrində canlı guşə və oranjereyaların yaradılmasıdır. Canlı aləmə münasibətdə düzgün yanaşmanın şagirdlərdə vərdişə çevrilməsi də layihənin əsas hədəflərindəndir.

İlk olaraq layihəyə həyətyanı sahəsi, məktəb bağı yaratmaq üçün müvafiq şəraiti olan 40 məktəb könüllü olaraq cəlb olunub. Həmin məktəblərdə məktəb bağının salınması nəzərdə tutulub. SOCAR əməkdaşlarının iştirakı ilə bu il fevralın 14-də Binəqədi rayonunda yerləşən 246 nömrəli məktəb-liseydə layihənin təqdimatı olub və onun icrasına start verilib. O vaxtdan bəri layihəyə qoşulan məktəblərin həyətyanı sahələrində xeyli yeni ağac və gül kolları əkilib, yaşılıq zolaqları salınıb, mövcud yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Layihə çərçivəsində keçirilən ekoloji tədbirlərdə məktəblərin pedaqoji kollektivi ilə yanaşı şagirdlər də fəal iştirak edib.

Məktəblilərin ekoloji təfəkkürünü inkişaf etdirmək və cəmiyyətə ekologiyanın qorunmasının vacibliyini bildirmək məqsədilə tədris ocaqlarında ekoloji mövzuda divar qəzetləri hazırlanıb. Həmçinin həm "Yaşıl məktəb", həm də "Ekologiya və sağlamlıq" istiqamətində həyata keçirilən müxtəlif layihələr çərçivəsində şagirdlərə ekoloji mövzu və istiqamətlərdə seminar, mühazirə təqdimatlar keçirilib. Mühazirələr SOCAR-ın Ekologiya İdarəsinin mütəxəssisləri tərəfindən aparılıb.

Yeri gəlmişkən qeyd edək ki, Ekologiya İdarəsi ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsi arasında bu il yanvarın 30-da əməkdaşlıq sazişi imzalanıb. Həmin müqaviləyə uyğun olaraq Ekologiya İdarəsi "Yaşıl məktəb" layihəsinə qoşulmuş məktəbləri ağac tingləri ilə təmin edir. İndiyədək təhsil müəssisələrinə 1500 ağac tingi verilib, idarənin əməkdaşları məktəblərdə ağacların əkilməsi prosesində iştirak edib.

Məktəblərlə müntəzəm əlaqə saxlanılır, bütün məlumat və təlimatlar idarə tərəfindən məktəblərə göndərilir. Heç bir məktəb diqqətdən kənarda qalmır. Aparılan bütün işlər şagirdlərin ekoloji tərbiyənin formalaşdırılmasına, onlarda təbiətə maraq, qayğı və məhəbbət oyatmaq, onun sərvətlərindən düzgün istifadə etməyi öyrətməyə, istedadlı və yaradıcılıq qabiliyyəti olan şagirdləri üzə çıxarmaq və onlarda ekoloji mədəniyyət formalaşdırmağa hədəflənib.

Məktəblərdə yaşıllaşdırma işləri dərs saatlarından kənarda həyata keçirilir. Lakin bu layihə bir tapşırıq kimi deyil, vərdiş olaraq şagirdlərə aşılanır. Nəticədə əkilmiş ağaclara, gül kollarına, dibçəklərə qulluq, onlara suyun verilməsi və s. kimi fəaliyyətlər onlar üçün gündəlik etmələri zəruri olan məsələlərdən biri olaraq qəbul olunur. Eyni zamanda onlara bu vərdişlərin sadəcə layihə müddətində deyil, həyatlarının hər sahəsində daim tətbiq etməli olduqları fikri aşılanır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən aldığımız məlumata görə, layihənin icrası istiqamətində paytaxtın 36 və 283 nömrəli tam orta məktəblərində, 246 nömrəli məktəb-liseydə daha çox iş görülüb, bu təhsil müəssisələrinin hər birinin həyətyanı sahəsində onlarca ağac tingi əkilib.

Layihə davam edir. Növbəti tədris illəri ərzində digər ümumi təhsil müəssisələrində də məktəb bağının salınması, bütün məktəblərin tədricən yaşıllaşdırılması nəzərdə tutulur.

# Finlandiya təhsil modeli: mif, yaxud reallıq?

## Orta təhsilin əsas məqsədi uşaqları həyata hazırlamaqdır



Rüstəm QARAXANLI

Otuz il əvvəl Finlandiyanın təhsil sistemindən nəinki kimsə söz açırdı, bu mövzu heç diqqət mərkəzinə belə layiq deyildi. Bu gün isə dünyada ən effektiv təhsil sistemlərindən biri sayılır. İndi onu nəinki öyrənir və təqlid edirlər, tənqid etməyə cəhd belə göstərmirlər: göz önündə nüfuzlu reytinqlərin nəticələri var. XXI əsrin ilk onilliyində Finlandiya dünyanın təhsil sahəsində əsas monitorinq - PISA-nın sıralamasında ən öndə yerləri tutmağa müvəffəq olub.

Hətta ən sərt tənqidçilər belə qəbul edirlər ki, bu təhsil sisteminin mühüm özəlliyi "relaxed", yəni rahat olmasıdır. Düzdür, onu da əlavə edirlər ki, bu sistem nəinki "relaxed", hətta "too relaxed", yəni həddindən artıq rahatdır. Ekspertlərə görə, Finlandiya özünün təhsil sistemini qurarkən ideya antipodu olan Çin mədəniyyətindən bir müdrikliyi əxz etmişdi. Söhbət Şərq döyüş üslublarında tətbiq edilən "diqqətin rahat konsentrasiyası" fəlsəfəsindən gedir. Maksimal effektivliyi əldə etmək üçün gərginliyə ehtiyac yoxdur, axı gərginlik stress deməkdir ki, bu halda orqanizmin əsas vəzifəsi inkişafa deyil, xilasa yönəlir.

### Uğurun sirri

Humanizm prinsiplərinə, iştirakçıların bərabərliyi və qarşılıqlı hörmətinə əsaslanmış prosesə söykənən əlverişli mühit. Fin uğurunun istinad nöqtəsi bax budur. Sən demə, psixoloji təhlükəsizlik, azad imkanlar mühitinin yaradılması və fərdiliyə tək-tək yanaşma uşaqlarda elə bir potensial formalaşdırır ki, ümummilli səviyyədə ölçüyəgəlməz miqyaslarda ecazkar nəticələrə səbəb olur.

Ancaq onu da gizlətmək olmaz ki, Finlandiyanın özündə belə bu sistemə dair eyforiyanı bölüşməyənlər də var. Bir sıra yerli mütəxəssislər bu qənaətdədirlər ki, təhsil sisteminin ünvanına söylənilən təriflərin cəmi 75 faizi həqiqəti əks etdirir, yəni tam qüsursuzdur demək ədalətsizlik olardı. Güman ki, narazılıqların əsası da var: Finlandiya təhsil sisteminin əsas missiyası uşaqları orta səviyyəyə daşımaqdır. Yəni, bu prosesdə əsas ağırlıq ona salınır ki, geridə qalanları orta həddə çatdırmağa müvəffəq olunsun. Bəs onda orta həddən yuxarı potensiallı olan uşaqlar? Onlar necə olacaq? Axı anadangəlmə əlahiddə istedada malik uşaqlar da var!

Xatırlayırsınızsa, sovet təhsil sistemində yekun qiymət olaraq "2"-nin yazılması istisna idi. Ona görə yox ki, müəllimlərin hamısı belə diqqətli və mərhəmətli idilər, sadəcə, yekun mənzərəni pozmaq istəmirdilər. Finlandiyada bu yekun mənzərə söhbətinə o qədər də önəm verən yoxdur: başlıca məqsəd uşağı orta səviyyəli savada sahib etməkdir. Uşaq geridə qalırsa, onu "qaldırmaq" üçün tələb olunan nə varsa ediləcək - əlavə hazırlıq kurslarının təşkilindən tutmuş ev işinin hazırlanmasında köməyədək.

Di gəl ki, əgər uşaq həmin o orta səviyyədən yuxarı göstəricilərə malikdirsə, verilən proqramı asanlıqla həzm edirsə, bax bu halda sistemin çatışmazlıqları kimi qələmə verilən həmin o 25 faiz ortaya çıxır. İstedadlı uşaq lazım olan və daşıya biləcək qədər "yüklənmir" və bu halda əsas missiya valideynlərin üzərinə düşür. Deyilənə görə, xüsusilə iri şəhərlərdə və paytaxtda tibb və hüquq sahəsində karyera qurmaq istəyən uşaqlar üçün əlavə repetitorlar tutulur və qiymətləri də o qədər ucuz olmur: saatı 40-60 avro!

Finlandiya cəmiyyətinin əsas üstünlüklərindən biri budur ki, problem ortaya çıxarkən onu ən geniş müzakirələr vasitəsilə həll etməyə çalışırlar. Çətinliyin peyda olması kifayətdir ki, müzakirəsi üçün qızğın diskussiyalar açılsın. Özü də müəllimlər "yuxarı"dan göstəriş gözləyən deyillər, nöqsanın neytrallaşdırılması prosesi elə məktəblərdən başlayır.

Təbii ki, mürəkkəb vəzifələrin çözülməsinə dair sistemli yanaşma olmasaydı, bu təhsil sistemi dünyada belə əks-sədaya səbəb ola bilməzdi.

### Fin tapmacası

Əlbəttə, mövzumuz olan təhsil sisteminin özəllikləri barədə çox danışmaq olar. Ancaq dünyada səs-küy yaratmış tədris proqramından danışarkən ortaya ən vacib və bəlkə də əsas sual çıxır: axı necə olur ki, gündə 3-4 saat dərs keçən (nahar vaxtı da buraya daxildir), ev işi ilə "yüklənməyən", həftədə maksimum 20 saat dərsdə olan fin uşaqlar dünyada ən yaxşı nəticələri göstərirlər? Finlandiyalı müəllimlər sirr saxlamağı sevmirlər və təcrübələrini həvəslə bölüşürlər.

Məsələ burasındadır ki, dünyanın istənilən ölkəsində olduğu kimi, Finlandiyada da təhsil sistemini bütöv cəmiyyətdəki ab-havadan kənarda təsəvvür və tədqiq etmək mümkün deyil. Bu cəmiyyətdə münasibətlər elə mükəmməl qurulub ki, "relaxed" təhsil sisteminin nəticə verməyəcəyini gözləməyə dəyməzdi. Aşağıda Finlandiyada orta təhsilin mərhələlərinə toxunacağıq, ancaq bir cümlə ilə fikrimizi yekunlaşdıraq ki, bu ölkədə tədris proqramının məqsədi uşaqlardan dahi düzəltmək deyil, onları həyata hazırlamaqdır.

Beləliklə, Finlandiyada orta təhsil iki mərhələyə ayrılır:

1. Aşağı (alakolu) - 1-6-cı siniflər;

2. Yuxarı (ylakolu) - 7-9-cu siniflər.

Sonra gəlir 10-cu sinif. Bu sinif o uşaqlar üçündür ki, onlar öz biliklərini təkmilləşdirmək və dərinləşdirmək istəyirlər. Bunun ardınca professional kollec, yaxud lisey (lukio) gəlir. Lukio bizim anlamımızda 11-12-ci siniflərdir. Fin məktəbləri mərhələli yüklənmə xəttini seçiblər, 9 il uşaqlara ən vacib və ümumi biliklər verilir. O uşaq ki, oxumağı sevir və istəyir, "lukio"nu seçir. Fikrimizcə, fin təhsil sisteminin ən mühüm xətti, belə demək mümkündürsə, səddi məhz lukio və ya professional kolleclə 9-cu sinif arasından keçir.

*finland.fi* internet resursunda Finlandiya məktəblərinin 7 mühüm prinsip üzərində qurulduğu vurğulanır:

**1.** Məktəblərin, predmetin, valideynlərin, şagirdlərin, müəllimlərin BƏRABƏRLİYİ. Burada uşaqla böyüyün hüquqlarının bərabərliyini xüsusi vurğulamağa əlavə ehtiyac var.

**2.** Məktəbdə naharın, muzeylərə ekskursiya və sinifdənkənar fəaliyyətin, nəqliyyatın (məktəb 2 km-dən uzaqdırsa, uşağın arxasınca "məktəb taksisi" gəlir), dərsliklərin, bütün dərs ləvazimatlarının PULSUZ olması.

**3.** FƏRDİLİK. Uşaqlara personal yanaşma mövcuddur, bir dərs vaxtı fərqli uşaqlara fərqli çalışmalar verilə bilər. Getdikcə bu çalışmalar mürəkkəbləşir, əgər uşaq onun öhdəsindən gəlmirsə, müəllim ona kömək edir.

**4.** PRAKTİKLİK. Finlandiya müəllimləri deyirlər: "Biz ya həyata hazırlaşdırırıq, ya da imtahanlara. Biz birincini seçirik". Fin məktəblərində imtahan yoxdur. Yalnız bir test var, o da orta məktəbi bitirəndə. Özü də nəticə o qədər də önəmli deyil. Prinsip budur: nə var, yaxşıdır!

**5.** ETİMAD. Uşaqlar dərsdə azaddırlar. Əgər tutaq ki, ədəbiyyat dərsində hansısa tədris filminə baxılır və bu, uşaq üçün maraqlı deyilsə, açıb kitabını oxuya bilər.

**6.** KÖNÜLLÜLÜK. Kim istəyir, o da oxuyur. Uşağın dərsə marağı yoxdursa, hansısa praktiki işə maraq oyadılır. Finlər deyir: "Hər kəs təyyarə düzəltməyəcək ki, avtobus sürmək istəyənlər də var".

**7.** MÜSTƏQİLLİK. Finlandiyada hesab edirlər ki, məktəbin əsas vəzifəsi uşağı müstəqil həyata öyrətməkdir. Hər şey onsuz da kitabda var. Uşağı internetdən, kompüterdən istifadəyə öyrətmək, cari problemlərin həllinə hazırlamaq lazımdır. Yeri gəlmişkən, müəllimlər uşaqlar arasındakı münaqişələrə də müdaxilə etmirlər. Həlli uşaqlar özləri tapmalıdırlar.

### Bacarmırsan, öyrədərik. İstəmirsən, sənin problemindir

Finlandiyada müəllimin uşağa nəyi öyrədəcəyinə dair səhih planı var, ancaq bunu necə edəcək, artıq öz seçimidir. Tutaq ki, predmetlərin kombinasiyalı tədrisi yolunu götürək. Məsələn, tarix dərsinə aid mövzu: Çaldıran döyüşü. Bu mövzu sırf tarix dərsinin müzakirə obyekti olmur. Döyüş və onun nəticəsindən doğan tarixi, iqtisadi, mədəni və s. məqamlar diskussiya obyektinə çevrilir. Uşaq isə öz istədiyini "götürür". Bir dərsdə təbiətşünaslıq ədəbiyyat və ana dili ilə, riyaziyyat isə incəsənətlə araşdırma mövzusu ola bilər.

Sovetlərdə "Bacarmırsan, öyrədərik. İstəmirsən, məcbur edərik", yaxud Amerikada "Bacarmırsan, sənin problemindir. İstəmirsən, o da sənin problemindir" şüarları Finlandiyada aşağıdakı kimidir: "Bacarmırsan, öyrədərik. İstəmirsən, öz problemindir".

Fin məktəblərindən söz düşərkən, ayrıca olaraq xarici dil tədrisinə fikir vermək lazımdır. Finlandiya məktəbliləri əsl poliqlotdurlar. Təsadüfi deyil ki, Finlandiya dünyada ən yaxşı ingilis dilində danışan 7 ölkədən biridir. Beləliklə, xarici dili 3-cü sinifdən öyrətməyə başlayırlar. Hər bir uşaq istədiyi dili özü seçə bilər (ingilis, fransız, alman), ancaq bunun üçün 12 nəfərdən ibarət qrup formalaşmalıdır. Əgər seçilən dil qeyri-ingilis dilidirsə, 4-cü sinifdə bu dil artıq məcburi olaraq keçilir. Bir çox direktor hesab edir ki, ingilis dili ikinci ana dilidir. Hətta üçüncü. Çünki Finlandiya əhalisinin 6 faizi isveçli olduğundan, İsveç dili də ana dili statusuna malikdir. 8-ci sinifdə uşaq daha bir dil seçməlidir. Bu, adətən, ispan, rus və ya çincə olur. Bununla da uşaq orta məktəbi poliqlot kimi bitirir: iki ana və 3 xarici dil. Ekspertlərin fikrincə, fin məktəblilərinin xarici dil qavramalarında televiziyanın da mühüm rolu var. Belə ki, proqram və filmlər heç bir dublyaja məruz qalmırlar: hansı dildə çəkiliblər, o dildə də nümayiş etdirilirlər.

### Finlərə çoxlu Eynşteyn lazım deyil

İstənilən təhsil sistemi mövcud və parçası olduğu cəmiyyətin məqsədlərinə xidmət etməlidir. Finlandiyada isə sistem olduqca praqmatikdir: ehtiyacı olmayan nəyəsə pul xərcləməyi sevmir. Təhsil haqqında media-layihə "Newtonew" qeyd edir ki, Finlandiyada hamını Eynşteyn etməyə ehtiyac yoxdur, məqsəd uşağı professional həyata hazırlamaqdır. Yüksək səviyyəli mütəxəssislər - həkimlər, hüquqşünaslar, alimlər məhdud və tələb olunan sayda olmalıdırlar. Xəzinədarlara, satıcılara, təmizlik işçilərinə, tibb bacıları və santexniklərə isə postindustrial cəmiyyətlərdə daha çox ehtiyac var. Bu peşələrsiz sivil cəmiyyətin özü də tezliklə insani simasını itirmiş olar.

Sosiumun yaşaması üçün rəngarənglik lazımdır. Onu təmin etmək üçünsə, hamının ali təhsilə malik olması vacib deyil. Möhkəm intellektual, orta səviyyə və savadlı humanist dəyərlər daha önəmlidir. Daha çoxunu əldə etmək üçün daha böyük potensial və istək olmalıdır. Finlandiya təhsil sistemi də məhz bunu təmin edir.

Sonda daha bir vacib məqama toxunaq. Bəzi mənbələrin verdiyi məlumata görə, qonşu Türkmənistan təhsil sistemini qurarkən Finlandiya modelinə önəm verir. Ancaq bu, özünü doğruldacaq, ya yox, zaman göstərməlidir. Axı bir mentalitet amili də var. Hər halda istənilən sistem və ya proqram gec-tez öz məhsulunu verməlidir: Yaponiyada uşaqları o qədər "yükləyirlər", demək olar ki, tətil üçün vaxt qalmır. Ancaq Yaponiya texnologiya nouhauları sahəsində dünyanın ən qabaqcıl ölkələrindən biridir...

# Magistr olmaq istəyən tələbələr üçün böyük imkan

Azərbaycan Texniki Universitetində (AzTU) magistraturaya hazırlaşan tələbələr və onların hazırlığı ilə məşğul olan professor-müəllim heyətilə görüş keçirilib. Görüşdə AzTU-nun rektor əvəzi Xalıq Yahudov universitetdə magistrlər üçün yaradılan hazırlıq kurslarından danışıb. Rektor əvəzi bildirib ki, universitetin təşkil etdiyi kurslarda təmənnasız olaraq hazırlaşan həmin tələbələrin 87%-i magistratura imtahanının birinci mərhələsini keçməyə müvəffəq olub.

Dövlət İmtahan Mərkəzindən (DİM) universitetə təqdim olunan nəticələrdə göstərilir ki, AzTU-dakı kurslarda hazırlaşan və imtahan verən 567 tələbədən 496-sı müsabiqənin I mərhələsini keçib.

Universitetdə bu il ilk dəfə olaraq müsabiqənin II mərhələsi üçün də hazırlıqlar həyata keçiriləcək. Bunun üçün artıq müvafiq kafedralara tapşırıq verilib ki, magistratura imtahanlarının növbəti mərhələsinə kimi I mərhələdə keçid balını toplayan tələbələrlə iş aparılsın.

Görüşdə o da qeyd olunub ki, I mərhələyə hazırlıqda olduğu kimi II mərhələyə hazırlıq prosesində də tələbələrin bilik səviyyəsinin müəyyən edilməsi üçün bir neçə dəfə diaqnostik qiymətləndirmə aparılacaq.

# Azərbaycan dövləti işğalla heç zaman barışmayacaq

Elitar Gimnaziyada "Aprel zəfəri" adlı tədbir keçirilib




Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə vətənpərvərlik və hərb tarixinin yeniyetmələr arasında təbliğ edilməsi istiqamətində silsilə tədbirlər keçirilir.

Vətənpərvərlik tədbirlərinin davamı olaraq, Nəsimi rayonu İlyas Əfəndiyev adına Elitar Gimnaziyada aprel döyüşlərində şəhid olmuş əsgərlərin xatirəsinə həsr edilmiş "Aprel zəfəri" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın direktoru Sevda Quliyeva aprel döyüşləri zamanı Azərbaycan Ordusunun cəsarətindən, qəhrəmanlığından danışıb.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi Hacı Şahin Həsənli bildirib ki, 2016-cı ilin aprel döyüşləri Milli Ordumuzun hərbçiləri şəhidlik zirvəsinə yüksələrək öz canları və qanları hesabına hər birimizə çoxdan gözlədiyimiz qələbənin yollarını göstəriblər.

Elitar Gimnaziyanın valideyni olmuş şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı Nəcibə Axundova və şəhid mayor Rasim Məmmədovun qardaşı Aslan Məmmədov qeyd ediblər ki, bu döyüşlərdə qəhrəmancasına şəhid olan əsgər və zabitlərimiz Vətən torpaqlarının hər bir qarışının nə qədər əziz olduğunu öz canları və qanları hesabına bir daha sübut ediblər.

Tədbirdə millət vəkili, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı, Azərbaycan Hərb Tarixi Muzeyinin direktoru, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə və digər qonaqlar çıxış edərək bildiriblər ki, Azərbaycan dövləti bir daha bütün dünyaya işğalla heç zaman barışmayacağını nümayiş etdirib. Azərbaycan Ordusu lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir. Çünki Azərbaycan Ordusu bu gün qüdrətli, lazımi müasir silah və texnika ilə tam təmin olunmuş ordudur.

Daha sonra qonaqlar Elitar Gimnaziyanın şagirdlərinin vətənpərvərlik mövzusunda hazırladıqları səhnəciyə və Müdafiə Nazirliyinin Mərkəzi Zabitlər Evinin mahnı və rəqs ansamblının solistlərinin ifasında kompozisiyaya tamaşa ediblər.

# Bakı İdarəetmə və Texnologiya Kollecində Pedaqoji Şura toplandı

Bakı İdarəetmə və Texnologiya Kollecində Pedaqoji Şuranın iclası keçirilib. İclasda 2016/2017-ci tədris ilində görülən işlər müzakirə edilib. Kollecin Tədris Metodik Şurasının sədri Firudin Nəsirov fənn komissiyalarında görülən işlər və fənn proqramlarının vəziyyətinə dair hesabat verib. Hesabatında bildirib ki, tədris ilinin əvvəlində kollec üzrə 14 fənn birləşmə komissiyası (FBK) yaradılıb. Kredit sistemi ilə təhsil alan qrup tələbələri üçün sərbəst işlər vaxtında tərtib edilib və FBK sədrləri tərəfindən təsdiqlənib. "Açıq dərs"lər tərtib və təsdiq edilmiş qrafik üzrə aparılıb. Hər bir müəllim metodiki işlər hazırlayıb və şuraya təqdim edib. İndiyə qədər 116 proqramın elektron variantı hazırlanaraq tədris hissə müdirinə təqdim edilib.

Metodiki Kabinetin müdiri Aynurə Mahmudova hesabatında bildirib ki, tədris ilinin iş planı tutulub, "açıq dərs"lərin hər semestr üçün qrafiki hazırlanıb. Birinci yarımil üçün qrafik üzrə 21, ikinci yarımil üzrə 23 "açıq dərs" keçilib.

Tədris təcrübələrinin yekunlarından danışan tədris-istehsalat işləri üzrə direktor müavini Şakir Mikayılov istehsalat və diplomqabağı təcrübələrin təşkili vəziyyətinə toxunub. Bildirib ki, hazırda kollecin 52 qrupundan ümumilikdə 874 tələbə və 112 müəllim təcrübələrin birbaşa iştirakçısıdır. Təcrübələrin təşkili üçün 25-dən çox istehsalat müəssisəsi ilə ikitərəfli müqavilələr bağlanıb. Fevral ayından təcrübələr davam edir və iyun ayının 7-də tam başa çatacaq. Burada iştirak edən tələbələrin yekun ballarının hesablanması meyarlarını və hesabatların müdafiəsini təşkil etmək məqsədilə ayrı-ayrı ixtisaslar üzrə komissiyalar fəaliyyət göstərir. Həmin komissiyaların hesabatından bəlli olub ki, tədris təcrübəsinə gedən qrup tələbələrinin davamiyyəti 96,5 faiz təşkil edib. Yəni, 641 nəfərdən cəmi 23 tələbə nəzərdə tutulmuş qaib limitini xeyli aşıb. Ş.Mikayılov pedaqoji ixtisaslar üzrə 137 tələbədən cəmi 2 nəfərin qeyri-müvəffəq qiymət aldığını, onların da akademik məzuniyyət üçün müraciət etdiyini diqqətə çatdırıb.

İclasda tədris hissə müdiri Təranə Məmmədovanın, tərbiyə işləri üzrə direktor müavini Xalid Məcidovun, tədris işləri üzrə direktor müavini Nofəl Nəbiyevin hesabatları da dinlənilib.

# “Sən supersən!”

İSTEDAD



*Pərvanə ALCANOVA, Beynəlxalq musiqi yarışmasının iştirakçısı:*

## “Həyat mənim üçün yenidən başlayır”

**Sifai SƏFƏROVA**

Sputnik Azərbaycan İnformasiya Agentliyi və Radiosu 2016-cı ilin noyabrından 2017-ci ilin yanvar ayına kimi Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanda “Sən supersən!” müsabiqəsində iştirak edəcək uşaqların seçimini edib. Seçim müsabiqəyə yalnız ölkənin müxtəlif bölgələrini təmsil edən, valideyn himayəsindən məhrum olmuş 7-18 yaş arasında 37 uşaq və yeniyetmə cəlb olunub. Nəhayət, sonuncu mərhələdə qalib gələn uşaqların ifalarının səs yazıları hazırlanaraq Moskvaya göndərilib. Təqdim edilmiş 37 ifadan 11-i növbəti mərhələyə buraxılıb. “Sən supersən!” müsabiqəsində Azərbaycanı təmsil edən 17 yaşlı Pərvanə Alcanova və 12 yaşlı Xoşqədəm Mehdiyeva da seçilənlər sırasında olublar.

Beləliklə, SOS Uşaq Kəndləri - Azərbaycanın Xətai filialının on yeddi yaşlı yetirməsi olan Pərvanə Alcanova da Rusiyanın NTV telekanalı və Sputnik Beynəlxalq İnformasiya Agentliyinin və Radiosunun birgə layihəsi olan “Sən supersən!” beynəlxalq musiqi yarışmasına qatılıb. Fevralın 11-də start verilən layihədə Rusiya və digər MDB ölkələrinin uşaq evlərində, internat məktəblərində tərbiyə olunan, qəyyumluğa götürülmüş istedadlı uşaqlar iştirak ediblər. Müsabiqə çərçivəsində iştirakçılarla peşəkar vokal müəllimləri məşğul olub. Sevindirici hal bu idi ki, “Bakı SOS Uşaq Kəndləri”nin yetirməsinin qeyri-adi ifası daha çox yadda qalıb.

Müsabiqə haqqında söylənilən xoş sözləri istedadlı qızın öz dilindən eşitmək arzusu ilə onun təhsil aldığı Bakı Humanitar Kollecinə yollandım. Günün ikinci yarısı olduğundan tələbələr yavaş-yavaş auditoriyaları tərk edirdilər. Kimlərsə kitabxanaya, kimlərsə də evə tələsirdi. Bəzi otaqlarda hansısa mövzuların müzakirəsi eşidilirdi. Dəhlizdə dayanıb mehribancasına söhbət edən tələbə qızlara yaxınlaşıb salamlaşdım və onların arasında olan qarayanız, gülərüz bir qızla - Pərvanə ilə görüşüb söhbət etmək istədiyimi bildirdim. Bəli, NTV telekanalında gördüyüm qız bax, bu idi, utancaq, tərbiyəli, əxlaqlı qız.

Qəzetimizin növbəti nömrəsi üçün onun haqqında yazı hazırlamaq istədiyimi bildirdim. Öncə Pərvanə tutuldu. Utancaq tərzdə, - bu vacibdirmi? - söylədi. Mən bunun olduqca vacib olduğunu söyləyəndən sonra isə tərəddüd etmədən razılıq verdi. Sanki verəcəyim sualları baxışlarımdan oxuyubmuş kimi qeyri-adi fitri istedad sahibi olan bu qız özü haqda oxucularımız üçün maraqlı olacaq faktları açıqladı:

### “3 yaşımdan Bakı SOS Uşaq Kəndində yaşamışam”

- 3 yaşından Bakı SOS Uşaq Kəndində yaşamışam. İnternatdan fərqli olaraq burada uşaqların bacı-qardaşları, anası və xalası olur. Hər evdə 6-7 uşaq yaşayır. Günlərimiz çox mənalı keçirdi. SOS Uşaq Kəndində uşaqlar üçün hər cür şərait yaradılıb. Orada uşaqlar asudə vaxtlarını səmərəli keçirirdilər, tez-tez rəqs, mahnı, məzhəkəli oyunlar kimi proqramlar, konsertlər təşkil olunurdu. Biz otaqda 7 nəfər qalırdıq. Çox mehriban olmuşduq. Aramızda heç vaxt ayrı-seçkilik yaşanmazdı. Orada bizə çox yaxşı baxırdılar. Anam Qəmər Şirəliyevanı lap çox istəyirəm. Hər gün o, məni dərsə yola salar, evə gələrkən gülərüzlə qarşılar, sonra isə nahar yeməyinə oturardıq. 257 nömrəli tam orta məktəbdə oxuyurdum. Dərslərimi hazırlamaqda anam mənə köməyini heç vaxt əsirgəmirdi. İstəyirdi ki, vaxtımdan səmərəli istifadə edim. Hər axşam isə öyüd-nəsihətlərini məhəbbətlə dinləyirdim. Heç vaxt anamın əziyyətini itirmərəm, mənə əsl ana qayğısı, ana nəvazişi göstərib, həmişə yaxşı oxumağımı istəyib. Hətta yay tətili zamanı onunla birlikdə Qubada istirahətdə olmuşuq. İllər ötür, mən böyüyürəm, anam isə yaşa dolur, saçlarına dən düşür, qocalır, bu məni çox kövrəldir. Mən də ona dəstək olmağa çalışıram, onu görmək üçün tez-tez SOS Uşaq Kəndinə gedirəm. Orada yaşayan oğlanlar və qızlar mənim bacı-qardaşımdır. Axı, 15 il bir yerdə yaşamışıq, dərdimiz-sərimiz bir olub. Onların hamısı ilə görüşüb həmsöhbət oluram.

Hazırda isə Gənclər Evində yaşayıram. Burada da şərait ürəkaçandır. Normal yaşayışımız və istirahətimiz tam təmin olunub. Rəhbərlik və bütün işçilər tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşuq.

### “Uşaqlıqdan incəsənətə meyilli olmuşam”

SOS Uşaq Kəndində rəqs dərnəyi fəaliyyət göstərirdi, həftədə üç dəfə rəqslə məşğul olurdum. Uşaqlıqdan incəsənətə meyilli olmuşam, aktyorluq sənətinə böyük marağım olub. IX sinfi bitirib imtahanlardan müvəffəq qiymətlər aldım və hazırda gördüyünüz kimi Bakı Humanitar Kollecində kitabxana informasiya təminatı ixtisası üzrə təhsil alıram. Kollecdə də müəllimlərim çox mehriban və səmimidirlər. Sağ olsunlar, mənə diqqət göstərirlər. İmtahan sessiyalarında heç bir problemim olmur. Müəllimlərimin etimadını doğrultmaq üçün mən də səylə çalışıram.

### “Müsabiqədə özümü sınadım və uğur qazandım”

Türk melodiyalarını çox sevirəm. Vokalla xüsusi olaraq məşğul olmamışam. Yalnız güzgü qarşısında özüm və ya rəfiqələrim üçün mahnılar ifa etmişəm. Mən Rusiyanın NTV telekanalının və Sputnik Beynəlxalq İnformasiya Agentliyinin və Radiosunun birgə layihəsi olan “Sən supersən!” beynəlxalq müsabiqəsində özümü sınadım və uğur qazandım. Azərbaycanı müsabiqədə paytaxtımızdan mən və Gəncə şəhərindən Xoşqədəm Mehdiyeva təmsil edirdi. Müsabiqədə o, “Buludlar” mahnısını ifa etdi. Onun çıxışı həm münsifləri, həm də tamaşaçıları heyran etdi.

### “Musiqi karyeramı davam etdirəcəyəm”

...İlk çıxışım fevralın 18-də baş tutdu. “Ana” mahnısını ifa etdim və II tura vəsiqə qazandım. II turda isə “Gəl, ey səhər” mahnısını oxudum və alqışlarla qarşılandım. Mənim ifam tamaşaçılarda xoş əhval-ruhiyyə yaratmışdı. Sevincimin həddi-hüdudu yox idi. Yeri gəlmişkən, qeyd edim ki, səhnəyə çıxanda növbəti tura çıxacağımı bilməzdim, yaxud vətənə qayıdacağımı bilmirdim. Mənim üçün musiqi yarışmasında iştirak etmək özü uğur qazanmaq idi. Amma layihəni tərk etdiyimə təəssüfləndim, çoxlu dostlarım vardı, onlardan ayrılmaq mənə çətin idi. Nəticəyə görə də pis olmuram, çünki həyat mənim üçün yenidən başlayır. Böyük uğurlarım qarşıdadır. Söz vermişəm ki, musiqi karyeramı davam etdirim. Çünki musiqi mənim həyatımdır. Musiqisiz yaşaya bilmərəm. O mənə ruh verir. Müsabiqədə yaşadığım anlar yaddaşımdan heç vaxt silinməyəcək. “Avroviziya-2011” müsabiqəsinin qalibi Eldar Qasımov xoş arzularını bildirərək, rəhbərlik etdiyi vokal məktəbdə oxumaq imkanı verən sertifikatı hədiyyə olaraq mənə təqdim etdikdə çox məmnun oldum. Mənə göstərilən etimadı doğrultmaq üçün daha çox çalışacağam.




**İllər ötür, mən böyüyürəm, anam isə yaşa dolur, saçlarına dən düşür, qocalır, bu məni çox kövrəldir. Mən də ona dəstək olmağa çalışıram, onu görmək üçün tez-tez SOS Uşaq Kəndinə gedirəm.**



**Böyük uğurlarım qarşıdadır. Söz vermişəm ki, musiqi karyeramı davam etdirim. Çünki musiqi mənim həyatımdır. Musiqisiz yaşaya bilmərəm. O mənə ruh verir.**

### “Ana haqqında uğurlu mahnı seçməsi və gözəl ifası könülləri fəth etdi”

*Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri, dünya şöhrətli bəstəkar və müğənni Polad Bülbüloğlu Pərvanənin ifasını belə dəyərləndirib:*

- Pərvanə Alcanovanın 17 yaşı var. O, güclü səs diapazonuna və fitri istedada malikdir. Onun ana haqqında uğurlu mahnı seçməsi və gözəl ifası bütün könülləri fəth etdi. Rusiyanın NTV telekanalında yayımlanan “Sən supersən!” musiqi yarışmasında “Ana” mahnısı ilə Azərbaycanı təmsil etməsi çox doğru addımdır. Ona uğurlar arzulayıram.

...Musiqi yarışmasından sonra səfir rus dilini bilməyən Pərvanənin telekanala verdiyi müsahibəni auditoriyaya tərcümə edib. Aparıcı bu məqamda - artıq layihədə hamı maraqlanır ki, bu yaraşıqlı və gözəl qız kimdir ki, ona məhz Polad Bülbüloğlu tərcüməçilik edir, - deyə, zarafat edir. Səfirsə bu zarafata özünəməxsus tərzdə maraqlı cavab verib: “Bunun üçün gözəl səsi olan azərbaycanlı olmaq gərəkdir”.

### “Artıq o, kollecin fəxridir”

*Afaq Əsgərova, Mədəni-maarif şöbəsinin müdiri:*

- Eşidəndə ki, Pərvanə “Sən supersən!” musiqi yarışmasına qatılıb, çox sevindik. Onu rəhbərlik, pedaqoji kollektivimiz, tələbələr təbrik etdilər və xoş arzularını bildirdilər. Pərvanə kollecdə hər cür diqqət və qayğı ilə əhatə olunub. Sakit təbiətli, mehriban və nizam-intizama riayət edən tələbədir. “Buta” rəqs qrupunun üzvüdür. Milli və dünya rəqslərini məharətlə ifa edir. Çoxlu sayda diplom və fəxri fərmanları var. İstedadlar məhz belə müsabiqələr zamanı aşkarlanır. Artıq o, kollecin fəxridir, onu qarşıda yeni-yeni nailiyyətlər gözləyir.

### “Pərvanə uğurları ilə hamımızı sevindirəcək”

*Könül Əliyeva, ixtisas müəllimi:*

- Pərvanə Binəqədi rayonunda keçirilən tədbirlərdə həmişə öz ifası ilə hamını heyrətləndirir. “Sən supersən!” musiqi yarışmasında iştirakı isə xüsusilə qürurvericidir. Onun gözəl ifası, xarici görünüşü və gözəl səsi var. Məlahətli səsə malik olan Pərvanə özünü səhnədə inamla apardı. Oxuduğu mahnının əzəmətini hiss etdi. Həmin gün NTV telekanalında səsləndirdiyi “Ana” mahnısı məni, o cümlədən bütün tamaşaçıları kövrəltdi. O, mahnını sonadək qüsursuz ifa etdi və bu müsabiqə ərəfəsində ən parlaq, yaddaqalan nömrələrdən biri oldu. İnanıram ki, Pərvanə beynəlxalq festival və müsabiqələrdə ölkəmizi layiqincə təmsil edəcək və uğurları ilə hamımızı sevindirəcək.

### Onun parlaq gələcəyinə Günəşin varlığına inandığım qədər əminəm

*Pedaqoji şöbənin müdiri Talıb Zülfiyev:*

- Ümumiyyətlə, bu təhsil ocağında bütün tələbələrə məhəbbət aşılanır, heç kim də diqqətdən kənarda qalmır. Biz, necə deyərlər, bir ailə şəraitində fəaliyyət göstəririk. Burada kimsə doğma, kimsə ögey ola bilməz. Pərvanə isə öz istiqanlılığı, çalışqanlığı ilə tələbə yoldaşlarından fərqli istedad və bacarığı ilə hamımızın sirdaşına çevrilib. Az-az tələbə tapılar ki, təhsil aldığı məkanda bu qədər tanınsın, eyni zamanda hamı da onu sevsin - tələbə yoldaşları da, müəllimləri də. Bax, Pərvanə belə xoşbəxt tələbələrimizdəndir. Onun parlaq gələcəyinə Günəşin varlığına inandığım qədər əminəm.

Talıb müəllimin Pərvanə haqqında söylədiyi “Onun parlaq gələcəyinə Günəşin varlığına inandığım qədər əminəm” ifadəsi bu yazının son cümləsi deyil, Pərvanənin gələcəyi haqqında ümid dolu ilk nida oldu, sevinc, ümid dolu bir nida...

*Materialda Sputnik və NTV telekanalının şəkillərindən istifadə olunub*

XARİCDƏ TƏHSİL

# "İsveçdə doktorantın iş günü əsasən klinikalarda keçir"

*İsveç Krallığı Karolinsk İnstitutunun doktorantı Pərviz Məmmədzadə Azərbaycanda elmi tədqiqatın inkişafına töhfə vermək istəyir*



Məmmədzadə Pərviz Vaqif oğlu 1988-ci il iyulun 7-də Zaqatalada anadan olub. Orta məktəb təhsilini rayondakı 3 nömrəli tam orta məktəbdə alıb. 2005-2007-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsində təhsil alıb. Tibb təhsilinin sonrakı 4 ilini (2007-2011) universitetlərarası müqaviləyə əsasən Türkiyə Respublikasında, İstanbul Universitetinin tibb fakültəsində davam etdirib və oradan məzun olaraq həkimlik dərəcəsi alıb. Universiteti bitirdikdən sonra, 2012-2014-cü illərdə İsveç Krallığının Karolinsk İnstitutunda göz xəstəlikləri üzrə elmi-tədqiqat işi ilə məşğul olub. 2015-ci ildən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Karolinsk İnstitutunda doktorantura təhsili alır. Evlidir, bir qızı var, həyat yoldaşı da həkimdir. P.Məmmədzadə ilə söhbətə orta məktəb illərindən başladıq.

Oruc MUSTAFAYEV

### "İlk müəllimlərimi hörmətlə anıram"

Orta məktəbdə oxuduğum illərdə, birinci sinifdən etibarən dərs əlaçısı olmuşam. Məktəb illərində daha çox fizika, kimya, riyaziyyat və biologiya fənlərinə həvəs göstərmişəm. İlk müəllimlərimi hələ də hörmətlə anıram. Onlar mənim təhsil həyatımda mühüm rol oynayıblar. İbtidai sinif müəlimim Səfiyyə xanımı çox müsbət bir insan kimi xatırlayıram. Hər bir şagirdi öz balası kimi sevərdi və ona can yandırardı. Orta təhsil illərində sinif rəhbərim Solmaz xanım ana dili və ədəbiyyat müəllimi, çox peşəkar və ədalətli bir insan kimi xatirimdə qalıb. İxtisas seçiminə gəlincə məktəb illərimin ortalarında, ixtisas olaraq nəyi seçəcəyimi dəqiq bilmirdim. Bildiyim tək şey, nə etsəm də, o işi sevərək etməyin vacibliyi idi. Valideynlərimin həkim olması ailəmizdə həkimliyə ənənəvi bir meyil yaratmışdı. Böyük qardaşım da Tibb Universitetində oxuyurdu və buna görə mən də həkimliyə üstünlük verdim.

### "10 ildən çoxdur ki, xaricdə təhsilimi davam etdirirəm"

Hələ orta məktəbdə oxuyarkən valideynlərim mənə və qardaşlarıma xarici dili öyrənməyimizi aşılayırdılar. Ailəmizdə savada və elmə dəyər verirdilər. Xaricdə təhsil almağımda valideynlərimin həm mənəvi, həm də maddi dəstəyi çox olub. Təbii ki, mən də dövlətin biz gənclərə verdiyi imkandan yararlanaraq xaricdə təhsil almaq arzumu reallaşdırmaq üçün Dövlət Proqramına müraciət etdim. Azərbaycanda istedadlı gənclərimiz çoxdur, bu proqram sayəsində onların arzusu reallaşır və istədikləri savada nail ola bilirlər. İxtisaslı gənclərimiz Azərbaycana geri dönüb, ölkədə gedən inkişaf prosesinə öz müsbət töhfəsini verirlər.

Artıq 10 ildən çoxdur ki, xaricdə təhsilimi davam etdirirəm. Ölkəmizin təhsil sistemində baş verən dəyişikliklərə gəlincə, ali məktəblərimizdə ən çox görmək istədiyim yeniliklər arasında təhsilin kompüterləşdirilməsi, internet və kitabxana xidmətlərinin elektronlaşdırılması, tələbələrimizin köhnə və əhəmiyyətsiz ədəbiyyatlarla yüklənməməsi və s. misal çəkə bilərəm.

İsveçdə doktorantın iş günü əsasən klinikalarda keçir. Boş vaxtım olanda isə onu ailəmə ayırıram, bəzən dostlarla və həmkarlarımla görüşürəm, idmanla da məşğul oluram, müxtəlif tibbi ədəbiyyat oxuyuram.

### "İsveç təhsilində müasir pedaqogika metodları tətbiq olunur"

İsveç Avropada çox sürətlə inkişaf edən və daim innovasiyalarla yeniləşən təhsil sisteminə malikdir. İsveç təhsilində müasir pedaqogika metodları tətbiq olunur. Orta məktəblərdə şagirdlərə ev tapşırığı verilmir, bütün tapşırıqlar məktəb saatı müddətində tədris prosesində həll olunur. Şagirdlər dərs saatı bitdikdən sonra evə gedib ürəkləri istədiyi kimi vaxt keçirirlər və çox savadlı bir gənc kimi formalaşırlar. Ali təhsil ocaqlarında təhsildə ən son yeniliklər tətbiq olunur. Ölkənin bütün təhsil müəssisələrində elektronlaşma və internet yüksək səviyyədədir.

Hazırda Karolinsk İnstitutunda doktorantura təhsili alıram. Karolinsk İnstitutu yalnız tibbə və tibb elmlərinə yönəlmiş yeganə universitetdir və İsveçdə tibbi təhsilin ən geniş diapazonunu təklif edir. Əsası 1810-cu ildə qoyulmuş Karolinsk İnstitutu dünyanın ən yaxşı 50, Avropanın 10 tibb universiteti sırasındadır. Hər il Nobel mükafatlarının təqdim olunduğu ali məktəb özünün ənənələri ilə məşhurdur. Qeyd etməliyəm ki, doktorantura təhsili universitet təhsilindən fərqlidir. Daha çox tətbiqi xarakter daşıyır. Elmi işimin mövzusu oftalmologiya, daha dəqiq desək, gözün torlu qişasının qan-damar xəstəliklərini əhatə edir. Göz insan bədənində nisbətən balaca orqan olmasına baxmayaraq çox mürəkkəb bir quruluşa malikdir və elmə məlum olmayan müəmmaları çoxdur.

Yaşadığım şəhərdə azərbaycanlı tələbələr azdır, buna baxmayaraq səfirliyimizin və diaspor təşkilatlarının keçirdiyi tədbirlərdə iştirak etməyə çalışıram.

### İmpakt-faktorlu jurnallarda dərc olunan azərbaycanlı tələbə

*Çox sevindirici haldır ki, Pərviz İsveçin məşhur klinikalarında aparılan ciddi elmi tədqiqatlarda iştirak edir. Onun apardığı tədqiqatların nəticələri Avropanın impakt-faktorlu jurnallarında dərc olunub. Onun bu barədə fikirləri də maraqlı və aktualdır.*

Qeyd etdiyim kimi, elmi işimin əsas mövzusu gözün torlu qişasının qan-damar xəstəliklərinin genetik və hüceyrə transplantasiyası metodları ilə müalicəsidir. Bildiyiniz kimi, yaşlı əhalidə görmə zəifliyinin və korluğun əsas səbəbi şəkərli diabet xəstəliyidir. Bu xəstəlik düzgün müalicə olunmadığında müəyyən müddət sonra bir çox digər orqanlarda olduğu kimi (ürək, böyrək, ətraf nahiyyənin sinir və damarları və s), gözdə də fəsadlar meydana gəlir. Belə ki, şəkər xəstəliyi gözün torlu qişasını qanla təchiz edən damarlarda dönməz mikro-patalogiyalara səbəb olur və bu da, öz növbəsində, torlu qişanın işığı qəbul edən və görmə prosesinin gerçəkləşməsində rol oynayan hücəyrələrinin zədələnməsinə və görmə zəifliyinə yol açır. Hazırda tətbiq olunan müalicə üsulları patalogiyanın gecikdirilməsinə və yaxud ən yaxşı halda prosesin dayandırılmasına yönəlir, zədələnmiş hüceyrələr və zəifləyən görmə aktı demək olar ki, bərpa olunmur.

Dərc etdiyim ilk elmi məqaləmdə biz torlu qişanın qan-damar hüceyrələrinin molekulyar və genetik səviyyədə xüsusiyyətlərini araşdırmışıq və patalogiya zamanı hansı genlərin və pataloji faktorların fəallaşdığını diqqətə çatdırmışıq. Bu məqalə Avropanın ən nüfuzlu oftalmologiya jurnalında çap olunub (Acta Ophthalmologica). İkinci məqaləmdə biz heyvanlar üzərində laboratoriya şəraitində süni üsulla şəkərli diabet bənzəri şərait yaradaraq gözün torlu qişasında patalogiya yaratmışıq. Sonra isə genetik transfeksiya və hüceyrə transplantasiya vasitəsilə bu patalogiyanı müalicə etmişik. Məqalə dünyanın ən nüfuzlu elmi nəşrlərindən birində (Nature Publishing Group, Scientific Reports) çap olunub. Ümid edirik ki, bu metod gələcəkdə insanlara da tətbiq oluna bilinəcək. Tədqiqatlarımız davam edir.

Sonda xaricdə təhsilin üstünlüklərindən qeyd edə bilərəm. Üstünlüklər, təbii ki, çoxdur. Misal olaraq, keyfiyyətli təhsil, xarici dillərə yiyələnmək, beynəlxalq aləmdə olmaq və yeni mədəniyyət və insanlarla tanış olmaq, şəxsiyyət olaraq daha fərqli inkişaf etmək və s. Bu mənada xaricdə təhsil almağım bütün ümidlərimi doğruldub. İstərdim ki, Azərbaycanda fəaliyyət göstərən ali təhsil ocaqları universitet tədrisinin bir hissəsi olaraq tələbələri bir neçə aylıq da olsa, xarici universitetlərə göndərsin. Bu yolla tələbələrdə elmə və xarici dilə olan həvəs daha da artar.

Gələcək planlarıma gəlincə isə, İsveçdə və Azərbaycanda elmi tədqiqat qrupu təşkil etmək, Azərbaycanda elmi tədqiqatın inkişafına töhfə verməkdir.

## YUNESKO: Universitet təhsilinə tələbat sürətlə artır

Təşkilat təhsil haqlarını aşağı salmağı tövsiyə edir

Son illərdə universitet təhsilinə tələbatın sürətlə artması müşahidə olunur. Bir çox ölkələrdə bütün arzulayanlar üçün universitetlərdə yer çatışmır, bu isə təhsil haqlarının artmasına və təhsil sahəsində bərabərsizliyin güclənməsinə yol açıb.

Bu barədə YUNESKO-nun yeni məruzəsində bildirilir. BMT-nin xəbərlər xidmətinin məlumatına əsasən, məruzə müəllifləri ölkələri təhsilin hamı üçün əlyetərliyinin təmin olunmasına nail olmağa çağırıb. Onlar xüsusilə də əhalinin zəif kateqoriyaları üçün ali təhsil haqlarını aşağı salmağı, həmçinin tələbələri çox ağır kreditlərlə yükləməməyi tövsiyə ediblər. Konkret tövsiyələrdən biri tələbə kreditləri üzrə ödəmələrin həcminin ali məktəb məzunlarının illik gəlirlərindən 15 faiz çox olmamasıdır. "Ali təhsilə tələbat artmaqda davam edir. Belə tendensiyaya reaksiya verən ölkələr ciddi tədbirlər görməlidirlər ki, ali təhsil yalnız zənginlər üçün imtiyaz deyil, abituriyentlərin müvəffəqiyyət və qabiliyyətlərindən asılı olsun",-deyə YUNESKO-nun Baş direktoru İrina Bokova bildirib.

Qeyd olunur ki, 2000-2014-cü illər ərzində universitetlərdə tələbələrin sayı ikiqat artaraq 207 milyona çatıb. Zəngin ölkələrdə gənclərin 74 faizi, kasıb ölkələrdə isə cəmi 8 faizi ali məktəblərə qəbul ola bilir. Cənubi Afrikada, məsələn, universitetlərdə bütün ağdərili uşaqların 50%-dən çoxu və yalnız hər altı nəfərdən bir qaradərili uşaq oxuyur. Çində kənd yerlərindən olan gənclərin ali məktəbə daxil olmaq şansı şəhərlilərə nisbətən 7 dəfə azdır.

YUNESKO bu cür ədalətsizliyə son qoymağa və ali təhsilin hamı üçün əlyetərliyinin təmin olunmasına çağırır.

## Özbəkistan ali təhsil sistemində islahatlar başlayır



### 350 müəllim və mütəxəssis dəvət olunacaq

Özbəkistanda 2017- 2021-ci illər üzrə milli ali təhsil sisteminin kompleks inkişafı proqramı təsdiq edilib. Sənəddə qeyd edilir ki, nəzərdə tutulmuş islahatların hədəfi respublikanın ictimai-iqtisadi inkişafının prioritet məsələlərinə uyğun olaraq kadrların hazırlanması prosesinə yenidən baxılması, ali təhsil sisteminin kökündən təkmilləşdirilməsidir. Bundan başqa, beynəlxalq standartlar səviyyəsində mütəxəssis hazırlığını həyata keçirmək üçün zəruri şəraitin təmin edilməsi nəzərdə tutulur. İslahatlar ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, modernləşdirilməsi və onların müasir informasiya-kommunikasiya texnologiyaları, elmi-tədris laboratoriyaları ilə yeniləşdirilməsini ehtiva edir. Proqrama uyğun olaraq, hər il ən azı 350 xarici müəllim və yüksək ixtisaslı mütəxəssislərin Özbəkistanın ali təhsil müəssisələrinə cəlb olunması nəzərdə tutulur. Elmin və milli iqtisadiyyatın real sektorunun inteqrasiyası məqsədilə təhsil və elmi-tədqiqat təşkilatları bir sıra gömrük və vergi güzəşti əldə edəcəklər. Təhsilin keyfiyyətinə səmərəli dövlət nəzarətini təmin etmək üçün keyfiyyətə nəzarət üzrə Dövlət müfəttişliyi yaradılacaq.

## Çində ali məktəb məzunlarının sayı rekord həddə çatıb



### 8 milyondan çox tələbə məzun olacaq

2017-ci ildə Çin universitetlərindən 8 milyondan çox tələbə məzun olacaq. Bu, Çin üçün inanılmaz rəqəmdir. Builki məzunların sayı 1997-ci il məzunlarının sayından 10 dəfə çoxdur. ABŞ-da məzun olanların sayı isə bu rəqəmdən 2 dəfə azdır. Çin ali təhsilinin spesifik xüsusiyyəti ondadır ki, yalnız texniki və təbiətşünaslıq ixtisaslarının məzunları iş tapa bilirlər. Qeyd olunur ki, Çində 1997-ci ilə qədər ali təhsil yalnız şəhər ailələrindən olan vətəndaşlar arasında geniş yayılıb. Lakin Çin hökumətinin 1999-cu ildə universitet təhsilinin gücləndirilməsi barədə xüsusi proqram qəbil etməsindən sonra ali məktəbə axışan gənclərin sayı ildən-ilə artıb. Son 15 il ərzində artım tempi 50 faiz təşkil edib. Bu isə əmək bazarının tələblərinə uyğun kadr hazırlığını təmin edib.

**Oruc MUSTAFAYEV,**
*xarici mətbuat materialları əsasında*

# Görkəmli oftalmoloq alimin xatirəsinə musiqi çələngi

*Onu Milli Konservatoriyanın nəzdində Musiqi Kollecinin tələbələri ərməğan edib*

**Yusif ƏLİYEV**

Bəzən deyirlər ki, bizim həyatdan gedən müqtədir ifaçılarımızı, tar, kaman, qarmon, qaboy ustalarımızı əvəz edən, onlar kimi sənətinin zirvəsinə ucalanlar daha çətin ola. Habillər, əhsənlər, zakirlər bir də çətin yetişə. Əlbəttə, belə deyil. Və bunun belə olmadığına əminlik üçün elə bircə dəfə Milli Konservatoriya nəzdində Musiqi Kolleci tələbələrinin konsertində iştirak etmək kifayətdir. Kollecin müxtəlif kurslarında oxuyan istedadlı tələbələrin ifalarını elə bircə dəfə dinləmək bəs edər ki, onların gələcəkdə sənətimizin habilləri, əhsənləri, zakirləri olacağına inanasan. Əminəm ki, kollecin say-seçmə tələbələrinin aprelin 26-da Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında verdikləri növbəti konsertin zaldolusu dinləyici - tamaşaçıları da elə bu fikirdə olarlar.

Nəsimi Rayon İcra Hakimiyyəti ilə Musiqi Kollecinin birgə təşəbbüs və təşkilatçılığı ilə keçirilən konsert görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuşdu. Konsertdən öncə təşkilatçı qurumların rəhbərləri söz söylədilər.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov akademik Zərifə Əliyevanın həyat yolundan, alim, həkim kimi xalqımız, dövlətimiz qarşısındakı xidmətlərindən, tibb elmimizə verdiyi töhfələrdən danışdı, ulu öndərimizə sədaqətli həyat yoldaşı və sirdaş olduğunu xatırlatdı. Dedi ki, xalqımız özünün görkəmli alim qızının xatirəsini daim əziz tutur, anadan olmasının ildönümlərində ölkənin hər yerində, eləcə də rəhbəri olduğu rayonda silsilə tədbirlərlə yad edilir. Asif Əsgərov son günlər rayonun bir neçə tədris müəssisəsində Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş maraqlı tədbirlərdə iştirak etdiyini, həmin tədbirlərin təşkili və məzmunundan razı qaldığını vurğuladı. Musiqi Kolleci tələbələrinin hazırladıqları konsert proqramını da bu tədbirlər silsiləsində dəyərli halqa olduğunu qeyd etdi.

Musiqi Kollecinin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov konsert iştirakçılarını salamladı, qonaqları təqdim etdi. Keçirdikləri bir çox tədbirlərə rayon icra hakimiyyətindən dəstək aldıqlarını deyən Nazim müəllim kollecin beynəlxalq musiqi tədbirlərində uğur qazanmış tələbələrinin icra hakimiyyəti tərəfindən mükafatlandırıldığını da diqqətə çatdırdı. Professor Nazim Kazımov kolleclərinin təxminən 200 tələbəsinin qatıldığı bu konsert proqramının insanlara nur bəxş edən görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın doğum gününə həsr olunduğunu, tələbələrin tədbirə hazırlaşmasında, ümumiyyətlə, onların böyük ənənələri olan kollecdə sevib-seçdikləri sənətlərinin incəliklərinə yiyələnməsində müəllimlərin böyük rolu olduğunu bildirdi. Nəzərə çatdırdı ki, son illər kollecin məzunlarından 50 nəfərdən çoxu beynəlxalq və respublika müsabiqələrinin laureatı olmuş və hazırda kollecdə öz müəllimləri ilə çiyin-çiyinə çalışır.



Konsert kollecin simli alətlər orkestrinin çıxışı ilə başladı. Soltan Hacıbəyovun "Skertso" əsəri ifa olundu. Ardınca beynəlxalq müsabiqələr laureatı, IV kurs tələbəsi Günel Ələkbərli Asəf Zeynallının "Muğamsayağı"sını tamaşaçılara təqdim etdi. Digər bir beynəlxalq müsabiqə laureatı Kazım Nicat Fəxri əməkdar incəsənət xadimi Əlibala Rzayevin müşayiəti ilə Sevil Əliyevanın "Ana" mahnısını oxudu. Akademik Zərifə Əliyevaya həsr olunmuş mahnıda mehriban, qayğıkeş, övladları üçün günəş kimi yanan ana tərənnüm olunur. "Muğam-2017" televiziya müsabiqəsinin iştirakçısı, III kurs tələbəsi Nərgiz Nuriyevanın ifa etdiyi "Qatar təsnifi" alqışlarla qiymətləndirildi.

Konsertdə daha sonra proqrama uyğun olaraq kollecin nəfəs və zərb alətləri orkestrinin, xalq çalğı alətləri ansamblının, xor kollektivinin ifalarında bir-birindən maraqlı nömrələr tamaşaçılara təqdim olundu. Tələbələr Azərbaycan və dünya bəstəkarlarının əsərlərini özlərinə məxsus ustalıqla və məharətlə ifa etdilər. Çoxunun böyük səhnədə ilk çıxışı olan tələbələrin ifaları tamaşaçı auditoriyası tərəfindən hər dəfə alqışlarla qarşılandı. Beləcə kollec daha bir uğurlu konsert layihəsini öz tarixinə yazdı.

Sonda onu da qeyd edək ki, konsertdə kollecin müəllim və tələbə heyəti ilə yanaşı çoxlu sayda qonaq - Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Kərim Mikayılov, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Asəf Zamanov, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva, tanınmış incəsənət ustaları, media təmsilçiləri iştirak edirdilər.

# ADNSU-da maarifləndirici seminar

Aprelin 27-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə (qazanılmış immun çatışmazlığı sindromu) Mübarizə Mərkəzinin təşkilatçılığı ilə "QİÇS-lə bağlı epidemioloji vəziyyət və mübarizə tədbirləri" adlı maarifləndirici seminar keçirilib.

Seminarda iştirak edən Respublika QİÇS-lə mübarizə mərkəzinin həkimi Cavid Cahangirli tələbələrə QİÇS/HİV xəstəliyi haqqında ətraflı məlumat verib. C.Cahangirli xəstəliyin XXI əsrdə bəşəriyyətin bəlasına çevrildiyini və bu virusun insanın qanına düşəcəyi halda çox acı nəticələrə səbəb olacağını qeyd edib. Daha sonra o, HİV və QİÇS-in nədən yarandığı, bir insandan digərinə necə keçdiyi və bundan qorunma yolları ilə bağlı geniş məlumatla çıxış edib. Qeyd edilib ki, xəstəliyin profilaktikasında narkotik vasitələri qəbul etməmək, tibb müəssisələrində birdəfəlik şprislərdən və steril alətlərdən istifadə etməmək, qanla təmasda olan alətləri dərhal qaynatmaqla dezinfeksiya etmək, yoxlanmamış donor qanından istifadə etməmək, şübhəli əlaqələrdən çəkinmək, stomatoloqa gedərkən, ülgücdən istifadə edərkən və manikür vaxtı alətlərin sterilliyinə nəzarət etmək zəruridir.

Tədbirdə iştirak edən ADNSU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Ata Babayev QİÇS xəstəliyinin aktual xarakter daşıdığını və dünyada hər il minlərlə insanın bu qorxulu xəstəlikdən dünyasını dəyişdiyini bildirib. Tələbələrə bu kimi xəstəliklərdən uzaq olmağı və təhsillə yanaşı sağlamlıqlarını da diqqətdə saxlamağı tövsiyə edib.

Tədbirin sonunda istəkdən asılı olaraq tələbələr üçün İnsanın İmmun Çatışmazlığı Virusuna görə laborator testlər keçirilib.

# İstedadlı şagirdlər üçün yeni vəsait

Təhsil İnstitutu fənn olimpiadaları və müxtəlif fənn müsabiqələrinə hazırlaşan istedadlı şagirdlər üçün xüsusi vəsaitlərin buraxılışına başlayıb.

İlk belə vəsait riyaziyyat fənni üzrə Respublika fənn olimpiadalarına, beynəlxalq olimpiadalara və müxtəlif müsabiqələrə hazırlaşmaq istəyən VII-XI sinif şagirdləri üçün nəzərdə tutulub.

"Riyaziyyat" olimpiada vəsaiti ümumi təhsil müəssisələrində çalışan, riyaziyyatdan fakültativ məşğələlər aparan müəllimlər, istedadlı uşaqlarla işləyən pedaqoqlar, tələbələr, eləcə də riyaziyyat sahəsinə marağı olanlar üçün faydalıdır. Buraxılışlar əsasında çap edilməsi nəzərdə tutulan bu vəsaitdə mövzuların nəzəriyyə hissələri verilib, mürəkkəb olmayan misal və məsələlər seçilərək test formatında təqdim edilib. Bununla yanaşı hər mövzunun sonunda açıq tipli olimpiada sualları da yer alıb.

# Tədqiqat işləri müzakirə olunub

**Nazim NİFTƏLİYEV**

Mingəçevir Dövlət Universitetində mühəndislik fakültəsinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Elm və texnikanın müasir problemləri və inkişaf problemləri" mövzusunda elmi konfransı keçirilib.

Konfransı giriş sözü ilə açan universitetin rektoru Akif Hacıyev Heydər Əliyevin həyat və fəaliyyətinin maraqlı və yaddaqalan məqamlarından bəhs edib. Eyni zamanda ulu öndərin təhsilə göstərdiyi qayğıdan, Azərbaycan ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə olan diqqətindən də ətraflı söz açılıb. Heydər Əliyev demişdir: "Millətin böyüklüyü onun sayı ilə yox, intellektual potensialının gücü ilə ölçülür". Heydər Əliyev daim intellektual potensialın inkişafına diqqət göstərmiş, çoxlu sayda azərbaycanlı gəncin keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaratmışdır.

Sonra "Qlobal problemlərin həllində elmin rolu", "Yerli anesteziyaedici birləşmələrin "struktur xassə" asılılığının öyrənilməsində korresiya üsulu", "Evristika və proqnozlaşdırma", "Elektrotexnikada asinxron mühərriklərin tətbiqi problemləri və perspektivləri", "Elm və texnikanın inkişafı sənayenin inkişafının əsas amili kimi", "İnkişaf etmiş texnosfera və həyat fəaliyyətinin təhlükəsizliyi" mövzularında məruzələr dinlənilib.

# Tələbələr ingilis dilində tamaşa göstəriblər

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində ingilis dili müəllimi Rada Gözəlovanın təşəbbüsü ilə P.Traversin "Meri Poppins", M.Tvenin "Tom Soyerin macəraları əsərləri səhnələşdirilib.

Tamaşanın nümayişində kollecin rəhbərliyi, müəllim, tələbə kollektivi iştirak edib. Tələbələrin onlara tapşırılan rolları məharətlə ifa etməsi, ingilis dilində sərbəst danışmaları, mahnı oxuyub, rəqs etmələri tamaşanı maraqlı edib və onu seyr edənləri razı salıb.

Qeyd edək ki, P.Traversin nağıl qəhrəmanı olan Meri Poppins Benks ailəsində qulluq edir və Ceyn ilə Maykla nəzarət edir. O, çox danışmağı sevmir, həddən artıq sərtdir və vitrinlərdə öz əksinə tamaşa etməyi xoşlayır. Poppins əsl xanımdır və hər mənada mükəmməldir.

M.Tvenin "Tom Soyerin sərgüzəştləri" povestinin baş qəhrəmanı isə sərgüzəştləri sevən dəcəl oğlandır. Tom Poli xalanın evində yaşayır. Poli xala bacısı oğluna hirslənə bilmir, axı o yetimdir. O, yalnız bundan qorxur ki, oğlanla yumşaq rəftar etdiyi üçün gələcəkdə o, şərəfsiz insan kimi böyüyə bilər.

Tələbələr öz istedadları hesabına tamaşada baş verən hadisələri auditoriyaya məharətlə çatdırıblar.

Tamaşa zalda əyləşən müəllim və tələbə kollektivi tərəfindən maraqla qarşılanıb.

Tamaşanın sonunda kollecin direktoru Qulu Novruzov tələbələrin çıxışını bəyəndiyini qeyd edərək, onlara və müəllimləri Rada Gözəlovaya təşəkkürünü bildirib və belə tədbirlərin davamlı olmasını arzulayıb.



# Təbiət onu sevənlərindir

**Rəşad ZİYADOV**

Aprelin 25-də Bakıdakı 238 nömrəli tam orta məktəbdə ekologiya aylığı çərçivəsində "Təbiət onu sevənlərindir" adlı ədəbi-bədii kompozisiya keçirilib. Əvvəlcə tədbir iştirakçıları məktəbin birinci mərtəbəsindəki foyedə Azərbaycanın iqtisadi rayonlarına və bölgələrinə aid şagirdlərin əl işlərindən ibarət maraqlı sərgi ilə tanış olublar. Hər iqtisadi rayona və bölgəyə aid guşədə həmin yer üçün xarakterik olan məhsullar, habelə bölgəni səciyyələndirən fəaliyyət sahəsinə aid eksponatlar nümayiş olunub.

3 "a" sinif şagirdlərinin ifasında Xəzər dənizi ətrafında yaşayan türkdilli xalqların mədəniyyəti, incəsənəti, tarixi, təbii sərvətləri xatırlanıb, tamaşalar, səhnəciklər göstərilib, mahnılar səslənib və təbiətin gözəlliklərindən söz açılıb. Müxtəlif məqamlarda səslənən muğam parçaları və ifa olunan "Lalələr" rəqsi kompozisiyanı daha da rövnəqləndirib.

Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin direktoru Samirə Bəktaşi və başqaları çıxış edərək ekoloji mövzuda sərginin onlarda xoş təəssürat yaratdığını, təhsil ocağında şagird yaradıcılığına, axtarışlarına böyük fikir verildiyini bildirdilər. Konfransın əhəmiyyətini xüsusi qeyd edən qonaqlar belə tədbirlərin şagirdlərin intellektini inkişaf etdirdiyini, müəllimlərin bu işdə aparıcı rol oynadığını diqqətə çatdırıblar.

"Ekoloji pozuntular"ın acı nəticələrindən bəhs edən slaydlar nümayiş etdirildi.

Sonda məktəbin direktoru İlqar Talıbov tədbirə gələn qonaqlara təşəkkürlərini bildirərək ekologiya aylığı çərçivəsində təhsil ocağının ərazisində şagirdlərin yaxın köməkliyi ilə müxtəlif ağac növlərinin və gül kollarının əkilib becərildiyini qeyd edib.

# Filoloq-şair ilə görüş

**Aybəniz MƏMMƏDOVA**

Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Təhsil Mərkəzində dilçi, filoloq-şair Firuzə Məmmədli ilə görüş keçirilib. Tədbiri Təhsil Mərkəzinin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Həsən Bayramov açaraq şairə xanımın geniş fəlsəfi dünyagörüşə, milli və bəşəri özünüdərkə, kamil sənətkarlıq məziyyətlərinə malik söz ustası olduğundan bəhs edib, onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin kadrlar şöbəsinin rəisi Arifə Əliyeva, şair Balayar Sadıq, kulturoloq, kitabxana.net portalının rəhbəri Aydınxan Əbilov, yazıçı, publisist Nüşabə Məmmədli çıxış edərək görkəmli ziyalının elmi-publisistik və poetik yaradıcılığını təhlil ediblər.

Çıxışlar zamanı bədii, elmi, tənqidi, publisist kitabların müəllifi olan şairin "Gümüşü damla", "Yoluma bahar düşüb", "Sənin ömrün", "Yetkinlik", "Bir qarış ucalıq", "Bədii dilin estetik mənbələri", "Məni mənlə bölən dünya" kitablarında toplanmış materiallardan, eləcə də son vaxtlar 12 cilddə çap olunmuş "Seçilmiş əsərləri"ndən bəhs olunub.

Sonda şairin yaradıcılığına və şeirlərinə həsr olunmuş mahnılardan ibarət slayd nümayiş etdirilib.

# Coğrafi biliklər turizmə dair bacarıqlar formalaşdırır

**Sifai SƏFƏROVA**

Aprelin 27-də Azərbaycan Respublikası Təhsil Nazirliyi və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu ilə birgə "Gənclərin turizm bacarığının formalaşmasında coğrafi biliklərin rolu" mövzusunda "dəyirmi masa" keçirib. Gənc nəsildə səyahət, gəzinti, ekskursiya-turizmə olan marağı genişləndirmək və möhkəmləndirmək məqsədilə keçirilən tədbiri Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzinin müdir müavini Səlimə Allahverdiyeva açaraq müzakirə olunacaq mövzu barədə məlumat verib.

Sonra "Azərbaycan regionlarının dayanıqlı inkişafında turizm təsərrüfatının əmək formalaşmasına təsiri", "Azərbaycana gəlmə turizmi və onun problemləri", "Azərbaycanda turizmin müasir inkişaf problemləri", "Gənclərin turizmdə rolu", "Məktəbdənkənar və sinifdənxaric işlərdə uşaq və gənclərin formalaşmasında coğrafiya fənninin rolu", "Turizmin davamlı inkişaf problemləri", "Turizmin inkişafında coğrafiyanın rolu", "Kənd turizmi və onun Azərbaycanda inkişaf etdirilməsi yolları" mövzularında məruzələr dinlənilib.

Vurğulanıb ki, turizm bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən sektora çevrilib. Hər il minlərlə insan səyahət həvəskarları sırasına qoşulur və bu hərəkat getdikcə daha da genişlənir. Günümüzün tələblərinə uyğun olaraq bizi əhatə edən dünyanı öyrənən bütün təbiət elmlərinə, xüsusilə coğrafiya biliklərə sahib olmaq zərurəti yaranıb. Məktəb dövründə tədris olunan coğrafiya fənni ilə təməli qoyulan bu elmin faydası gündəlik həyatımızın hər bir sahəsində özünü büruzə verir. Azərbaycanda turizmin inkişafı üçün mükəmməl imkanlar mövcuddur və həmin imkanlardan kifayət qədər istifadə edilir.

Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə çıxışında ekologiya, turizm, diyarşünaslıq, yaradıcılıq yönümlü uşaqlarla işin təşkili və layihələrə cəlb olunması işinin genişləndirilməsini təklif edib. Paytaxtın ümumtəhsil məktəblərində coğrafiya fənnini tədris edən müəllimlərin bu layihəyə qoşulmasının vacibliyi vurğulanıb.

Sonda mövzu ətrafında müəllimləri maraqlandıran suallar cavablandırılıb.

# Ümumi təhsilin yol xəritəsi

## İnsan kapitalının inkişafına doğru



**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*

Artıq XXI əsrin ikinci onilliyini yaşayırıq. Müstəqil respublikamızda əldə olunan nailiyyətlərin fəaliyyətləri tənzimləyən, onun daha uğurla davam etdirilməsinə təminat verən strateji dövlət sənədlərinin meydana gəlməsi ilə şərtləndiyinin şahidi oluruq. Bu sənədlərdə Azərbaycanın bütün sahələrindəki perspektiv inkişafı göstərən cəhətlər əks olunur. Yaxın günlərdə ölkə Prezidentinin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" tamamilə zamanında qəbul olunmuş, dövlətin əvvəlki hüquqi aktlarını tamamlayan və ölkəmizin iqtisadi inkişafının hüquqi əsasını müəyyən edən konseptual bir sənəddir.

Ölkəmizin gələcək inkişafına yönəlmiş bu sənəd bütövlükdə özünün nailiyyət və məzmununa görə inkişafyönümlü əhəmiyyət daşıması ilə diqqəti cəlb edir. Müasir iqtisadi durumun analitik mənzərəsini əks etdirməklə onun perspektiv görüntülərinin şərhini verir. Qlobal dünya iqtisadiyyatının inkişafı fonunda milli potensiala istinad etməklə Azərbaycan üçün önəmli olan strateji istiqamətləri təqdim edir. Aparılan təhlillərə əsasən gəlinən qənaət ondan ibarətdir ki, üzən məzənnə rejiminin qurulması, özəlləşdirmənin həyata keçirilməsi yolu ilə dinamikliyin təmin olunması, insan kapitalının inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılmasından ibarət olun bu istiqamətlərin hər biri özlüyündə Azərbaycanın güclü iqtisadi potensialının artmasının təmin olunmasına yönəlməklə onun dünya iqtisadi məkanında özünəməxsus yer tutmasına təminat verəcəkdir.

Bu istiqamətlərin içərisində bütün fəaliyyətlərin əsasında duracaq bir məsələ kimi insan kapitalının inkişaf etdirilməsi dayanır. Doğrudur, insanın formalaşdırılması ümumilikdə cəmiyyətin problemidir və bu problemin həll olunması cəmiyyətə xas olan əksər sosial xarakterli məsələlərin aradan qaldırılmasına öz töhfəsini verir. Təhsil isə öz növbəsində cəmiyyətin inkişafına təkan verməklə onun irəliləyişlərini təmin edir. Bu mənada təhsilin sosial fenomen kimi cəmiyyətin tərəqqisindəki dəstəkverici funksiyası hər kəsə məlum olan bir təsiri bağışlayır.

Bu gün Azərbaycanın müstəqillik yolunda uğurları onun inkişaf etmiş dünya ölkələri cərgəsində adının çəkilməsinə təminat verir. Ölkədə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində sürətli irəliləyişlərin olması inkaredilməz bir fakta çevrilmişdir. Bu barədə strateji yol xəritəsində danışılmışdır. Xüsusilə ümumi təhsillə bağlı xeyli işlərin görülməsi qeyd edilmişdir. Göstərilmişdir ki, 2003-2015-ci illərdə yeni məktəb binasının tikilməsi və mövcud məktəblərin əsaslı təmiri ilə bağlı ciddi işlər görülmüşdür. Bütün bunlarla yanaşı, həm də bildirilmişdir ki, "bu müddət ərzində maddi-texniki bazanın yaxşılaşdırılmasına baxmayaraq, tədrisin keyfiyyəti dövrün tələbinə uyğun tam inkişaf etməyib".

### Pedaqoji ümumiləşdirmələrin başlanğıc nöqtəsi

Ölkənin konseptual xarakter daşıyan və təhsil sahəsində siyasətin perspektivlərini müəyyənləşdirən bu sənəddə irəli sürülmüş fikrin strateji yükü istər-istəməz fəal düşünmə mənbəyinə çevrilməklə daha çox diqqəti cəlb edir. Təhsilşünaslığın inkişafı baxımından burada iki istiqamətdə olan pedaqoji ümumiləşdirmələrin başlanğıc nöqtəsi görünür.

Onlardan birincisi, ölkəmizin təhsil sistemində təhsilin maddi-texniki bazasındakı irəliləyişlərlə bağlıdır. Son dövrlərdə ölkəmizdə təhsil müəssisələrinin inkişaf etdirilməsi, xüsusilə inteqrativ müstəvidə yeni təhsil müəssisələrinin yaradılması, təzə binaların inşa edilməsi, mövcud olan, lakin yararsız hala düşmüş təhsil ocaqlarının bərpa olunması, təmir edilərək müasir səviyyəyə çatdırılması ölkənin təhsil prioritetləri içərisində aparıcı bir kursa çevrilmişdir. Bu prosesdə maddi-texniki bazanın yaradılmasına sadəcə inşaedici bir fəaliyyət kimi deyil, təhsil prosesinin xüsusi motiv yaradan, öyrənmə resurslarını tamamlayan və onu davam etdirən bir vasitə kimi yanaşılmışdır. Belə ki, təhsil müəssisələrinin maddi-texniki və eləcə də tədris-metodik bazasının möhkəmləndirilməsi istiqamətində işlər yerinə yetirilmişdir. Yalnız 2015-ci ildə ümumilikdə Təhsil Nazirliyi tərəfindən 30 təhsil müəssisəsində əsaslı təmir işləri aparılmışdır ki, onlardan 17-si ümumtəhsil məktəbi olmuşdur. Eyni zamanda elektron dərslik portalı yaradılmış, 90-dan artıq dərslik bu portalda yerləşdirilmişdir. Bundan əlavə, *www.e-test.edu.az* elektron şagirdlərarası fənn müsabiqəsi yaradılmış və IV-IX sinifləri əhatə edən 30000 sual portalda yerləşdirilmişdir. Ümumtəhsil məktəbləri üçün nəzərdə tutulmuş dərslik komplekti zəruri resurs kimi vaxtında çap olunaraq yerlərə çatdırılmışdır. Bütün bunlar isə, öz növbəsində, təhsil müəssisələrini pedaqoji prosesin səmərəli qurulmasında zəruri komponentə çevirmişdir.

İkinci başlanğıc təhsilin keyfiyyətinin inkişaf etdirilməsi vəzifəsi ilə bağlıdır. Etiraf edək ki, təhsilin keyfiyyətinin yüksək olması müasir dünya ölkələrinin hər birini özünün milli səviyyəsində düşündürür. Həm də bu, qlobal bir düşüncənin mərkəzində dayanaraq beynəlxalq əhəmiyyət daşımaqla dünyəvi xarakterdə özünü göstərir. İstər milli və istərsə də beynəlxalq səviyyələrdə həmin cəhətləri nəzərə almaqla təhsilin keyfiyyətini inkişaf etdirmək, optimal təhsil mexanizmləri yaratmaq üçün daha səriştəli və diqqətli olmaq zəruri hesab edilir.

Burada başlıca məsələ milli və beynəlxalq səviyyələrdə şəxsiyyətin formalaşmasına yönəlmiş uyğun qiymətləndirmə mexanizmlərinin yaradılmasıdır. Belə qiymətləndirmə mexanizmlərinin yaradılması isə yerli və xarici təcrübələri öyrənən, istər ümumpedaqoji, istərsə də metodik xarakterdə araşdırmaların aparılmasına söykənən təhsilşünaslıq tədqiqatlarının təşkil olunmasını tələb edir. Artıq bir neçə ildir ki, belə tədqiqatların aparılmasına başlanılmışdır. İstər şagird nailiyyətlərinin məktəb səviyyəsində, istərsə də milli və beynəlxalq səviyyələrdə tətbiqi üzrə aparılan qimətləndirmələr təhsilin keyfiyyət səviyyəsinin izlənilməsinə yönəldilməklə humanist bir texnologiya kimi istifadə edilməkdədir. Bütün bunlarla yanaşı, hazırda bu təhsil texnologiyasının elmi-pedaqoji əsaslarının öyrənilməsinə, məzmun, forma və vasitələri hazırlamaqla onun sisteminin formalaşdırılmasına, təhsilin hər bir sahəsində tətbiqinin daha da genişləndirilməsinə ehtiyac vardır.

Təbii ki, bu tədqiqatlar xarakterinə görə həm fundamental, həm də tətbiqi ola bilər. Bütün hallarda bu tədqiqatlar ehtiyaclarımızdan doğan və tam mənasında tələbatlarımıza yönəlməklə praktik əhəmiyyət daşımalıdır. Təhsil islahatlarının daha uğurlu addımlarını təmin etməlidir.

**Müasir Azərbaycan məktəbinin mənzərəsi qlobal dünyanın tələbləri qarşısında dəyişir. Koqnitiv bir xarakter alır. Eyni zamanda özünün sosial statusunu saxlamaq üçün informasiya dövrünün çağırışlarına, beynəlxalq əlaqələrin inkişafı ilə tənzimlənən təhsil ehtiyaclarına cavab verməli olur. Bu cəhət də öz növbəsində təhsil məzmununun yenidən qurulmasını tələb edir.**

### Ümumtəhsil məktəbinin yeni mənzərəsi

Hazırkı durumumuz məktəbin, müəllimin yeni məzmun və texnologiyalarla işləməsi zərurəti ilə səciyyələnir. Burada yeni məzmun və texnologiyaların yaradılması onun pedaqoji, psixoloji, fizioloji xüsusiyyətlərinin şərh edilməsi və müəllimlər, pedaqoji işçilər tərəfindən mənimsənilməsi prioritet hesab edilir. Bu prosesdə yaradıcı pedaqoji fəaliyyətin təmin olunması üçün həm də ölkənin təhsil siyasətindəki tendensiyaların dərk olunması və onun dəstəklənməsi, praktik fəaliyyətdə rəhbər tutulması da vacib hesab edilir.

Ölkəmizin təhsil sahəsindəki perspektiv addımlarını konkretləşdirən bu yol xəritəsində təhsilin pillə və səviyyələri üzrə fəaliyyətlərdən danışılır. Hər pillənin funksiyasına uyğun vəzifələrin xəritəsi cızılır. Onların maddi-texniki, tədris-metodik, eləcə də kadr potensialının gücləndirilməsi, istedadın erkən müəyyən olunaraq inkişaf etdirilməsi, yeni təhsilvermə və təhsilalma metodologiyasının tətbiq olunması və digər innovativ yanaşmalardan bəhs olunur.

Məlum olduğu kimi, şəxsiyyətin formalaşmasında ümumi təhsil baza rolunu oynayır. Bu pillədə şəxsiyyətin qazandığı bacarıq və qabiliyyətlər həyatı boyu göstərəcəyi fəaliyyətlərinin əsasında durmaqla onu daim stimullaşdırır. Odur ki, bu pillənin formalaşdırılmasında şəxsiyyətin inkişafı mühüm didaktik əhəmiyyət daşıyır. Bir proses olaraq onun təşkilində, digər pillələrdə olduğu kimi, bu pillədə də pedaqoji kadrlar əvəzsiz rolu ilə fərqlənir. Ona görə də ümumi təhsilin yol xəritəsində keyfiyyətin yüksəldilməsi üçün pedaqoji kadr hazırlığının, tədrisin, müasir təhsilvermə və təhsilalma metodlarının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin dəstəklənməsi barədə danışılır.

Yol xəritəsində göstərildiyi kimi, ümumi təhsilin sadəcə ümumi mənzərəsi deyil, eyni zamanda, onun mahiyyət və məzmununda ciddi dəyişikliklərin aparılmasından bəhs olunur. Qeyd edilir ki, "Ümumi təhsil sistemində "yaddaş" məktəbindən "təfəkkür" məktəbinə keçidin təmin edilməsi mütərəqqi dünya təcrübəsinə əsaslanan təhsil proqramlarının (kurikulumların) hazırlanması və səmərəli tətbiqi, məktəb rəhbərlərinin, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, cəmiyyətdə müəllimin nüfuzunun yüksəldilməsi istiqamətində tədbirlər görüləcək, daha keyfiyyətli insan kapitalının formalaşdırılması üçün mövcud resurslardan səmərəli istifadə edilməsi istiqamətində islahatlar davam etdiriləcəkdir".

Yeni məktəbin mahiyyətinin əsasında onun koqnitiv xarakteri, kreativ bacarıqların formalaşmasına xidmət göstərməsi dayanır. Belə məktəbdə təhsilalanların düşüncəsinin inkişaf etməsi onların təlim uğurlarının xarakterini müəyyənləşdirir. Daha çox yaradıcı fəaliyyət şagird şəxsiyyətinin atributu kimi çıxış edir. Bütün hallarda müəllimin ölçü vahidi şagirdlərin yaradıcı təfəkkürünün hər hansı səviyyəsindən ibarət olur.

### Müasir standart və kurikulumların hazırlanması

Bütün bu fəaliyyətlərin təmin olunması üçün, ilk növbədə, yeni təhsil proqramlarının (kurikulumların) yaradılmasının vacibliyi bildirilir. Doğrudan da, təhsilin tarixi boyu uzun illərin sınağından çıxmış bir həqiqət vardır ki, təhsilin məzmunu bütöv bir təhsil sisteminin əsasında duran komponentdir. Təhsilin daha uğurlu təşkili və həyata keçirilməsi onun necəliyindən çox asılıdır. Heç təsadüfi deyildir ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) sənədində beş istiqamətdən biri (birincisi) "Səriştə əsaslı yeni təhsil məzmununun yaradılması"dır. Orada yeni təhsil məzmunu kimi yeni standart və kurikulumların hazırlanması qeyd edilmişdir.

Ümumiyyətlə, təhsilin nəticəyönümlü məzmuna keçid məsələsinin ilk dəfə zəruri olaraq müəyyənləşdirilməsi Azərbaycanda XX əsrin sonu və XXI əsrin əvvəlindəki aralıq mərhələsinin payına düşür. Göründüyü kimi, onun ciddi pedaqoji məsələ kimi qoyuluşu təhsil islahatının zəruri istiqamətlərindən biri olsa da, onun həlli sahəsində xeyli vəzifələrimiz hələ də qarşıda dayanmaqdadır. Xüsusilə Dövlət Strategiyasında qeyd olunduğu kimi, səriştə əsaslı yeni təhsil məzmununun yaradılması kimi məsul bir təhsil vəzifəsinin həyata keçirilməsi tələb olunur. Yeni təhsil məzmunu kimi standart və kurikulumların hazırlanması qeyd edilir.

Müasir standart və kurikulumların hazırlanmasına sadəcə pedaqoji məsələ kimi yanaşmaq olmaz. Onlar müxtəlif elm sahələrinin qovşağında dayanmaqla inteqrativ xarakter daşıyır. Bu sənədlərin hazırlanmasında müxtəlif elm sahələrinin ən yeni və bu gün daha çox praktik əhəmiyyət daşıyan müddəalarına istinad etmək zəruri hesab edilir. Eyni zamanda onların psixopedaqoji, fizioloji, məntiqi xüsusiyyətlərə əsasən dəyərləndirilməsi tələb olunur. Ən başlıcası standart və kurikulumların hazırlanması həm də sosial bir vəzifə kimi həyata keçirilməli, onların hazırlanmasına cəmiyyətin tələb və ehtiyaclarının yerinə yetirilməsi kimi yanaşılmalıdır. Bu gün biz bu vəzifələrin yerinə yetirilməsi istiqamətində cəhd göstərməklə ölkəmizin ikinci nəsil kurikulumlarının yaradılmasına başlamış oluruq. Təhsilin məzmununun yaradılması sahəsində qazandığımız təcrübələr göstərir ki, standart və kurikulumlardan ibarət olan yeni məzmunun yaradılması onu hazırlayanlardan tamamilə yeni bacarıqlar tələb edir. Elə bacarıqlar ki, onlar təhsilin məzmunu üzrə mütəxəssislərə cəmiyyətin milli və ümumbəşəri dəyərləri üzərində düşünməyə, onları ölkənin təhsil üzrə pillə və səviyyələrinə gətirməyə, səriştələrin tələbinə uyğun fənn və fənn bloklarını yaratmağa, optimal təklif və qiymətləndirmə, eləcə də idarəetmə strategiyaları hazırlamağa imkan verə bilsin. Həm də bir innovator kimi yenilikləri çeşidləmək, onların mahiyyət və məzmununu açıqlayan yanaşmalardan istifadə etmək işində optimal qərarlar qəbul edə bilsinlər.

12 illik təhsilə keçidin mühüm strateji məqsəd kimi qarşıda dayanması və ümumi təhsil sahəsində aparılan islahatların əsasını təşkil etməsi, ilk növbədə, onun strukturuna uyğun məzmununun yaradılmasını tələb edir. Təhsil naziri Mikayıl Cabbarovun qeyd etdiyi kimi, "Ən vacib məsələlərdən biri də 12 illik ümumi təhsilin yeni məzmun standartlarının və fənn kurikulumlarının hazırlanması və həmin sistemə keçid mexanizminin müəyyənləşdirilməsi və tətbiqi ilə bağlıdır". Bu, təhsil innovasiyaları ilə bağlı biliklərə yiyələnməyi, yeni pedaqoji tendensiyaları mənimsəməyi bir vəzifə kimi qarşıya qoyur. Eyni zamanda zəruri potensial biliklərlə yanaşı, kifayət qədər peşəkarlığın olmasını tələb edir. Əldə olunmuş təcrübələr imkan verir ki, gələcəkdə bu sahədəki fəaliyyətimizi davam etdirək, yeni nəsil standart və kurikulumların hazırlanmasında uğurlar qazanaq.

Müasir Azərbaycan məktəbinin mənzərəsi qlobal dünyanın tələbləri qarşısında dəyişir. Koqnitiv bir xarakter alır. Eyni zamanda özünün sosial statusunu saxlamaq üçün informasiya dövrünün çağırışlarına, beynəlxalq əlaqələrin inkişafı ilə tənzimlənən təhsil ehtiyaclarına cavab verməli olur. Bu cəhət də öz növbəsində təhsil məzmununun yenidən qurulmasını tələb edir.

Ölkənin iqtisadi arenasında islahatların aparılması bilavasitə insan amili ilə şərtlənir. Yeni insanın formalaşdırılması zəruri şərt kimi cəmiyyətin inkişaf platformasının əsasında dayanır. İnsan kapitalının formalaşdırılması isə özünün tam ciddiyyəti ilə təhsilin üzərinə düşür. Xüsusilə ümumi təhsil bu prosesdə aparıcı rol oynamaqla əsas pillə kimi daha çox məsuliyyət daşıyır. Çünki təhsillənmə şəxsin məktəbəqədər təhsil pilləsindən başlayaraq özünü informal olaraq inkişaf etdirməsinə qədərki bütün zamanlarda əhəmiyyətli proses olsa da, ümumi təhsil şəxsiyyətin mühüm atributu hesab edilən dəyərlərin formalaşdırılması baxımından xüsusi olaraq fərqlənir. Bu pillədə hər kəsə həyatda yaşayıb yaratmaq üçün lazım olan zəruri bilik, bacarıq və dəyərləri mənimsəməyə şərait yaradılır. Ona görə də bu pillənin həm infrastruktur, həm də məzmun cəhətdən düzgün qurulması insan kapitalının inkişaf etdirilməsi baxımından həlledici bir mərhələ hesab edilir. Strateji yol xəritəsində ümumi təhsilin inkişaf dinamikasına uyğun olaraq onun məzmunu üçün xarakterik olan bir neçə cəhətin nəzərə alınması qlobal dünyanın zəruri tələblərindən irəli gələn vəzifə kimi əsas götürülmüşdür.

Əvvəla, təhsilalanların məntiqi və tənqidi düşüncə tərzinə əsaslanan kreativ bacarıqlara yiyələnməsi əsas şərtlərdən hesab edilir. Ümumtəhsil məktəbi şagirdlərin düşüncə mədəniyyətini formalaşdıran, onlara yaradıcı olmaq, yaradıcılıq nümunələrinə həssas yanaşmaq, həyatın iqtisadi amillərini dəyərləndirə bilmək bacarıqları verməlidir.

İkinci, ümumtəhsil məktəbi bilik cəmiyyətinin ehtiyac və tələbatları qarşısında özünün vəzifələrini aydın və konkret müəyyənləşdirməli, məzmun komponentinin, eləcə də təlim prosesinin qurulmasında ona aparıcı tələb kimi yanaşılmalıdır. Müasir həyatın sosial, iqtisadi tələbatlarından irəli gələn insan amili üçün vacib səriştələri müəyyənləşdirməklə məzmununun əsasına gətirməli və fəaliyyətini həmin istiqamətlərə fokuslaşdırmalıdır.

Üçüncü, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi onun daha yaxşı, səriştəli qurulmasından asılıdır. Bu istiqamətdə son illərdə aparılan işlər hazırkı tələblər baxımından yüksək qiymətləndirilir. Müəllimlərin yeni qaydalarla işə qəbul olunması, onların diaqnostik qiymətləndirilməsi və bunun nəticəsində stimullaşdırılması, eləcə də məktəb rəhbərlərinin təlim kurslarından keçməsi və rəhbər vəzifələrə seçilməsi istiqamətində aparılan işlər təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılan uğurlu addımlardır. Və bu proses yol xəritəsində müəyyən olunmuş vəzifələr baxımından davam etməkdədir.

Nəhayət, ümumi təhsilin üçüncü səviyyəsində təmayülləşmənin aparılması da yol xəritəsində qabarıq şəkildə qeyd olunur. Onun peşə-ixtisas təhsili, gələcəkdə əmək bazarına girən gənclərin işsizlik probleminin həll olunması, Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiya olunması baxımından əhəmiyyəti qeyd edilir.

Ümumi təhsildə təmayülləşmənin aparılması, öz növbəsində, onun infrastruktur dəyişiklikləri ilə izlənməsini tələb edir. Bu həm də tam orta təhsil məktəbinin təmayüllər üzrə qurulmasını və ən başlıcası onun təşkilini bir vəzifə olaraq qarşıya qoyur.

Biz bu gün sadaladığımız fəaliyyətlərin başlanğıc mərhələsindəyik. Gələcək uğurlarımız ciddcəhdlə başladığımız işlərin keyfiyyətindən, ardıcıl və səmərəli qurulmasından asılıdır. Ümidvarıq ki, hər bir kəs Azərbaycanda ümumi təhsilin inkişaf etdirilməsində öz töhfəsini verəcəkdir.

# YUNESKO-nun "Qlobal məqsədlər" dərsləri




**METODİKA**

Birləşmiş Millətlər Təşkilatı 25 sentyabr 2015-ci il tarixində Dayanıqlı İnkişafın Qlobal Məqsədlərini qəbul edib. Bununla bağlı "Dünyanın ən böyük dərsi" (World's Largest Lesson) ideyası irəli sürülüb. Bu ideya ondan ibarət idi ki, həmin il sentyabrın 27-dən başlayaraq həftə ərzində bütün dünya üzrə məktəblərdə Qlobal məqsədlər barədə dərslər keçilsin.

"Dünyanın ən böyük dərsi" - Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin -"Dayanıqlı inkişaf naminə tərəfdaşlıq" məqsədinin mühümlüyünün canlı sübutudur.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu YUNESKO-nun Assosiativ məktəblər şəbəkəsinə üzv qurum kimi qlobal məqsədlərin təbliğinə həsr olnmuş həmin dərslərin Azərbaycan dilinə tərcüməsini və məktəblərdə təbliği missiyasını öz üzərinə götürüb. İnstitut həmin dərslərin icmallarını müəllimlərə təqdim edir. Müəllimlər öz dərslərini bu icmallar əsasında keçə bilərlər.

Dərsi müəllimlər münasib bildiyi və ya imkanı olan vaxt keçə bilər. World's Largest Lesson saytında olan materiallar dərsi keçməkdə müəllimlərə kömək edər. Müəllimlər materialları tədris üsullarına və məktəb şəraitinə uyğunlaşdırıb istifadə edə bilərlər. Materiallar 8-14 yaşlı uşaqlar üçün hazırlanıb, lakin onlar istənilən yaş qrupuna uyğunlaşdırıla bilər.

*QEYD:* Müəllimlər dərslərdə müzakirə apararkən həssas olmalı və şagirdlərin həyat təcrübəsini nəzərə almalıdır. Sinfi elə bir "təhlükəsiz" məkana çevirməlidir ki, şagirdlər qorxmadan ideyalarını və hətta həyatlarında baş vermiş hadisələri bölüşə bilsinlər. Bəzi şagirdlər müəyyən müzakirələrdə iştirak etməməyi xahiş edə bilər, onların xahişinə hörmətlə yanaşılmalıdır.

*Mövzu:* "Qlobal məqsədlərə giriş"

*Ümumi vaxt:* 30 dəq.

Mövzu geniş auditoriya, sinif və fərdi məşğələlər üçün nəzərdə tutulub.

*Təlimin nəticəsi:*

Şagirdlər Qlobal məqsədləri və bu məqsədlərin nə üçün lazım olduğunu izah edə biləcəklər.

*Hazırlıq:* İmkan daxilində "Qlobal məqsədlər"i 2-ci və ya 3-cü əlavələrlə çap edərək sinifdə görünən yerdə yerləşdirin və ya ekranda göstərin. Şagirdlərin bu məqsədlərlə bağlı təkliflərini yazması üçün lövhə hazırlayın.

*Yekun tapşırıq* - plakat üçün kvadrat formasında vərəqlər hazırlayın.

Əlavə

Qlobal məqsədlərlə bağlı əlavə məlumat almaq üçün www.globalgoals.org saytına daxil olun. Digər dərs planları və iştirak üçün isə www.globalgoals.org/worldslargestlesson saytına müraciət edin.

*Davamlı inkişaf üçün Qlobal məqsədlərə giriş.*

Giriş -10 dəq.

Şagirdlər sinfə gəlməmişdən əvvəl ictimai baxış və müzakirə üçün aşağıdakı sualları hazırlayın: "Sizcə, bizim cəmiyyətdə (ölkədə) dünyada insanlar hansı böyük problemlərlə üzləşir?" (zərurət olarsa, sualın qoyuluşunu dəyişə bilərsiniz)

Şagirdləri bu sual ətrafında başqası kimi düşünməyə sövq edin. Məsələn, deyə bilərsiniz ki, "Sən özünü prezidentin yerinə qoy və onun kimi düşün".

Cütlərlə iş formasında şagirdlər onların yaşadığı cəmiyyət, ölkə və ya dünyada yaşanan daha böyük problemləri müəyyən etməlidirlər. Daha sonra siz şagirdlərin söylədiyi bəzi fikirləri seçirsiniz. Bu fikirləri lövhədə qeyd etmək olar.

Əgər ehtiyac olarsa, əlavə 1-də qeyd olunan açar sözlərə müraciət edə bilərsiniz.

*Qlobal məqsədlər* - 5 dəq.

Şagirdlərə qlobal məqsədləri göstərin və onların qeyd etdiyi problemlərdən hansının bu məqsədlər arasında olduğunu birlikdə müəyyənləşdirin.

Böyük auditoriyalarla iş zamanı siz 17 şagird seçərək onları sinfin qarşısında arxaları sinfə doğru düzə bilərsiniz. Hər şagird əlində qlobal məqsədlərdən biri yazılan vərəq tutmalıdır. Auditoriyada əyləşən şagirdlər problemləri səsləndirdikcə həmin problemləri həll edə biləcək "Qlobal məqsəd" (yəni, əlində həmin problemin həllinə aid olan kart tutan şagird) üzünü auditoriyaya çevirməlidir.

*Qlobal məqsədləri anlama* - 10 dəq.

Şagirdlər Ken Robinsonun animasiya filmini izləyir. Filmi həm böyük ekrandan, həm də internetə girərək www.globalgoals.org/worldslargestlesson. saytından izləmək olar.

Şagirdlər həmçinin www.globalgoals.org/worldslargestlesson saytına daxil olaraq kiçik plakatlarla da tanış ola, hər şəkli mobil telefonlarına və ya planşetlərinə yükləyə bilərlər.

*Tapşırıq* -5 dəq.

Şagirdlərə "Qlobal məqsədlər mənim üçün vacibdir, ona görə ki," cümləsini tamamlamağı tapşırın. Şagirdlərin fikirlərini yazması üçün söz həddi qoyun (məsələn, 20 sözdən ibarət və s.). Sonra həmin fikirləri qəzet başlığı və ya tvit kimi @TheGlobalGoals#largestlesson ünvanına göndərin.

*Əlavə və ya alternativ yekun.* 12sm x 12sm ölçüsündə kağızdan kvadratlar hazırlayın. Həmin kvadratları şagirdlərə verin və tapşırın ki, öz yaradıcı təxəyyüllərini işə salaraq problemlərin həlli üçün fikirləri özündə əks etdirən kiçik plakatlar çəksinlər. Onlara tapşırın ki, çəkdikləri plakatlarda yazı yazmaq üçün də yer ayırsınlar və qeyd olunan problemin həlli üçün hansı qlobal məqsədə nail olmaq lazım olduğu haqqında başlıq yazsınlar. Daha sonra həmin plakatları şagirdlərdən yığın və məktəbdə bu istiqamətdə maariflənmə işlərinin aparılması üçün məktəb ictimaiyyətinə çatdırın. Həmin plakatların şəklini çəkərək, bizim The Global Goals face-səhifəmizdə paylaşın və ya tvit göndərin.

*Növbəti layihə:*

www.dfcworld.com saytına daxil olun və şagirdlərdə baş verən dəyişiklikləri bizimlə paylaşın. İcmamızda FİDS modelindən istifadə edərək öz şəxsi qrup layihənizi yaradın və uğurlarınızı bizimlə bölüşün. www.dfcworld.com.

Əlavə 1.

*İnsanlığın aktual problemləri (əgər zərurət yaranarsa, açar söz kimi aşağıdakılardan istifadə edə bilərsiniz).*

* Kasıblıq

* Ölkələr arası tarazlığın pozulması

* Aclıq

* Zəifləmiş sağlamlıq və xəstəliklər

* Çirkli su

* Anti-sanitariya

* Təhsilin aşağı səviyyədə olması - bəzi uşaqların məktəbə gedə bilməməsi

* Aztəminatlı iş və iş yerlərinin çatışmamazlığı

* Zəif iqtisadi artım -insanların tələbatlarını ödəmək üçün ölkənin kifayət qədər büdcəyə malik olmaması

* Gender tarazlığının pozulması - qadın və kişiyə fərqli münasibətin yaranması, onlara eyni imkanların yaradılmaması

* Müharibələr, iğtişaşlar və stabil olmayan vəziyyət

* İnsanların özünü təhlükəsiz hiss etməməsi

* İnsana qarşı zorakılıq

* Ədalətsizlik və rüşvətxorluq

* İnsan hüquqlarının pozulması

* Ölkələrin heç vaxt bir-birləri ilə birlikdə və ümumi razılaşmalara əsasən münasibət qurmaması

* İnsanların rahatlığının pozulması - enerji qıtlığı

* Zəif infrastruktur, inkişaf etməmiş texnologiya və kommunikasiya

* Təhlükəli zonada yerləşən şəhər və kəndlər

* Qeyri-stabil həyata malik şəhərlər

* Resursların böyük itkisi və itirilən resursların yenidən istifadəyə yararlı olmaması

* İqlim dəyişikliyi

* Dəniz və okeanların çirklənməsi

* Bəzi yaşayış yerlərinin tərk edilməsi

* Texnoloji alətlərin əlçatan olmaması, telefon və kompüterlərin çox baha olması

* İnsanların özünü qorunan hiss etməməsi

* Əhali artımı

* Piylənmə

* İrqçilik

* Kiçik şəhərlərin yox olması

# Ölkə üzrə 46-cı, şəhər üzrə birinci



**İradə BEHBUDOVA,**
*Sumqayıt şəhər 21 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

Müəllim yalnız elm öyrədən deyil, məktəbli-gələcəyin şəxsiyyəti ilə elm arasında əlaqə yaradan bir qurucudur. İllərin təcrübəsindən bu qənaətə gəlmişəm ki, müəllimlik sənəti oxuyaraq diplom alanlar üçün deyil, müəllim kimi doğulanlar üçündür. Müəllim uşaqları sevməli, onlara şəxsiyyət kimi yanaşmalı, arzu və meyillərini, bacarıq və istedadlarını aşkar edib yaradıcı iş qurmalıdır. "Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır", - deyən ümummilli liderimiz Heydər Əliyevin müdrik tövsiyəsi belədir ki, əsl pedaqoq olmaq, şagird və tələbələrə mükəmməl, hərtərəfli bilik vermək, onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün məktəblərdə müvafiq şərait, lazımi mühit yaradılmalı, müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır.

18 ildən artıq pedaqoji fəaliyyətim zamanı mən də məhz belə olmağa çalışmışam.

Məktəbimiz 1971-ci ildən fəaliyyət göstərir. Məzunlarımız ən müxtəlif peşə sahələrində çalışır, hazırda məktəbimizdə 1540 şagird təhsil alır, bu şagirdlər 65 sinifdə komplektləşir, 134 müəllim onların təlim-tərbiyəsi ilə məşğul olur. Məktəb iki dəfə - 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olub. Gənc nəslin təlim-tərbiyəsində səmərəli fəaliyyətinə görə məktəbimizin müəllimləri dövlət tərəfindən layiqincə qiymətləndirilərək "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləri olub, "Tərəqqi" medalına, "Əməkdar müəllim" fəxri adına, "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülüblər.

Hər il Təhsil Nazirliyi tərəfindən IX sinif buraxılış imtahanlarının nəticələri geniş təhlil edilir, respublikanın ümumtəhsil məktəblərinin rayon (şəhər) üzrə, həm də ölkə üzrə reytinq sıralanması hazırlanır. 2012-2013-cü tədris ilinin reytinq sıralamasında 21 nömrəli tam orta məktəb 4500 məktəb arasında ölkə üzrə 145-ci, şəhər üzrə 15-ci yerdə olub. Məzunların ali məktəbə qəbulu isə 54% (1 nəfər 600-dən yuxarı) təşkil edib. Yeni təlim texnologiyalarını və kurikulum proqramını dərindən bilən və düzgün qurmağı bacaran Vladim İbrahimov məktəbə direktor təyin olunduqdan sonra məktəbin nəticələrində ciddi irəliləmələr olub. 2015-2016-cı tədris ilində isə ölkə üzrə 46-cı, şəhər üzrə (4 yeni tipli məktəbi TET Gimnaziya, TETL, "İstedad", "Təfəkkür"ü nəzərə almasaq) 1-ci yerə çıxmışıq. Ötən il məzunların ali məktəbə qəbulu isə 69% olub. 4 nəfər 600-dən yuxarı bal toplayıb. Hər zaman məktəbimizin keyfiyyət göstəricisi şəhərin orta göstəricisindən üstün olub.

2015-2016-cı tədris ilindən pilot layihə kimi orta təhsilin təmayüllər üzrə təşkil olunduğu respublikanın 58 məktəbindən biri də bizim məktəbdir. Hazırda məktəbimizdə X-XI sinif şagirdləri "Texniki fənlər" və "Riyaziyyat - iqtisadiyyat" təmayüllü siniflərdə təhsil alırlar. 2017-2018-ci tədris ilindən isə bütün təmayüllər üzrə siniflər açılması nəzərdə tutulur.

Məktəbimizin şagirdləri müxtəlif müsabiqələrdə, bilik yarışmalarında uğurla çıxış edirlər. Şagirdlərimiz 2014-cü ildə İNEPO beynəlxalq layihə olimpiadasında II, 2015-ci ildə Təhsil Nazirliyi və Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin birlikdə keçirdiyi rus dili olimpiadasında I, 2015-2016-cı tədris ilində fənn olimpiadasında III yerə layiq görülüblər.

Kollektivimiz təhsil naziri Mikayıl Cabbarovun təşəbbüsü ilə atılan addımlar, verilən qərarları hər zaman dəstəkləyir, böyük məsuliyyət və həvəslə icra etməyə çalışır. 1-ci sinfə qəbulla bağlı bu il nazirliyin tətbiq etdiyi yeniliyə görə, valideynlərə məktəb və müəllimi seçmək hüququ verilib. Bu da məktəbin və müəllimin məsuliyyətini birə-beş artırır, sağlam rəqabət dinamikası yaradır.

Bir ibtidai sinif müəllimi kimi mənə görə:

- Müəllim hər bir şagirdi eyni cür sevməli, amma onların psixologiyasını nəzərə alaraq fərdi yanaşmalıdır;

- Şagirdin iç dünyasını öyrənməli, istedadını aşkar etməlidir;

- Şagird müvəffəqiyyətini işıqlandırmalı, uğursuzluğuna şərik olmalı, aradan qaldırma yollarını axtarmalıdır;

- Qismən çətin qavrayan şagirdləri daha çox həvəsləndirib, daha maraqlı iş formaları seçməlidir;

- Şagirdlərə yalnız oxumağı deyil, həyati bacarıqlar, vətən sevgisi, yoldaşlıq və əməkdaşlıq kimi milli prinsipləri aşılamalıdır;

- Müəllimlə valideyn arasında sıx əlaqə olmalı, şagirdin çətinliyinin həlli yolları birgə araşdırılmalıdır.

Müəllim - Kapitalı insan olan və bəhrəsini dövlətinə ərməğan edən müqəddəs peşə sahibidir. Bu adı şərəf və ləyaqətlə daşıyan müəllimlərimiz isə çoxdur.

# Düzbucaqlı üçbucağın yeni üsulla həlli

**Qasimi MEHDİYEV,**
*Tovuz rayonu E.Bayramov adına Əyyublu kənd tam orta məktəbinin riyaziyyat müəllimi*

Gənc nəslə yeni metodlarla təlim və tərbiyə verilməsi dövrümüzün zəruri şərtlərindən biridir.

Əsas tələblərdən biri də şagirdləri elə bilik və bacarıqlarla silahlandırmaqdır ki, onlar öz biliklərini sərbəst şəkildə artırmaq imkanına malik olsunlar.

Peşəsini sevən müəllim yaxşı müəllimdir, həm fənnini, həm də uşaqları sevən müəllim isə əsl müəllimdir.

Hər bir müəllim tədris etdiyi materialı lazımi metodlarla şagirdlərə mənimsətməyi bacarmalıdır. Mən müəllim həmkarlarımla söhbət zamanı belə bir devizi əsas tutmağı tövsiyə edirəm: "Yaxşı müəllim olmaq istəyirsənsə öz bilik və bacarığını şagirdlərdən əsirgəmə".

Həyatda baş verən dəyişikliklərlə uyğunlaşmaq və səmərəli fəaliyyət göstərmək o zaman mümkün olur ki, insan həyatı boyu bilikləri müstəqil əldə etməyi bacarsın.

Müasir dərs, ilk növbədə, yaradıcı olmağı tələb edir. Məhz bu tələbi nəzərə alaraq mən fənnimin tədrisinə yaradıcı yanaşır, axtarışlar aparıram. Belə axtarışlarımdan birinin nəticəsində "Düzbucaqlı üçbucaqların həlli" mövzusunu tədris edərkən yenilik etmişəm. Dərsliklərimizdə və digər ədəbiyyatlarımızda yazılır ki, düzbucaqlı üçbucağın həlli üçün onun ən azı digər 2 elementi verilməlidir ki, yerdə qalan üçüncü elementini tapmaq mümkün olsun. Mən tədris prosesində xüsusi hal olaraq tərəflər natural ədədlər olduqda $a \geq 3$ şərti daxilində (a kiçik tərəfdir) istənilən düzbucaqlı üçbucağın kiçik katetinə görə, yəni, bir elementə görə yerdə qalan elementlərini tapmağı şagirdlərə öyrədirəm. Halbuki düzbucaqlı üçbucağın bir katetə görə digər elementlərinin tapılması barədə dərsliklərimizdə məlumat yoxdur.

Məsələn, əgər kiçik a katetinin uzunluğu tək ədəd olarsa $(a \geq 3)$, digər katet və hipetonuzu belə tapıram:

digər katet $\frac{a^2-1}{2}$, hipotenuz isə $\frac{a^2+1}{2}$

düsturları ilə tapılır




Bucaqlar isə məlum qaydalarla hesablanır.

Əgər a (yəni kiçik katetin uzunluğu) cüt ədəd olarsa, digər katet




$\left(\frac{a}{2}\right)^2 - 1$, hipetonuz isə $\left(\frac{a}{2}\right)^2 + 1$ düsturları ilə tapılır.

a=2n olan halı isbat edək

Pifaqor teoreminə görə

$(2n)^2+(n^2-1)^2=(n^2+1)^2$ olar

Həll etsək

$4n^2 + n^4 - 2n^2 + 1 = n^4 + 2n^2 + 1$

$n^4 + 2n^2 + 1 = n^4 + 2n^2 + 1$ alarıq.




Beləliklə, fikrimizin doğru olduğunu isbat etdik.

Bu fikri a=2n+1 (yəni tək ədəd olan hal) halı üçün də isbat edə bilərik.

Beləliklə, sonsuz sayda Pifaqor ədədləri tapa bilərik. Qeyd edim ki, bu yeniliyimlə bağlı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinə müraciət etmiş və müvafiq şəhadətnamə almışam.

Müəllim tədris prosesində öz təcrübə metodlarını şagirdlərə dərindən aşılamalıdır.

Müəllim dərsin təşkilatçısıdır və onun müasir tələblərə cavab verən dərs qura bilməsi, yeni pedaqoji texnologiyalara yiyələnməsi və tətbiq etməsi vacibdir.

Təhsil sahəsində aparılan islahatların əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Milli Kurikulum islahatı da məhz bu məqsədin reallaşmasına xidmət edir.

Müəllimin sinifdə yazı lövhəsində keçdiyi ənənəvi dərslər sıradan çıxmalı və ya əsaslı şəkildə dəyişməlidir.

Müasir dərs dövrün tələblərinə cavab verən müstəqil və məsuliyyətli pedaqoji ustalığa əsaslanır. Dövrümüz yüksək texnologiyalar dövrüdür, bu texnologiyalara isə ancaq elmi biliklərlə yiyələnmək olar. Elm isə təhsildən başlayır.

Riyaziyyatın tədrisində texnologiyanın nailiyyətlərinin tətbiqi təlimin səmərəli təşkilinə xidmət edir. Hər bir müəllim tədris olunan mövzu ilə həmin mövzunun tədrisi üsulları arasında qarşılıqlı uyğunluq axtarmalıdır.

## REGİONLAR

# Akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş konfrans

Xırdalan şəhər 3 nömrəli tam orta məktəbdə Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda rayon təhsil şöbəsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri, 4 nömrəli Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsinin əməkdaşları, məktəbin müəllim kollektivi və şagirdlər iştirak ediblər.

Məktəbin direktoru Sevinc Əliyeva çıxış edərək bildirib ki, Azərbaycanda təbiətin mühafizəsi ilə bağlı elmi məktəbin yaradılması Həsən Əliyevin adı ilə bağlıdır. Görkəmli alimin Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində xidmətləri əvəzsizdir.

4 nömrəli Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsinin nümayəndələri çıxışlarında Azərbaycanda coğrafiya, kənd təsərrüfatı, aqrobiologiya, torpaqşünaslıq, ekologiya kimi elm sahələrinin Həsən Əliyevin rəhbərliyi ilə formalaşdığını və inkişaf etdiyini qeyd ediblər. Akademikin ölkəmizdə ekologiya və ətraf mühitin mühafizəsi istiqamətində apardığı elmi tədqiqatlarından söz açılıb.

Tədbirdə Həsən Əliyevin həyat və elmi fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş olunub. Şagirdlər alim haqqında məruzələrlə çıxış edərək, onun təkcə Azərbaycan təbiətini deyil, Böyük Qafqaz təbiətini də tədqiq etdiyini vurğulayıblar.

Sonda Həsən Əliyevin elm sahəsində gördüyü işlərlə bağlı müzakirə təşkil olunub və şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# "Bir məqsədim var idi, müəllim olmaq"



Səltənət Qurbanova 2012-ci ildə Gəncə Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat fakültəsini bitirib. Magistr təhsilini həmin universitetdə alan S.Qurbanova 2015-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsində yüksək nəticə göstərərək, Göygöl rayonunun Çaylı kənd tam orta məktəbində gənc müəllim kimi işə başlayıb.

## *Səltənət QURBANOVA:* "Çətinlik olubsa da, artıq arxada qalıb"

*- Bakalavr və magistr təhsilindən sonra şəhərdən kifayət qədər uzaq bir kənddə müəllim kimi çalışmaq qərarına necə gəldiniz?*

- İstər ixtisas seçimi zamanı, istərsə də universitetdə təhsil aldığım müddətdə sadəcə bir məqsədim var idi, müəllim olmaq. Xatırlayıram, ixtisas seçimində də çoxları mənə fərqli ixtisas seçməyi məsləhət görürdü. Amma mən öz amalımın, məqsədimin arxasınca getdim.

*- Kənddə işə başladığınız vaxt gözləntilərinizlə qarşılaşdığınız mənzərə və insanlar sizdə necə fikir formalaşdırdı?*

- Əlbəttə ki, gözləntilər hər zaman yüksək olur. İlk olaraq çətinlik çəkirdim, sonra hər şey öz yerini tapdı.

*- Müəllimlik fəaliyyətiniz sizi qane edirmi?*

- Çətinlik olubsa da, artıq arxada qalıb. Bu gün tam şəraitli məktəb binası, sevimli şagirdlərim mənə stimul verir. İşimdən razıyam.

*- Özünüzü təkmilləşdirmək və inkişaf etdirmək üçün kənd həyatı problem yaradırmı?*

- Xeyr, heç bir problem yoxdur. Hər zaman özümü təkmilləşdirməyə çalışıram. Eyni zamanda, xarici dil biliklərimi də inkişaf etdirirəm.

*- Əsl müəllim olmaq sizin üçün nə deməkdir?*

- Hər bir şagird məktəbə bir fərd kimi gəlir. Onun cəmiyyətdə bir şəxsiyyət kimi formalaşmasını təmin etmək biz müəllimlərin borcudur. Müəllim, sözün əsl mənasında, şagirdə müəllim olmaqla yanaşı, həm də dayaq olmalıdır. Lazım gələrsə, onların maddi və mənəvi sıxıntıları ilə maraqlanmalıdır. Gənc müəllim olsam da, hər gün şagirdlərimin problemləri ilə maraqlanıram. Onları cəmiyyətə hazırlıqlı bir şəxsiyyət kimi formalaşdırmağa çalışıram.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Tarix gecəsi"

Şabran rayon Şahnəzərli kənd tam orta məktəbində tarix müəllimi Ləman Şirəliyevanın təşkilatçılığı ilə "Tarix gecəsi" keçirilib.

Tədbirdə məktəbin müəllim və şagird kollektivi, rayon təhsil şöbəsinin əməkdaşları və digər rayon məktəblərindən dəvət olunmuş qonaqlar iştirak ediblər.

Öncə Dövlət himni səsləndirilib. Əsgər geyimli şagirdlərin müşayiəti ilə səhnəyə Azərbaycan bayrağı gətirilib. Sonra "Əsgər marşı" oxunub.

Şagirdlər tarixi şəxsiyyətlər barədə topladıqları maraqlı məlumatları təqdim edib və tarixi dövrlərdən proseslər səhnələşdirilib. Həmçinin Səməd Vurğunun "Vaqif" pyesi əsasında hazırlanmış ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Daha sonra şagirdlərin ifasında "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" mahnısı və vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Sonda Qarabağın tarixi haqqında videoçarx izlənilib.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Şagirdlərdə bədii qiraət bacarıqları formalaşdırılır

Göygöl rayonunun Balçılı kənd 2 nömrəli tam orta məktəbində Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 130 illik yubileyi ilə əlaqədar "dəyirmi masa" keçirilib. Məqsəd ədəbiyyat fənninə marağın artırılması və şagirdlərdə bədii qiraət bacarıqlarının təkmilləşdirilməsinə nail olmaq olub. Dövlət himninin səslənməsi ilə başlanan "dəyirmi masa"da rayon təhsil şöbəsinin əməkdaşları, məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Məktəbin direktoru Bəhram Musayev bildirib ki, şagirdlərdə ədəbibədii düşüncələrin inkişaf etdirilməsi, onlarda sağlam düşüncə tərzinin formalaşması üçün belə tədbirlərin keçirilməsi çox vacibdir.

Tədbirdə Y.V.Çəmənzəminlinin əsərləri əsasında hazırlanmış ədəbibədii kompozisiya nümayiş etdirilib. Fənn müəllimləri yazıçının həyat və yaradıcılığı, əsərlərində poetik düşüncə tərzi barədə danışıb, öz fikirlərini bölüşüblər. Eyni zamanda yazıçının "Studentlər", "Qızlar bulağı", "İki od arasında" və digər əsərlərinin qəhrəmanları barədə müzakirələr aparılıb.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Müəllim və şagirdlər maarifləndirici tədbirlərə cəlb olunurlar



Zaqatala rayon ümumtəhsil məktəblərində mülki müdafiə ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Tədbirlərdə rayon təhsil şöbəsinin əməkdaşları, Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzi və mülki müdafiə şöbəsinin nümayəndələri, müəllim və şagirdlər iştirak edirlər.

Maarifləndirmə tədbirlərinin keçirilməsində məqsəd müəllim və şagirdlərin fövqəladə hallarla bağlı davranış qaydaları və mülki müdafiə sahəsində biliklərinin artırılmasına, baş verə biləcək təbii fəlakət, yanğın və qəza hadisələri zamanı düzgün təxliyyə tədbirlərinin görülməsinə və onların qarşısının alınmasına nail olmaqdır.

Tədbirlər zamanı mülki müdafiəyə məsul şəxslərin çıxışlarından sonra məktəblərdə süni partlayış və ya yanğın hadisələri təşkil olunur və həyəcan siqnalı verilir. Növbətçi müəllimlərin köməyi ilə şagirdlər məktəb binasından təxliyyə olunur və şərti xilasetmə əməliyyatları başlanılır.

Tədbir çərçivəsində, həmçinin siniflərdə maarifləndirici "açıq dərs"lər də keçirilir. Dərslərdə şagirdlər fövqəladə hallarla bağlı biliklərini və ilkin tibbi yardım bacarıqlarını nümayiş etdirirlər.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Ağstafa məktəbliləri üçün ekskursiyalar təşkil edilib

"Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" ilə əlaqədar Ağstafa Rayon Təhsil Şöbəsinin tabeliyindəki ümumi təhsil məktəbləri şagirdlərinin Heydər Əliyev Mərkəzinə və "Azərbaycan" parkına ekskursiyaları təşkil olunub.

Ekskursiyaların təşkil olunmasında məqsəd məktəblilərin diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltmək, Azərbaycan və dünya tarixi, mədəni və elmi-texniki tərəqqi barədə biliklərinin artırılmasına kömək etməkdir.

Ekskursiya zamanı məktəblilər əvvəlcə Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Mərkəzin əməkdaşları şagirdlərə ümummilli liderin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədləri, eləcə də müxtəlif eksponatları təqdim ediblər. Məktəblilər Heydər Əliyev Mərkəzində nümayiş etdirilən qədim Azərbaycan xalçalarından ibarət guşə ilə də tanış olublar.

Sonra şagirdlər Azərbaycan xəritəsi formasında inşa edilən "Azərbaycan" parkına ekskursiya ediblər. Burada şagirdlər Azərbaycan haqqında çox maraqlı məlumatlar əldə ediblər.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Məktəbdə elmi-praktik konfrans

Qax Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə şəhər 4 nömrəli tam orta məktəbdə "Qafqaz Albaniyası Azərbaycan tarixinin tərkib hissəsi kimi" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda Qax və Balakən rayon təhsil şöbələrinin əməkdaşları, Qax, Zaqatala, Balakən rayonlarının ümumtəhsil müəssisələrinin tarix müəllimləri iştirak ediblər. Məqsəd Azərbaycan tarixinin tərkib hissəsi olan Qafqaz Albaniyası irsinin öyrənilməsi və təbliğ edilməsi olub.

Öncə qonaqlar məktəbin VIII və IX siniflərində tarix müəllimləri Nurlanə Əzimova və Xalidə Nəzirovanın mövzu ilə bağlı təşkil olunmuş "açıq dərs"lərində iştirak ediblər.

Sonra "dəyirmi masa" ətrafında dinlənilən dərslərin təhlili aparılıb, Qax şəhər 5 nömrəli tam orta məktəbin tarix müəllimi Şükufə Muradovanın "Qafqaz Albaniyası Azərbaycan tarixinin tərkib hissəsi kimi" mövzusunda məruzəsi dinlənilib. Məruzə ətrafında çıxışlardan sonra bölgənin tarixçiləri arasında fikir mübadiləsi aparılıb və təkliflər səsləndirilib.

Sonda Qax RTŞ-nin metodkabinet müdiri Günay Mahmudova tədris ili ərzində təhsil şöbəsi tərəfindən bu mövzuda silsilə tədbirlərin keçirildiyini vurğulayıb. O, tarix dərslərində bölgənin tarixi-coğrafi mövqeyinin, spesifik tarixi faktlarının, ərazidə yerləşən Qafqaz Albaniyası dövrünə aid tarixi məkanların tanıtımına dair şagirdlərin həmin tarixi abidələrə ekskursiyalarının təşkil olunduğunu qeyd edib. Qrafikə əsasən rayonda yerləşən tarix-diyarşünaslıq muzeyində "Qafqaz Albaniyası və albanlar" mövzusunda yuxarı sinif şagirdlərinə mühazirələrin oxunması iyun ayına qədər davam edəcək.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# IX sinif şagirdləri üçün sınaq imtahanı keçirilib

Sabirabad Rayon Təhsil Şöbəsi buraxılış imtahanlarına hazırlıq məqsədi ilə rayon ümumi təhsil məktəblərinin IX sinif şagirdləri üçün sınaq imtahanı keçirib.

İmtahan ucqar kəndlərin şəhər mərkəzindən 70 km və daha uzaq məsafədə olması nəzərə alınaraq 7 mərkəzdə-şəhər 2, 5, 6 nömrəli tam orta, Qarağac, Moranlı, Çiçəkli və Şıxsalahlı kənd tam orta məktəblərində keçirilib. Ümumilikdə sınaq imtahanında 1399 şagird iştirak edib.

Sınaq imtahanının əvvəlində təhsil şöbəsinin əməkdaşları nəzarətçi və şagirdlərə imtahanın qaydaları haqqında ümumi məlumat veriblər. Şagirdlərin qaydalarla bağlı sualları cavablandırılıb.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

ELAN

# DƏRSLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ EKSPERT XİDMƏTLƏRİ

**Xidmətlər haqqında qısa məlumat:** Dərsliklərin qiymətləndirilməsi “Dərslikləri qiymətləndirmə meyarları”na əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında fəaliyyət göstərən Dərslikləri Qiymətləndirmə Şurası (bundan sonra Şura) tərəfindən həyata keçirilir. Şura müstəqil qurumdur və əsas funksiyası ümumtəhsil məktəblərində istifadə ediləcək dərslik komplektləri (DK) üzrə ekspert qrupları formalaşdırmaqla onların qiymətləndirilməsi prosesini təşkil etməkdən ibarətdir. Seçilmiş ekspertlər dərslik komplektlərinin layihələrinin dövlət standartlarına və təhsil proqramına (kurikuluma) uyğunluğunu, onların məzmununun elmi etibarlılığını və sosial həssaslığını, pedaqoji yanaşmalarını, bədii tərtibat və dizaynını, dil və yazı üslubunu qiymətləndirəcəklər.

**Tələb olunan xidmətlər:** ***İbtidai təhsil səviyyəsinin aşağıdakı fənləri üzrə ekspert xidmətləri.***

- Azərbaycan dili (tədris dili kimi)
- Riyaziyyat
- Həyat bilgisi
- Русский язык (как язык обучения)
- Математика
- Познание мира

**Xidmətin icra olunduğu yer:**
Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Xidmətin icra müddəti:** 30.12.2017-ci il tarixədək

**Namizədlərə verilən tələblər:**

1. *Təhsili:* Namizəd müraciət etdiyi xidmətlərin istiqamətinə uyğun ali təhsilə malik olmalıdır.
2. *Təcrübəsi:* Namizəd müraciət etdiyi fənnə uyğun ən azı 5 illik pedaqoji təcrübəyə malik olmalıdır.
3. *İKT-dən istifadə bacarıqları:* Namizəd Microsoft World proqramından istifadə etməyi bacarmalıdır.

**Müraciət forması:** Müraciət edən şəxslər qiymətləndirmək istədiyi fənni göstərmək şərti ilə elana əlavə olunmuş formada öz avtobioqrafiyasını (CV) 31.05.2017-ci il tarixədək **aynure.hesenova@edu.gov.az** elektron poçtuna göndərə bilərlər.

**Müraciətə baxılması:** Daxil olan CV-lər əsasında tələblərə ən yüksək səviyyədə cavab verən namizədlər seçilərək onlardan qiymətləndirmək istədiyi fənn üzrə ən azı bir dərsliyi qiymətləndirmək istəniləcəkdir. Təqdim edilən sınaq qiymətləndirmə əsasında ən uğurlu namizədlər müəyyənləşdiriləcək və onlar müsahibəyə dəvət ediləcəkdir.

**Əlavə məlumatları iş günləri saat 09.00-dan 18.00-dək bu ünvandan almaq olar:**

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.
Azərbaycan Respublikası Təhsil Nazirliyi
Əlaqələndirici şəxs: Aynurə Novruz qızı Həsənova
Əlaqə telefonları: (+ 994 012) 599-11-55 (əlavə 5126)
E-poçt: **aynure.hesenova@edu.gov.az**

**Avtobioqrafiya (CV) formatı**

**Müraciət edilmiş xidmətin təsviri:** ______________________

(şəkil üçün yer)

**Müraciət edənin:**

1. **Soyadı, adı, atasının adı:** ______________________
2. **Doğum tarixi:** ______________________
3. **Ünvanı:** ______________________
4. **Əlaqə telefonu:** ____________ **Elektron poçt ünvanı:** ______________________
5. **Təhsili:** *[Təhsil aldığı müəssisələrin adları, təhsil müddəti və ixtisas dərəcələri göstərilməklə, təhsili barədə tam məlumat]:* ______________________
6. **Peşəkar cəmiyyətlərdə üzvlüyü:** ______________________
7. **Aldığı təlimlər:** [*5-ci bənddə qeyd olunmayan və tapşırığın yerinə yetirilməsi üçün uyğun bilinən əhəmiyyətli təlimlər*]: ______________________
8. **Bildiyi dillər**: *[Hər bir dildə danışıq, oxu və yazı üzrə bilik səviyyəsi: əla, yaxşı, kafi və ya qeyri-kafi.]* ______________________
9. **İş yerləri**: *[Hazırkı iş yerindən başlayaraq, əks ardıcıllıqla bütün daimi iş yerləri: tarixlər, işəgötürənlərin adları, vəzifələrin adları göstərilməklə.]*
   **[*İl*]-dən:** _____ **[*İL*]-dək:** _____
   İşəgötürən: ______________
   Vəzifə: ______________
10. **Aldığı tapşırıqların öhdəsindən gəlmək qabiliyyətini ən dəqiq şəkildə göstərən yerinə yetirilmiş layihələr:**

| № | Layihənin adı və təsviri | Sifarişçi | Tarixi və yeri | Layihədə vəzifəsi | Yerinə yetirdiyi tapşırıqlar |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |

__________ Tarix: __________ İmza

# “Vətən”in 17 yaşlıları qalib oldu




Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkil etdiyi Bakcell U-17 Liqanın qalibi müəyyənləşib. Çempionatın final yarışında “AZAL” komandası ilə qarşılaşan “Vətən” İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbinin 17 yaşlılardan ibarət yığma komandası 3:1 hesabı ilə üstün gələrək liqanın qalibi olub.

Qaliblərə AFFA-nın baş katibi Elxan Məmmədov, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov, AFFA İcraiyyə Komitəsinin üzvü Vaqif Sadıqov, texniki direktor Bernhard Lippert, Bakcell şirkətinin rəsmi nümayəndəsi tərəfindən mükafatlar təqdim olunub.

# IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş idman tədbirləri başa çatdı

IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri başa çatıb. Şirvan Olimpiya İdman Kompleksində sərbəst güləş və yunan-Roma, Respublika Olimpiya Manejində atletika, Bakı Ağ Şəhər bulvarı ərazisində basketbol, Şəmkir Olimpiya İdman Kompleksində taekvando idman növləri üzrə zona yarışları keçirilib.

800 nəfərə yaxın məktəbli idmançının qatıldığı yarışlarda sərbəst güləş idman növü üzrə I yerə Şirvan, II yerə İmişli, III yerə Xocavənd, yunan-Roma güləşi idman növü üzrə I yerə Şirvan, II yerə Sabirabad, III yerə Beyləqan, atletika idman növü üzrə I yerə Nizami, II yerə Nərimanov, III yerə Xəzər, basketbol idman növü üzrə I yerə Nərimanov, II yerə Xətai, III yerə Nizami, taekvando idman növü üzrə I yerə Şəmkir, II yerə Gəncə, III yerə Tovuz rayon və şəhərlərin komandaları layiq görülüb.

Qeyd edək ki, IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirlərinə martın 30-da start verilib. Bu müddət ərzində ölkənin 76 şəhər və rayonu əhatə olunmaqla sərbəst güləş, yunan-Roma güləşi, cüdo, taekvando, karate, boks, atletika, stolüstü tennis, basketbol, akrobatika gimnastikası, bədii gimnastika idman növləri üzrə zona yarışları keçirilib.

Kütləvi idman tədbirləri çərçivəsində 50 zona yarışları təşkil olunub, həmin yarışlara 6619 məktəbli qatılıb, 616 fiziki tərbiyə müəllimi cəlb olunub, oyunları 100-ə yaxın hakim idarə edib.

Qaliblər diplom və medallarla təltif edilib, yarşılara qatılan hər bir iştirakçıya idman geyimləri, məktəbli azarkeşlərə isə idman köynəkləri hədiyyə edilib.

Kütləvi idman tədbirlərinin keçirilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan idman növlərini məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdən ibarət olub.

# İdman məktəbinin yetirməsi Avropa çempionu olub

Polşanın Varşava şəhərində kişilər arasında cüdo üzrə Avropa çempionatı keçirilib.

Çempionatda ölkəmizi təmsil edən cüdo üzrə yığma komandanın tərkibində 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (İOEUGİM) idmançısı Hidayət Heydərov 73 kq çəki dərəcəsində uğurla çıxış edərək Avropa çempionu adını qazanıb.

Qeyd edək ki, Varşavada bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanan Hidayət Heydərov qitənin ən mötəbər yarışında birinci yeri tutan ən gənc cüdoçu olub. İdmançımız Avropa Cüdo Birliyi tərəfindən “Avropanın ən yaxşı gənc cüdoçusu” mükafatına layiq görülüb.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

# Gəncə Dövlət Universiteti

**aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

**Kafedralar üzrə boş olan vəzifələr:**

| | |
|---|---|
| 1. Azərbaycan və dünya ədəbiyyatı | - dosent, 1 yer; baş müəllim, 1 yer; |
| 2. Azərbaycan dilinin tədrisi | - dosent, 1 yer; |
| 3. Riyazi analiz | - dosent, 1 yer; |
| 4. İnformatika | - baş müəllim, 1 yer; |
| 5. İqtisadiyyat | - dosent, 1 yer; baş müəllim, 3 yer; |
| 6. Həndəsə və cəbr | - dosent, 1 yer; baş müəllim, 1 yer; |
| 7. Kimya | - professor, 1 yer; dosent, 1 yer; |
| | - baş müəllim, 2 yer; |
| 8. Fiziki tərbiyə, gənclərin çağırışaqədərki hazırlığı və mülki müdafiə | - baş müəllim, 3 yer; |
| 9. Bədən tərbiyəsi və idman | - baş müəllim, 1 yer, 0,5 ştat; |
| 10. Fizika | - baş müəllim, 2 yer; |
| 11. Leksika və ölkəşünaslıq | - baş müəllim, 1 yer. |

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması” və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 159.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:**(022) 256-73-13; (022) 256-22-69

**REKTORLUQ**

# Valideynlər və şagirdlərin nəzərinə!

**Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən “Gənc istedadlar” liseyi 2017-2018-ci tədris ilində Azərbaycan və rus bölmələrinin V sinfinə istedadlı şagirdlərin qəbulu ilə əlaqədar müsabiqə**

**ELAN EDİR:**

**Tələb olunan sənədlər:**

- *ərizə;*
- *doğum haqqında şəhadətnamənin surəti;*
- *IV sinfi bitirməsi haqqında arayış;*
- *3x4 sm ölçüdə 2 ədəd fotoşəkil.*

Sənədlər mayın 5-dən iyunun 5-dək liseyin binasında qəbul edilir.

Qəbul imtahanı 18 iyun 2017-ci il tarixdə, saat 10.00-da ana dili və riyaziyyat fənləri üzrə test üsulu ilə aparılacaq.

Liseydə dərslər BDU-nun aparıcı professor-müəllim heyəti və təcrübəli müəllimlər tərəfindən tədris olunur. Liseyə qəbul olan şagirdlər BDU-nun laboratoriyalarından, kitabxanasından, idman zallarından istifadə edirlər.

Əlavə məlumat üçün aşağıdakı ünvana müraciət etmək olar.

**Ünvan:**

Bakı şəhəri, Əhməd Cəmil küçəsi, 41a

**Əlaqə telefonu:** (012) 510-83-76.

# “Vətənimin seyrinə çağırıram elləri”

**Rəşad ZİYADOV**

Aprelin 22-də Bakıdakı 283 nömrəli tam orta məktəbdə “Təhsili dəyərə çevirək” devizi altında “Ekologiya və Sağlamlıq” istiqamətində “Ekoloji aylıqlar” layihəsi çərçivəsində Azərbaycanın təbii sərvətləri və biomüxtəlifliyinə həsr olunmuş növbəti “Vətənimin seyrinə çağırıram elləri” adlı tədbir keçirilib.

Mərasim başlamazdan öncə qonaqlar məktəbin foyesində ekologiya mövzusunda açılmış sərgi ilə tanış olublar. Sərgidəki ayrı-ayrı stend və guşələrdə şagirdlərin əl işləri, rəsm əsərləri, hazırladıqları referatlar və albomlar nümayiş olunub.

Tədbirdə şagirdlər tərəfindən Vətən təbiətinin gözəlliyini vəsf edən çıxışlar edilib. Azərbaycanın “Qırmızı kitab”ına düşmüş heyvan və bitkilərin qorunmasına həsr olunmuş səhnəciklər göstərilib. Səhnədə yer alan istedadlı məktəblilər "Həyat, sən kiminsən" şeirini və "Azərbaycan" mahnısını ifa ediblər. Mahnıdan sonra aparıcılar səhnəyə çıxıb növbə ilə ekologiyadan, onun harmoniyasını gözləməyin zəruriliyindən, insanın təbiətdən qaydasız istifadəsi nəticəsində dünyanı bürümüş ekoloji böhrandan, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ekoloji sağlamlaşdırma sahəsində aparılan işlərdən, həyata keçirilən tədbirlərdən söz açıblar. Onların çıxışları ekologiya mövzusunda şeir, mahnı, səhnəciklərlə növbələşib.



Tədbirin sonunda məktəbin direktoru Tünzalə Zeynalova çıxış edərək son illər təhsil ocağında görülən işlər, əldə olunan uğurlar haqqında məlumat verib. Layihənin əsas qayəsinin məktəblilərin mənəvi, əxlaqi, vətənpərvərlik tərbiyəsi, onların gələcəyə baxışlarını istiqamətləndirmək, dünyagörüşlərini genişləndirmək olduğunu deyən direktor həmin tədbirlərin təşkilində böyük zəhməti olan müəllimləri qonaqlara təqdim edib, onlara öz minnətdarlığını bildirib.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Baş redaktor** Nurəddin Heydərov — n.heydarov@media.edu.az 538-21-66
**Baş redaktor müavini** Sarvan İbrahimov — s.ibrahimov@muallim.edu.az 538-21-55
**Məsul katib** Elman Əbdülov — e.abdulov@muallim.edu.az 510-68-73
**Elm və təhsil şöbəsi** Yusif Əliyev — y.aliyev@muallim.edu.az 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev — o.mustafayev@muallim.edu.az 538-67-41
**İnformasiya şöbəsi** Niyazi Rəhimov — n.rahimov@muallim.edu.az 538-66-05
**Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova — s.kerimova@muallim.edu.az 539-19-74
**Məktublar şöbəsi** Şakir Cəfərov — sh.cafarov@muallim.edu.az 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6214, **Sifariş** 1200
**Məsul növbətçi:** N.Rəhimov


# Beynəlxalq Yer Günü 150-yə yaxın ölkədə qeyd edilir

Paytaxtın ümumi təhsil məktəblərində Beynəlxalq Yer Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib. Tədbirlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və SOCAR-ın Ekologiya İdarəsinin əməkdaşları, təhsil müəssisələrinin rəhbərləri, müəllimlər, valideynlər, şagirdlər və digər qonaqlar iştirak ediblər.

Tədbirlərin keçirilməsində əsas məqsəd şagirdləri ekoloji mövzuda daha çox məlumatlandırmaq və təbiəti qorumağın vacibliyini məktəblilərə aşılamaqdan ibarət olub.

Çıxış edənlər ətraf mühitin mühafizəsi istiqamətində Azərbaycanda həyata keçirilən tədbirlərdən danışıb, ölkəmizin müasir ekoloji durumu, ekoloji problemləri yaradan səbəblər və bu problemlərin aradan qaldırılma yolları haqqında şagirdlərə geniş məlumat veriblər. Bundan başqa, ətraf mühitin mühafizəsi sahəsində gənc nəslin rolundan söhbət açılıb, ictimaiyyətin bu sahədə fəal iştirakının, əhali arasında maarifləndirmə işlərinin aparılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd olunub ki, Beynəlxalq Yer Günü hazırda 150-yə yaxın ölkədə, o cümlədən Azərbaycanda qeyd edilir. Yer Günü ərəfəsində insanlar müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyirlər.

Tədbirlərdə şagirdlər Beynəlxalq Yer Gününə həsr olunmuş şeirlər, mahnılar söyləyib və ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Həmçinin, təhsil müəssisələrində Beynəlxalq Yer Günü münasibətilə şagirdlərin əl işlərindən ibarət sərgilər təşkil olunub, divar qəzetləri hazırlanıb.

# Yeni sistem təqdim olunub

**ELM XƏBƏRLƏRİ**

**Yusif ƏLİYEV**

Almaniyanın “Mercedes-Benz” şirkəti sürücünün vəziyyətini müşahidə edən yeni sistemini təqdim edib. Belə ki, “Vitality Coach” adlı yeni system məlumatları kompüterə ötürərək sürücünün yorğunluğunu müəyyən edir.

**www.dni24.com** saytının məlumatına görə, texnologiyanın hazırlanmasında ekspertlər, o cümlədən fizioterapevt, psixoloq və terapevtlər iştirak edib. Sistem tezliklə “Mercedes-Benz” avtomobillərinin yeni modifikasiyalarında tətbiq ediləcək. Şirkət nümayəndələri qeyd edirlər ki, sürücünün sağlam və gümrah olması təhlükəsizliyin zəmanətidir, “Vitality Coach” sistemi də



məhz bu məqsədlə hazırlanıb. Yeni texnologiyada yüksək ayırdetmə dəqiqliyinə malik bir neçə kameradan istifadə edilib. Onlar bəzi əlamətlərə görə sürücünün yorğunluğunu müəyyən edir və sürücü kreslosunun vəziyyətinin dəyişdirilməsi, havanın ionlaşdırılması və s. kimi əməliyyatları yerinə yetirməyi təklif edirlər.

Mütəxəssislər sistemin təkmilləşdirilməsi üzərində çalışırlar. Belə ki, sistemin sürücünü avtomobildən kənarda da izləyə bilməsi planlaşdırılır.

# “Əbədi” disk hazırlanıb

Rusiyada informasiyanı 100 min ildən çox saxlaya biləcək “əbədi” disk hazırlanıb.

**www.tech.onliner.by** saytının məlumatında bildirilir ki, od, su və kosmik radiasiyaya dayanıqlı olan disklərin istehsalına 2021-ci ildə başlanılacaq. Tədqiqat qrupunun rəhbəri İvan Qlebovun sözlərinə görə, informasiyanın yazılması və oxunması prinsipinin hazırlanması, həmçinin yazılan materialın seçilməsinə 2015-ci ildə Perspektiv Tədqiqatlar Fondunun layihələrindən biri kimi başlanılıb.



Yeni disklərin əsas istifadəçiləri informasiyanın saxlanılmasının xüsusi əhəmiyyət kəsb etdiyi qurumlar (arxivlər, muzeylər, kitabxanalar, dövlət strukturları, ordu, banklar) olacaq. Onun fikrincə, “əbədi” disklərə IT-şirkətləri tərəfindən də böyük tələbat olacaq.

# Robot poçt işçiləri

Dünyanın bir çox poçt qutuları çeşidləyən iri zavodlarında minlərlə insan işləyir. Lakin Çinin böyük kuryer şirkətlərindən olan “Shentong” işçiləri artıq “diribaş” robotlarla əvəz edib.

**www.24gadget.ru** saytının məlumatına görə, onlar gün ərzində 200 000-ə qədər bağlamanı ildırım sürətilə çeşidləyərək təyin olunmuş ərazilərə yerləşdirirlər. Robotlar yorulmaq bilmədən 24/7 rejimində işləyir və enerji bitdikdə yenidən yüklənmə stansiyasına müstəqil yola düşürlər.

Şirkətdən bildiriblər ki, robotlar insanlarla müqayisədə



işin öhdəsindən 70% daha effektiv gəlirlər. Buna səbəb robotların çarxlar və poçtun göndərilməsilə bağlı təyinatı tanıyan ştrix-kod skaneri ilə təchiz olunmasıdır.

*İKT.az saytının materialları əsasında*

# Etibarsız sayılır

**İmişli rayonu** Aranlı kənd 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş İmanov Mahir İlham oğluna verilmiş A-049106 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Tibb Kolleci** tərəfindən 2012-ci ildə Rəsulzadə (Quliyeva) Aysel Əfsər qızına verilmiş AA-010497 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 6 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Sultanov Natiq Malik oğluna verilmiş A-077012 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1982-ci ildə bitirmiş İbişova Arifə Məmməd qızına verilmiş A-355264 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 4 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Baxşiyeva Röyalə Cəfər qızına verilmiş B-552751 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2008-ci ildə Həsənova Məryam Mövsüm qızına verilmiş B-120291 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Əli-Bayramlı şəhər** (indiki Şirvan) 10 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənova Məryəm Mövsüm qızına verilmiş B-117886 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 202 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Qurbanova (Hüseynova) Aynur Vaqif qızına verilmiş A-144722 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1997-ci ildə Xəlilova Liana Musa qızına verilmiş AB-I-003670 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Allahverdiyeva (Bayramova) Rəmziyyə Qadir qızına verilmiş A-066772 nömrəli diplom və diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Axısxa kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Kamalov Kibar İsrafil oğluna verilmiş A-033563 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Axısxa kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Kamalov Kirman İsrafil oğluna verilmiş A-098878 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 34 nömrəli dəmiryol orta məktəbini 1990-cı ildə bitirmiş Məmmədova Gültəkin Abbas qızına verilmiş A-004979 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2012-ci ildə Salamova Nərmin Səbuhi qızına verilmiş A-250010 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva Məftunə Seyidəziz qızına verilmiş 567907 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Axtaçı -Muğan kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Əliyeva Mədinə Mirzağa qızına verilmiş B-632159 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı** tərəfindən 2001-ci ildə Quliyeva Xəyalə Əsəd qızına verilmiş A-080834 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1983-cü ildə Babakişiyeva Məzə Fərhad qızına verilmiş ЖB-038959 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2014-cü ildə Ağarzazadə Zahir Fikrət oğluna verilmiş A-043331 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyi 2010-cu ildə bitirmiş Yusifova Reyhan Hafiz qızına verilmiş B-706097 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Behbudova Günay Təyyar qızına verilmiş A-117068 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**“Elm və Təhsil” Mərkəzi Təfəkkür Universiteti** tərəfindən 2003-cü ildə Məmmədova Nuranə Qorxmaz qızına verilmiş A-139742 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Kazımova Həcər Eldar qızına verilmiş A-2879 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Nərimankənd kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Şəmmədova Vəfa Tofiq qızına verilmiş A-621550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 204 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyev Elşən Tahir oğluna verilmiş B-130539 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Nəsibova Pakizə Möhvalı qızına verilmiş A-431062 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Suçma kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Əliyeva Fərqanə Mirzə qızına verilmiş 131 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Əsədullayeva Aliyə Çingiz qızına verilmiş A-626294 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Buludlu kənd tam orta məktəbinin IX sinfini 1984-cü ildə bitirmiş Süleymanov Maqsud Əyyub oğluna verilmiş A3-622759 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2002-ci ildə Musayev Samir Məhəmməd oğluna verilmiş A-100814 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1990-cı ildə Əsədullayeva Esmira Ağabəy qızına verilmiş ФB-000156 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** Horadiz qəsəbə 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Rəşidzadə Müşviq Bəylər oğluna verilmiş 026188 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumu** tərəfindən 2001-ci ildə Səfərov Zaur Məhəmməd oğluna verilmiş AB-II-061677 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Texnikumu** tərəfindən 1999-cu ildə Hüseynova Ruhəngiz Malik qızına verilmiş AB-II-000459 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayonu** Əmirvar kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Bədəlova Türanə Rüfət qızına verilmiş A-259052 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** (ADNSU) tərəfindən 1987-ci ildə Rakinskaya Yana Mixaylovnaya verilmiş PB-025542 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Muradova Gülşad Elşad qızına verilmiş A-067022 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Niftalıyeva Kamalə Elçin qızına verilmiş B-517006 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Əliyeva Leyla Kamran qızına verilmiş A-102549 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1997-ci ildə İslamova Şəfəq Ağakərim qızına verilmiş AB-I-066561 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** M.Ə.Sabir adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Novruzova Süsən Sabir qızına verilmiş B-481358 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 1997-ci ildə Zeynalova Səbinə Aydın qızına verilmiş AB-II-027124 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Nəsibova Baharxanım Ramiz qızına verilmiş B-699860 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2013-cü ildə Behbudlu Hüseyn Əli oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Davidov Ramil Bəhruz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Baloğlanova Dilarə Böyükağa qızına verilmiş B-375476 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 123 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Həsənov Məmməd Yaşar oğluna verilmiş A-407517 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – North America

by Engeli Haupt

### Activity 1

Before you read, decide which word or words go with which meaning.

| | | |
|---|---|---|
| **1.** enemy | **2.** fight | **3.** volcano |
| **4.** faithfully | **5.** break someone's heart | |

**a.** take part in a war
**b.** done with love and honesty even in a difficult situation
**c.** a group of people who are not your friends and who want to hurt you
**d.** make someone feel extremely sad
**e.** a mountain with a hole at the top that sometimes explodes and lets out very hot liquid rock and smoke

### Popocatépetl and Iztaccíhuatl

Iztaccíhuatl lived in the central valley of Mexico; she was a beautiful woman. Her name meant 'white lady'. She was in love with a young man called Popocatépetl. Her father told them that they could get married after Popocatépetl went to war, but her father didn't really believe that Popocatépetl would come back after fighting the enemy. In fact, he told other men that they could try to get Iztaccíhuatl to marry them. All of this was unknown to Iztaccíhuatl, who waited faithfully for her love to return.

Then news came: someone who hated Popocatépetl told everyone that he was dead. When Iztaccíhuatl found out, it broke her heart. She didn't know that Popocatépetl was still alive. She couldn't live with the idea of not having Popocatépetl in her life, and she definitely didn't want to marry anyone else. She chose to escape from her sad life, and killed herself with a knife. But, Popocatépetl came back ... He found it hard to believe that she had ended her life, and he carried her body to the top of a mountain hoping to wake her up. What was done could not be changed back. God saw the love that they had felt for each other, and covered them with snow. They turned into mountains, and would stand by each other's side forever.

Iztaccíhuatl's mountain is called the sleeping woman, and you can see how she is still sleeping on her back. Popocatépetl was so angry about the love that he lost that he now breathes fire. He is a volcano, watching over his love for all time.

### Activity 2.1

Decide if the following sentences are true or false, depending on the information in the text.

1. Iztaccíhuatl didn't want to marry Popocatépetl at the beginning.
2. Iztaccíhuatl's father wasn't honest with her.
3. Someone lied and said that Popocatépetl had died.
4. Popocatépetl took Iztaccíhuatl's body to a river.
5. The dead lovers were turned into volcanoes.

### Activity 2.2

Put these events from the story in the right order.

1. God covered them in snow.
2. Iztaccíhuatl's father said she could marry Popocatépetl.
3. Iztaccíhuatl thought Popocatépetl was dead, so she killed herself.
4. Popocatépetl went to war.
5. They became mountains.
6. Popocatépetl returned and carried Iztaccíhuatl to the top of a mountain.



© Hannah Eaton/British Council

### Activity 3.1

Find the missing prepositions in the text that are used with the words below. The meanings are given on the right-hand side.

1. be in love ........... (like someone very much and have romantic feelings for them)
2. come ........... (return)
3. find ........... (discover)
4. turn ........... (become)
5. watch ........... (look at; protect)

These groups of words are called multi-word verbs in English. Multi-word verbs are phrases made up of verbs and adverbs or prepositions that have a different meaning from their separate parts.

### Activity 3.2

Now write one of the multi-word verbs from Activity 3.1 in each space.

1. He doesn't want his friends to ........... that he smokes.
2. He is completely ........... her. He can't think about anyone or anything else.
3. In ancient times people believed that when people died they ........... stars. They then ........... and guided their loved ones.
4. They don't know where he is. He went out to buy bread, but he never ........... .

### Activity 4

Do you think the story is romantic or sad?
Do you know another story about lovers who cannot be together in life?

### Answers

**Activity 1**
1. c; 2. a; 3. e; 4. b; 5. d

**Activity 2.1**
1. False; 2. True; 3. True; 4. False; 5. False

**Activity 2.2**
2, 4, 3, 6, 1, 5

**Activity 3.1**
1. with; 2. back; 3. out; 4. into; 5. over

**Activity 3.2**
1. find out; 2. in love with; 3. turned into, watched over; 4. came back

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017